# Birləşmiş Millətlər Təşkilatı

# Uşaq Hüquqları Konvensiyası

# Azərbaycan Respublikasının dördüncü dövri

# HESABATI

**BAKI 2011**

# Mündəricat

**GİRİŞ**

**I. ÜMUMİ İCRA TƏDBİRLƏRİ**

Hüquqların həyata keçirilməsi üzrə ümumi tədbirlər. Əlaqələndirmə və monitorinq.

**II. UŞAQ ANLAYIŞI**

Maddə 1. Uşaqlıq yaşının təyin edilməsi

**III. ÜMUMİ PRİNSİPLƏR**

Maddə 2. Ayrı-seçkilik
Maddə 3. Uşağın ən yaxşı maraqları
Maddə 6. Yaşamaq və inkişaf etmək hüququ

Maddə 12. Uşağın baxışlarına hörmət etmək

**IV. MÜLKİ HÜQUQ VƏ AZADLIQLAR**

Maddə 7. Ad və vətəndaşlıq

Maddə 8. Fərdiliyin qorunub saxlanması

Maddə 13. İfadə etmək azadlığı

Maddə 14. Əqidə, vicdan və din azadlığı

Maddə 15. Sərbəst və dinc toplaşmaq azadlığı

Maddə 16. Şəxsi həyata hüququn müdafiə edilməsi

Maddə 17. İnformasiya əldə etmək hüququ

Maddə 37. Qeyri İnsani rəftar. İşgəncələr və azadlıqdan məhrumetmə

**V. AİLƏ MÜHİTİ VƏ ALTERNATİV QAYĞI**

Maddə 5. Valideyn himayəsi

Maddə 18. Valideynlik məsuliyyəti

Maddə 9. Valideynlərdən ayrı düşmə

Maddə 10. Ailənin yenidən birləşməsi

Maddə 27. Uşağa qayğı üzrə xərclərin əvəzinin ödənilməsi (4-cü bənd)

Maddə 20. Ailədən məhrum olmuş uşağın müdafiə edilməsi

Maddə 21. Uşağın övladlığa götürülməsi
Maddə 11. Ölkədən qeyri qanuni çıxarmaq və geri qaytarmamaq

Maddə 19. Fiziki və psixoloji reabilitasiya və sosial re-inteqrasiya (maddə 39)

Maddə 25. Qəyyumluğun vaxtaşırı yoxlanılması

## VI. İLKİN SƏHİYYƏ XİDMƏTLƏRİ VƏ RİFAH

Maddə 6. Yaşamaq və inkişaf etmək (2-ci bənd)

Maddə 23. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar

Maddə 24. Səhiyyə və səhiyyə xidmətləri

Maddə 26. Sosial müdafiə və uşaqlara qayğı xidmətləri (maddə 18-in 3-cü bəndi)

Maddə 27. Həyat səviyyəsi

## VII. TƏHSİL, ASUDƏ VAXT VƏ MƏDƏNİ-KÜTLƏVİ FƏALİYYƏT

Maddə 28. Təhsil və təlim

Maddə 29. Təhsilin məqsədləri

Maddə 31. İstirahət üçün asudə vaxt və mədəni həyat

## VIII. XÜSUSİ MÜDAFİƏ METODLARI

**Fövqəladə vəziyyətdə olan uşaqlar**

Maddə 22. Qaçqın uşaqlar

Maddə 38. Uşaqlar silahlı münaqişələrdə

Maddə 39. Reabilitasiya xidmətləri

**Qanunla ziddiyyətdə olan uşaqlar**

Maddə 40. Hüquq pozuntusu törədən yetkinlik yaşına çatmayanlar barədə ədalət mühakiməsinin həyata keçirilməsi

Maddə 37. Bənd b, c, d. İşgəncələr və azadlıqdan məhrumetmə

Maddə 37. Bənd a. Yetkinlik yaşına çatmayan şəxslərin məhkum edilməsi, xüsusilə ölüm cəzası və ömürlük azadlıqdan məhrumetmə cəzasının ləğv edilməsi

Maddə 39. Fiziki və psixoloji reabilitasiya və sosial re-inteqrasiya

Maddə 39. İstismara məruz qalmış uşaqlar, fiziki və sosial reabilitasiya və re-inteqrasiya

Maddə 32. Uşaq əməyi

Maddə 33. Narkotik vasitələrdən qanunsuz istifadə edilməsi

Maddə 34. Cinsi istismar

Maddə 36. İstismarın digər formaları

Maddə 35. Satılma, insan alveri və oğurluq

Maddə 30. Milli azlıqlara və yerli əhaliyə mənsub olan uşaqlar

**Küçələrdə yaşayan və ya işləyən uşaqlar**

## Giriş

Uşaq siyasəti Azərbaycan Respublikasının dövlət siyasətinin tərkib hissəsidir. Uşaqların hüquq və azadlıqlarının qorunması, uşaqların keyfiyyətli təhsil və yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin edilməsi, onların qayğı ilə əhatə olunması, yüksək mənəvi və sosial mühitdə böyüməsi üçün zəruri şəraitin yaradılması, hərtərəfli şəxsiyyət və layiqli vətəndaş kimi formalaşması Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin prioritet istiqamətlərini təşkil edir.

Azərbaycan Respublikası 1992-ci il 21 iyul tarixində BMT-nin "Uşaq hüquqlarına dair" Konvensiyasına, həmçinin sonradan həmin Konvensiyanın müvafiq protokollarına qoşulmuşdur. Azərbaycan Respublikası 2 oktyabr 2008-ci il tarixində Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən 2006-cı il dekabrın 13-də qəbul edilmiş "Əlillərin hüquqları haqqında" Konvensiyaya və həmin Konvensiyanın Fakültativ Protokoluna qoşulmuşdur.

Bu gün 18 yaşadək uşaqlar ölkə əhalisinin 29 faizini təşkil edir. 2008-ci ildə Azərbaycanda 152,1 min, cari ilin dörd ayı ərzində isə 48,4 min körpə dünyaya gəlmişdir ki, onların da 53,4 faizini oğlan, 46,6 faizini qızlar təşkil edir. Hesablamalara görə ötən il doğulan uşaqlar üçün gözlənilən ömür uzunluğu 72,6 yaş, o cümlədən oğlanlarda 69,9, qızlarda isə 75,4 yaş təşkil edir.

Ötən hesabat ilindən bəri Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 fevral tarixli 361 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasında ailə, qadın və uşaq problemləri ilə iş sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən dövlət orqanı - Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır.

BMT-nin Uşaq Hüquqları Komitəsinin 2006-cı il 41-ci sessiyasının yekun rəyinə və Azərbaycan Respublikasına ünvanlanmış tövsiyələrinə əsasən 2006-cı ilin aprel ayında Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin rəhbərliyi ilə Uşaq Məsələləri ilə bağlı Respublika Koordinasiya Şurası yaradılması istiqamətində tədbirlər görülür.

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 dekabr tarixli 103 nömrəli Sərəncamı ilə 2009-cu il Azərbaycan Respublikasında "Uşaq İli" elan edilmiş, Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 18 fevral tarixli 163 nömrəli Sərəncamı ilə "2009-cu ilin "Uşaq ili" elan edilməsi ilə bağlı Tədbirlər planı" təsdiq edilmişdir.

Uşaqların sağlam mühitdə tərbiyə edilməsi üçün lazımi şəraitin yaradılması, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara dövlət qayğısının artırılması, uşaq baxımsızlığının, alverinin, uşaq əməyinin istismarının, uşaqlara qarşı zorakılığın qarşısının alınması və bu kimi digər məsələlər uşaq problemləri sahəsində dövlət siyasətinin əsas istiqamətlərini təşkil edir.

BMT-nin "Uşaq hüquqlarına dair" Konvensiyasının və BMT-nin Uşaq Hüquqları Komitəsinin sonuncu yekun tövsiyələrinin icrası ilə bağlı mövcud çətinliklər barədə məlumat:

- uşaqların inkişafı və hüquqlarının müdafiəsinə yönəlmiş, müasir dövrün tələblərinə cavab verən Milli Strategiyanın hazırlanması zəruridir;
- televiziya vasitəsilə uşaqların mənəvi, əxlaqi və psixi inkişafına ziyan vuran verilişlərin yayımlanması hallarının olması və maarifləndirmə verilişlərinin kifayət qədər olmaması;
- küçədə yaşayan və ya işləyən uşaqlara kömək etmək məqsədilə dövlət sosial reabilitasiya xidmətlərinə ehtiyacın olması;
- uşaqların asudə vaxtının, yay istirahətlərinin təşkili üçün dövlət müəssisələrinin tabeçiliyində olan uşaq düşərgə və istirahət ocaqlarının kifayət qədər olmaması;
- yeni salınmış qəsəbələr istisna olmaqla, qaçqın və məcburi köçkün uşaqların təhsil aldığı məktəblərin əksəriyyəti standartlara uyğun olmayan yaşayış yerlərində (fermalarda, qazma daxmalarda və tikintisi yarımçıq qalmış binalarda) yerləşdiyindən qaçqın və məcburi köçkün uşaqların təhsil sisteminin verdiyi imkanlardan maksimum səviyyədə faydalanmasını təmin etməkdə çətinliklər mövcuddur;
- yeni qəsəbələrin salınmasına baxmayaraq, qaçqın və məcburi köçkünlərin əksəriyyətinin hələ də sanitariya baxımından yararlı olmayan yaşayış yerlərində (fermalarda, qazma daxmalarda

və tikintisi yarımçıq qalmış binalarda) yaşaması nəticəsində, həmin kateqoriyadan olan uşaqların tibbi təhlükəsizliyinin təmin edilməsində müəyyən çətinliklərin mövcudluğu;

- qaçqın və məcburi köçkünlər arasında yoxsulluq həddi 35% olduğundan bu kateqoriyadan olan uşaqlar arasında uşaq əməyinin istifadəsinin aradan qaldırılmasında çətinliklərin mövcudluğu;
- qaçqın və məcburi köçkünlərin məskunlaşdıqları yerlərdə uşaqların və yeniyetmələrin boş vaxtlarının səmərəli təşkili üçün müvafiq layihələrin həyata keçirilməsinə ehtiyacın olması.

## I. ÜMUMİ İCRA TƏDBİRLƏRİ

(maddə 4, 42 və 44 paragraf 6)

Maddə 4. Hüquqların həyata keçirilməsi. BMT-nin Uşaq Hüquqları Komitəsinin 4-cü maddə üzrə tövsiyəsi nəzərə alınaraq aşağıdakı tədbirlər həyata keçirilmişdir:

**2003-cü ildən etibarən qəbul olunmuş normativ hüquqi aktlar**

Azərbaycan Respublikasının qanunları və Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları:

- “Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair” Konvensiyaya (onun müddəalarını tamamlayan 190 nömrəli Tövsiyə daxil olmaqla) qoşulmaq barəsində” Azərbaycan Respublikasının 2004-cü il 13 yanvar tarixli 585-IIQ nömrəli Qanunu;
- “Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında” Konvensiyaya qoşulmaq barəsində” Azərbaycan Respublikasının 2004-cü il 30 mart tarixli 611-IIQ nömrəli Qanunu;
- “Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında” Azərbaycan Respublikasının 2005-ci il 3 may tarixli 904-IIQ nömrəli Qanunu;
- “Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında” Azərbaycan Respublikasının 2005-ci il 3 may tarixli 905-IIQ nömrəli Qanunu;
- “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında” Azərbaycan Respublikasının 2005-ci il 24 may tarixli 919-IIQ nömrəli Qanunu;
- “Ünvanlı dövlət sosial yardımı haqqında” Azərbaycan Respublikasının 2005-ci il 21 oktyabr tarixli 1039-IIQ nömrəli Qanunu;
- “Onkoloji yardım haqqında” Azərbaycan Respublikasının 2006-cı il 23 may tarixli 113-IIIQ nömrəli Qanunu;
- Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının 2006-cı il 10 oktyabr tarixli 515-IIIQ nömrəli Qanunu;
- “Dərman vasitələri haqqında” Azərbaycan Respublikasının 2006-cı il 22 dekabr tarixli 208-IIIQ nömrəli Qanunu;
- “Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında” Azərbaycan Respublikasının 2008-ci il 1 aprel tarixli 557-IIIQ nömrəli Qanunu;
- “Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 fevral tarixli 32 nömrəli Fərmanı;
- “Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli 298 nömrəli Sərəncamı;

- “Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramının (2005-2007-ci illər) təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 21 avqust tarixli 355 nömrəli Sərəncamı;
- “Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 30 avqust tarixli 982 nömrəli Sərəncamı;
- “BMT-nin Uşaq hüquqları Komitəsinin 2006-cı il yanvarın 9-27-də Cenevrə şəhərində keçiriləcək 41-ci sessiyasında Birləşmiş Millətlər Təşkilatının “Uşaq hüquqları haqqında Konvensiyası” ilə bağlı Azərbaycan Respublikası Hökumətinin 2-ci və 3-cü dövri hesabatlarının müzakirəsi ilə əlaqədar Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyətinin tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 27 dekabr tarixli 1210 nömrəli Sərəncamı;
- “Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 fevral tarixli 361 nömrəli Fərmanı;
- “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 24 fevral tarixli 373 nömrəli Fərmanı;
- “Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramının (2006-2015-ci illər) təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 mart tarixli 1386 nömrəli Sərəncamı;
- “Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramının (2006-2010-cu illər)” təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 aprel tarixli 1414 nömrəli Sərəncamı;
- “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 noyabr tarixli 484 nömrəli Fərmanı;
- “Məcburi köçkünlərə yemək xərci üçün verilən aylıq müavinətin artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 dekabr tarixli 1840 nömrəli Sərəncamı;
- “Sosial təminat müəssisələrində çalışan işçilərin əmək-haqlarının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 yanvar tarixli 1898 nömrəli Sərəncamı;
- “Təhsil işçilərinin əmək haqlarının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 yanvar tarixli 1899 nömrəli Sərəncamı;
- “Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Fransa Respublikası Əmək, Sosial Bərabərlik və Yaşayış Nazirliyi arasında əməkdaşlıq haqqında İnzibati Razılaşma"nı imzalamaq səlahiyyətinin verilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 27 yanvar tarixli 1921 nömrəli Sərəncamı;
- "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramının (2007-2010-cu illər)" təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 12 aprel tarixli 2089 nömrəli Sərəncamı;
- “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 aprel tarixli 2090 nömrəli Sərəncamı;
- “Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər)”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 3 iyul tarixli 2282 nömrəli Sərəncamı;
- “Bakı Musiqi Akademiyasının maddi-texniki bazasının yaxşılaşdırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 avqust tarixli 2353 nömrəli Sərəncamı;

- “Ən yaxşı ümumtəhsil məktəbi və ən yaxşı müəllim mükafatlarının təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 4 sentyabr tarixli 2373 nömrəli Sərəncamı;
- “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramının 2007-2008-ci tədris ilində maliyyələşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 5 sentyabr tarixli 2377 nömrəli Sərəncamı;
- "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 15 oktyabr tarixli 637 nömrəli Fərmanı;
- “Uşağa qulluğa görə qismən ödənişli sosial məzuniyyətdə olanlara verilən müavinətin artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 avqust tarixli 3015 nömrəli Sərəncamı;
- “Sosial təminat müəssisələrində çalışan işçilərin əmək haqlarının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 3 sentyabr tarixli 3026 nömrəli Sərəncamı;
- “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 15 sentyabr tarixli 3043 nömrəli Sərəncamı və s.

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarları:**

- “Sağlamlıq imkanları məhdud şəxslər üçün məktəbəqədər xüsusi təhsil müəssisələri haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2004-cü il 4 mart tarixli 24 nömrəli Qərarı;
- “Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Əsasnamə"nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli 65 nömrəli Qərarı;
- “Xüsusi təhsilə cəlb olunanların valideynlərinə və ya digər qanuni nümayəndələrinə uşaqlarını xüsusi təhsil müəssisələrinə, sağlamlıq və reabilitasiya mərkəzlərinə və tibb müəssisələrinə aparıb-gətirmək üçün müavinətin həcminin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001 -ci il 25 dekabr tarixli 200 nömrəli qərarına dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2004-cü il 3 dekabr tarixli 193 nömrəli Qərarı;
- “Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə inkişaf Proqramının (2005-2009-cu illər)” təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2005-ci il 3 fevral tarixli 20 nömrəli Qərarı;
- “2005-ci ildə əlillərin sosial Müdafiəsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsinin Dövlət Proqramı”nın və “2005-ci ildə ilk dəfə işaxtaranların və işsiz vətəndaşların sosial müdafiəsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsinin Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2005-ci il 7 fevral tarixli 24 nömrəli Qərarı;
- “Əlillərə, məcburi köçkünlərə, qaçqın və ya məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxsin) statusunu almış müvəqqəti yaşayış yerində və xəstəxanalarda olan qocalara, uşaqlara, aztəminatlı və ailə başçısını itirmiş şəxslərə, fövqəladə hallarda insanların xilas edilməsində və tibbi yardım göstərilməsində iştirak edərkən ziyan çəkmiş vətəndaşlara, Azərbaycan Respublikasının HİV/AİDS-lə xəstələnmiş vətəndaşlarına, orqan və (və ya) toxumaların götürülməsi zamanı əməliyyatla bağlı donorlara tibbi və əlil, əqli və ya fiziki çatışmazlıqları olan uşaqlara tibbi, defektoloji və psixoloji yardımın (xidmətin) göstərilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2005-ci il 7 mart tarixli 37 nömrəli Qərarı;

- "Şəkərli diabet üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2005-ci il 7 iyun tarixli 101 nömrəli Qərarı;
- "Hemofiliya və talassemiya irsi qan xəstəlikləri olan şəxslərin registrinin yaradılması və aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2005-ci il 6 dekabr tarixli 241 nömrəli Qərarı;
- "Sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları"nın və "Ailənin orta aylıq gəlirinin hesablanması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2006-cı il 2 fevral tarixli 32 nömrəli Qərarı;
- "Ana və uşaqların sağlamlığının qorunması üzrə Tədbirlər Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2006-cı il 15 sentyabr tarixli 211 nömrəli Qərarı;
- "Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyasının (Milli Kurrikulumun) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2006-cı il 30 oktyabr tarixli 233 nömrəli Qərarı;
- "Onkoloji xəstələrin müalicəsi üçün illik ayrılan dərman vasitələrinin, o cümlədən narkotik və qeyri-narkotik ağrıkəsici preparatların siyahısı və miqdarı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2007-ci il 29 yanvar tarixli 17 nömrəli Qərarı;
- "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2007-ci il 25 iyun tarixli 102 nömrəli Qərarı;
- "Yetkinlik yaşına çatmayanlar üçün ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisələrində yetkinlik yaşına çatmayanlara xidmət göstərilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2008-ci il 7 mart tarixli 66 nömrəli Qərarı;
- "Ölkələrarası övladlığa götürmə ilə bağlı əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə hüquqi yardım göstərən orqanların akkreditasiya Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2008-ci il 22 iyul tarixli 166 nömrəli Qərarı;
- "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 23 may tarixli 98 nömrəli qərarı ilə təsdiq edilmiş "Uşaqlar üçün valideynlərinin aliment tutulan, manat və xarici valyuta ilə aldıqları əmək haqqının və (və ya) başqa gəlirlərinin növləri"nə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2008-ci il 11 avqust tarixli 181 nömrəli Qərarı;
- "Xüsusi təhsilə cəlb olunanların valideynlərinə və ya digər qanuni nümayəndələrinə uşaqlarını xüsusi təhsil müəssisələrinə, sağlamlıq və reabilitasiya mərkəzlərinə və tibb müəssisələrinə aparıb-gətirmək üçün müavinətin həcminin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 25 dekabr tarixli 200 nömrəli qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2008-ci il 19 noyabr tarixli 258 nömrəli Qərarı;
- "Uşaqların sağlamlıq imkanları məhdudluğunun müəyyən olunması meyarları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2009-cu il 21 aprel tarixli 67 nömrəli Qərarı və s.

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nda digər hüquqlarla yanaşı uşaq hüquqlarının da müdafiəsi tədbirləri nəzərdə tutulur. BMT-nin Uşaq hüquqları üzə Komitəsinin tövsiyələri nəzərə alınaraq Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən hazırlanmış və Nazirlər Kabinetinə təqdim edilmiş uşaq hüquqlarının müdafiəsi üzrə müddəalar "Azərbaycan Respublikasında insan

hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nda öz əksini tapmışdır. Həmin Milli Fəaliyyət Planında BMT-nin "Uşaq hüquqlarına dair" Konvensiyasından, habelə Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" Protokoldan irəli gələn öhdəliklərin tam həcmdə yerinə yetirilməsi və həmin sənədlərə riayət olunmasının təmin olunması, uşaq əməyinə dair müvafiq beynəlxalq konvensiyalardan, həmçinin Beynəlxalq Əmək Təşkilatının sənədlərindən irəli gələn öhdəliklərin yerinə yetirilməsi üzrə tədbirlərin gücləndirilməsi, yetkinlik yaşına çatmayanların baxımsızlığı ilə mübarizə və sosial reabilitasiyası sahəsində qeyri-hökumət təşkilatları və beynəlxalq təşkilatlarla əməkdaşlıq, bu sahədə geniş maarifləndirmə işinin təşkili və uşaq hüquqlarının müdafiəsi sahəsində görüləcək digər tədbirlər müəyyən olunmuşdur.

Azərbaycan Respublikasının Nazirlər Kabinetində Təhsil Nazirliyinin xüsusi tipli internat məktəblərinin adlandırılmasına dair təkliflərinə baxılmışdır. Təkliflərin verilməsi onunla əsaslandırılmışdır ki, ümumi orta təhsil sistemində fiziki və psixi inkişafında müəyyən qüsurlar olan uşaqlar üçün xüsusi tipli internat məktəbləri fəaliyyət göstərir və bu təhsil müəssisələrinin əqli və fiziki cəhətdən qüsurlu olan uşaqlar üçün internat məktəbi, kar uşaqlar üçün internat məktəbi, zəif eşidən və sonradan karlaşmış uşaqlar üçün internat məktəbi, kor və zəif görən uşaqlar üçün internat məktəbi, beyin iflici və poliomelit keçirmiş uşaqlar üçün internat məktəbi və s. kimi adlandırılması bir sıra problemlər yaradır. Məktəbin adında orada təhsil alan uşaqların qüsurunun göstərilməsi həm valideynlər, həm şagirdlər, eyni zamanda cəmiyyət üçün psixoloji sarsıntı mənbəyinə çevrilir, uşaqlarda cəmiyyətdən təcrid olunma və həmyaşıdlarından fərqlənmə hisslərinin daha da güclənməsinə səbəb olur.

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinə əsasən uşaqların hüquqları və qanuni mənafeləri pozulduqda, o cümlədən valideynləri (onlardan biri) uşağın təhsili, tərbiyəsi üzrə vəzifələrini yerinə yetirmədikdə və ya valideynlik hüquqlarından sui-istifadə etdikdə uşaq öz hüquqlarını qorumaq üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında və rayon, şəhər, şəhərlərdə rayon icra hakimiyyəti orqanları yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqları üzrə komissiyalara, Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsinə, habelə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinə, 14 yaşına çatdıqda isə məhkəməyə müraciət etmək hüququna malikdir.

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən aidiyyəti qurumlarla birgə Uşaqlarla İş üzrə Respublika Koordinasiya Şurasının yaradılması istiqamətində tədbirlər görülür.

Uşağın valideynləri, eləcə də övladlığa götürənlər, qəyyumlar, himayəçilər, uşaq evlərinin müdiriyyəti uşaqların hüquq və mənafelərini müdafiə edən nümayəndələridir.

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 9 avqust tarixli 444 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə" ilə Dövlət Komitəsinin öz səlahiyyətləri daxilində uşaq hüquqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq, valideyn himayəsindən məhrum olan uşaqların, övladlığa götürülən uşaqların ümumi uçotunu, habelə Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların övladlığa götürülməsini arzu edən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin uçotunu aparmaq, Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsinə razılıq vermək, ölkələrarası övladlığa götürmə məsələləri üzrə zəruri tədbirləri həyata keçirmək kimi vəzifələri müəyyənləşdirilmişdir. Dövlət Komitəsi eyni zamanda aşağıdakı istiqamətlər üzrə fəaliyyəti həyata keçirir:

- uşaq hüquqlarının müdafiəsi sisteminin mexanizmləri yaradılır və bu sahədə normativ hüquqi aktlar mütəmadi nəzərdən keçirilir;
- BMT-nin "Uşaq hüquqlarına dair" Konvensiyası təbliğ edilir;
- erkən nikah problemi öyrənilir;

- uşaqların vəziyyətinin aşkarlanması məqsədilə digər dövlət orqanları cəlb edilməklə bölgələrdə seminarlar keçirilir;
- reproduktiv sağlamlıq ideyaları, zorakılığa, narkomaniyaya, HİV/AİDS-ə qarşı mübarizə geniş təbliğ edilir;
- sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyasına böyük diqqət ayrılır.

Azərbaycanda hüquqi müdafiəyə sisteminin əsasını məhkəmə müdafiəsi təşkil edir. Çünki digər dövlət orqanlarından fərqli olaraq, məhkəmənin bilavasitə funksiyası insan və hüquqi və azadlıqlarının müdafiəsidir.

Uğurla həyata keçirilən məhkəmə-hüquq islahatları nəticəsində ölkəmizdə əvvəlkindən prinsipcə köklü surətdə fərqlənən yeni hüquq sistemi yaradılmış, məhkəmələrə müstəsna səlahiyyətlər verilmiş, məhkəmə hakimiyyətinin mövqeyi gücləndirilmiş, hakimlərin maddi və sosial təminatı xeyli yaxşılaşdırılmış, pozulmuş hüquqların müdafiəsi üçün məhz məhkəmələrə müraciət edilən sayı dəfələrlə çoxalmışdır.

Məhkəmə fəaliyyətinin səmərəliliyinin artırılması üçün müsbət beynəlxalq təcrübədən və nüfuzlu beynəlxalq təşkilatların imkanlarından istifadə məqsədilə bir çox mötəbər beynəlxalq qurumlarla sıx işgüzar əlaqələr qurulmuşdur.

Bu istiqamətdə Avropa Şurası ilə əməkdaşlığa xüsusi önəm verilərək Hakimlərin müstəqilliyi, seçimi və təyinatı, fəaliyyətlərinin qiymətləndirilməsi, Məhkəmə etikası və deontologiya, Hakimlərin intizamı, habelə tədrisi üzrə Azərbaycan-Avropa Şurası birgə işçi qrupları yaradılmış, ölkəmizdə məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə işlərin çərçivəsini müəyyənləşdirilən xüsusi Fəaliyyət Planı qəbul edilmiş, səmərəli təkliflər hazırlanmışdır.

Məhkəmə sistemini müasirləşdirilməsi və ədalət mühakiməsini səmərəliyinin artırılması istiqamətində “Məhkəmə-hüquq Şurası haqqında” və “Məhkəmələr və hakimlər haqqında Qanuna əlavə və dəyişikliklər edilməsi haqqında” Qanunların qəbulu, habelə 2006-cı ildə imzalanmış fərmanlar xüsusi haqqında kəsb etmişdir. Belə ki, tərkibə əsasən hakimlərdən, habelə ölkə Prezidentinin, Milli Məclisin, prokurorluğun, Vəkillər Kollegiyasının nümayəndələrindən və digər şəxslərdən formalaşdırılmış, məhkəmə hakimiyyətinin özünüidarəetmə funksiyalarını həyata keçirən və mahiyyətcə yeni qurum olan Məhkəmə-Hüquq Şurası yaradılmış, hakimlərin immunitetinə və səlahiyyət müddətlərinə yenidən baxılmış, hakim vəzifəsinə ömürlük təyinat təsbit olunmuş, onların intizam məsuliyyəti məsələləri təkmilləşdirilmiş və Məhkəmə-Hüquq Şurasının müstəsna səlahiyyətinə aid edilmişdir. Bundan başqa Məhkəmə-Hüquq Şurası yanında hakimlərin və prokurorların tədris sektoru təsis edilmiş və bu istiqamətdə digər tədbirlər görülmüşdür.

Həmçinin məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi və əhalinin hüquq institutlarına müraciət imkanlarının əsaslandırılması üçün ölkə hakimlərinin sayı və məhkəmə aparatlarının ştat vahidləri artırılmış, hakim vəzifələrinə namizədlərin seçilməsi qaydası daha da təkmilləşdirilmiş, bu proseduran ən təkmil və qabaqcıl üsullarla –yazılı və şifahi imtahan əsasında, uzunmüddətli təlimin və yekun müsahibənin nəticələri nəzərə alınmaqla həyata keçirilməsi prosedura müəyyən olunmuş, Hakimlərin Seçki Komitəsi formalaşdırılmış, hakim assosiasiyalarının işi yenidən qurulmuş, ilk dəfə olaraq hakimlərin fəaliyyəti yeni proseduralarla qiymətləndirilmişdən müasir qaydalara uyğun olaraq hakimliyə namizədlərin seçimi aparılmışdır.

Qeyd olunmalıdır ki, ölkə başçısının "Məhkəmə sisteminin müasirləşdirilməsi barədə" 19 yanvar 2006-cı tarixli Fərmanına əsasən kasasiya və apelyasiya instansiyası məhkəmələrinə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququn öyrənilməsi işini təşkil etmələri və onu məhkəmə təcrübəsində nəzərə almaları tövsiyə edilmişdir.

Fərmana uyğun olaraq məhkəmələrə qanunvericiliyin və beynəlxalq konvension normaların düzgün tətbiqində metodiki yardım göstərilməsi məqsədilə Azərbaycan Respublikası Ali Məhkəməsi tərəfindən bu sahədə olan məhkəmə təcrübəsinin ümumiləşdirilməsi həyata keçirilmiş və bunun nəticələrinə əsasən ədalət mühakiməsinin həyata keçirilməsi zamanı "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası müddəalarının və insan hüquqları üzrə Avropa Məhkəməsinin tətbiqi haqqında həmin məhkəmənin 30. 03. 2006 - cı il tarixli Plenum Qərarı qəbul olunmuşdur.

Plenumun qeyd olunan Qərarı təcrübədə tətbiq olunması üçün bütün məhkəmələrə və ibtidai istintaq orqanlarına göndərilmişdir.

**Hüquqların həyata keçirilməsi üzrə ümumi tədbirlər. Əlaqələndirmə və monitorinq.**

Azərbaycan Respublikasının Ailə, qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi uşaq problemləri ilə iş sahəsində dövlət siyasətini həyata keçirən orqandır. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 9 avqust tarixli 444 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"yə görə Komitə müvafiq sahədə vahid dövlət siyasətinin formalaşmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir, digər icra hakimiyyəti orqanlarının müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirir.

Uşaqlar Azərbaycan Respublikasının Ailə, qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin müvafiq fəaliyyətindən xəbərdardırlar. Belə ki, 2008-ci ildə Dövlət Komitəsinin nəzdində "Uşaq hüquqları" məktəbi yaradılmış və bu məktəbin daxilində məktəblərin şagirdləri müəyyən vaxtlarda uşaq hüquqları konvensiyası, zorakılıq, sağlam həyat tərzi və digər mövzularda Dövlət Komitəsinin ekspertləri və əməkdaşları tərəfindən təlimləndirilir, uşaqlarla məktəblərdə debatlar təşkil olunur, əlamətdar günlərdə uşaq müəssisələri və icmalarda ailələrlə görüşlər və müzakirələr təşkil edilir. 2006-cı ildən etibarən Dövlət Komitəsinin əməkdaşları respublikanın bütün rayonlarında uşaq və gənclərlə görüşlər və təlimlər keçirir və uşaq ili çərçivəsində ümumrespublika təbliğat kompaniyası aparılır.

Dövlət Komitəsinin nəzdində iki Uşaq və Ailələrə Dəstək Mərkəzi (Goranboy və Şüvəlan rayonlarında) fəaliyyət göstərir və bu mərkəzlər öz işlərində potensialın artırılması təlimlərini internat müəssisələrinin işçiləri, yerli bələdiyyə, digər icra hakimiyyəti orqanları, tibb işçiləri və uşaqlar üçün həyata keçirirlər.

Dövlət Komitəsi yarandığı ildən etibarən hər ilin sonunda və rüb ərzində hesabat iclası və kollegiyalar keçirir, ilin sonunda digər dövlət strukturları kimi fəaliyyəti ilə bağlı qanunvericiliyə uyğun olaraq müvafiq hesabatlar təqdim edir.

BMT-nin Uşaq Hüquqları Komitəsinin Azərbaycan Respublikasına 2006-cı ildə təqdim etdiyi tövsiyənin 15-ci maddəsi nəzərə alınaraq, UNİCEF-in maliyyə dəstəyi ilə "Uşaq hüquqlarının müdafiəsi: Ombudsmanın uşaq hüquqları sahəsində işinin gücləndirilməsi" layihəsi çərçivəsində insan və texniki resurslarla təmin olunaraq 2006-cı ildə İnsan hüquqları üzlə müvəkkilin (Ombudsmanın) yanında Uşaq Hüquqları Mərkəzi yaradılmışdır. Mərkəz tərəfindən uşaq hüquqlarının qorunması, uşaq hüquqlarına dair verilən şikayətlərin təhlili, BMT-nin "Uşaq hüquqlarına dair" Konvensiyasının və milli qanunvericiliyin həyata keçirilməsinin monitorinqi, yaş və gender amilləri nəzərə alınaraq uşaq hüquqlarının tədrisi üzrə müvafiq tədris modulları və proqramlarının hazırlanması, ictimaiyyət arasında uşaq hüquqları ilə bağlı maarifləndirmə işinin

gücləndirilməsi, kütləvi informasiya vasitələrində uşaq hüquqlarının pozulması hallarını əks etdirən məlumatların monitorinqinin aparılması, uşaq hüquqları üzrə maarifləndirmə kompaniyasının keçirilməsi, dövlət müəssisələrində (uşaq evlərində, internat məktəblərində, polis şöbələrində və uşaqların saxlandığı müəssisələrdə) uşaqlara qarşı baş verən zorakılıq hallarının araşdırılması, uşaq hüquqlarının müdafiəsinə dair beynəlxalq təcrübənin öyrənilməsi, habelə digər vəzifələri həyata keçirir.

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 mart tarixli 1386 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı (2006-2015-ci illər)"nın icrasının təmin edilməsi, həyata keçirilən layihələrin, digər icraçı qurumların bu sahədə fəaliyyətinin əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 iyun tarixli 174s nömrəli Sərəncamına əsasən Təhsil Nazirliyinin nəzdində işçi qrupu yaradılmışdır.

İşçi Qrupu və BMT-nin Uşaq Fondunun (UNİCEF-in) milli ekspertləri ilə birgə respublikanın 55 dövlət uşaq müəssisəsinin və bu müəssisələrdə təlim-tərbiyə alan 15000 nəfərə yaxın uşağın qiymətləndirilməsi həyata keçirilmiş, müvafiq məlumat bazası yaradılmışdır.

**Dövlət uşaq müəssisələrində aparılan qiymətləndirmənin nəticələri barədə məlumat**

| Cinsi | Nəfərlə | Faizlə |
|---|---|---|
| Kişi | 2900 | 71,5 |
| Qadın | 1155 | 28,5 |
| **Cəmi** | **4055** | **100** |

| Uşaqların yaşı | Nəfərlə | Faizlə |
|---|---|---|
| 0 - 3 yaş arası | 74 | 1,82 |
| 4 - 6 yaş arası | 106 | 2,61 |
| 7 - 11 yaş arası | 1509 | 37,21 |
| 12-16 yaş arası | 1833 | 45,20 |
| 17-18 yaş arası | 373 | 9,20 |
| 18 yaşdan yuxarı | 160 | 3,95 |
| **Cəmi** | **4055** | **100** |

| Müəssisəyə düşmə tarixləri | Nəfərlə | Faizlə |
|---|---|---|
| 2008-ci il | 99 | 2,4 |
| 2007-ci il | 816 | 20,1 |
| 2006-ci il | 554 | 13,7 |
| 2005-ci il | 526 | 13,0 |
| 2004-cü il və həmin ildən əvvəl | 2060 | 50,8 |
| **Cəmi** | **4055** | **100** |

| Uşağın təhsili | Nəfərlə | Faizlə |
|---|---|---|
| Məktəbəqədər yaşda | 178 | 4,39 |
| I sinif | 360 | 8,88 |
| II sinif | 360 | 8,88 |
| III sinif | 396 | 9,77 |
| IV sinif | 419 | 10,33 |
| V sinif | 398 | 9,82 |
| VI sinif | 412 | 10,16 |
| VII sinif | 393 | 9,69 |
| VIII sinif | 347 | 8,56 |
| IX sinif | 300 | 7,40 |
| X sinif | 114 | 2,81 |
| XI sinif | 70 | 1,73 |
| Peşə məktəbi | 22 | 0,54 |

| | | |
|---|---|---|
| Kollec | 6 | 0,15 |
| Qrup (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan internat evlərində təşkil edilən təhsilə aiddir) | 280 | 6,91 |
| **Cəmi** | **4055** | **100** |

| Uşağın hüquqi statusu | Nəfərlə | Faizlə |
|---|---|---|
| Hər iki valideyni vəfat etmiş | 75 | 1,8 |
| Valideynlərdən biri vəfat etmiş-ata | 55 | 1,4 |
| Valideynlərdən biri vəfat etmiş-ana | 42 | 1,0 |
| Valideyn himayəsindən məhrum olmuş | 72 | 1,8 |
| Atılmış ( sənəd olmadan) | 259 | 6,4 |
| Atılmış (valideynləri məlum deyil) | 68 | 1,7 |
| Müvəqqəti yerləşdirilmiş (valideyn ərizəsinə əsasən) | 3484 | 85,9 |
| **Cəmi** | **4055** | **100** |

| Müəssisədən əvvəl olduğu yer | Nəfərlə | Faizlə |
|---|---|---|
| Bioloji ailə | 3492 | 86,1 |
| Genişlənmiş ailə | 99 | 2,4 |
| Övladlığa qəbul edilmiş ailə | 4 | 0,1 |
| Qəyyum-himayəçi ailə | 28 | 0,7 |
| Tibb müəssisəsi (doğum evi) | 50 | 1,2 |
| Digər dövlət uşaq müəssisəsi | 277 | 6,8 |
| Küçədən tapılıb | 56 | 1,4 |
| Digər müəssisə (Ümid sığınacağı) | 49 | 1,2 |
| **Cəmi** | **4055** | **100,0** |

| Uşağın müəssisəyə düşmə səbəbi | Nəfərlə | Faizlə |
|---|---|---|
| Hər iki valideyni vəfat etmiş | 80 | 1,97 |
| Ana vəfat edib | 181 | 4,46 |
| Ata vəfat edib | 412 | 10,16 |
| Valideyn himayəsindən məhrum olmuş | 212 | 5,23 |
| Valideyni həbsdədir | 144 | 3,55 |
| Valideynlər arasında nikahın pozulması | 836 | 20,62 |
| Tək ana(ata) | 1142 | 28,16 |
| Validеynin narkotik vasitələrdən və alkoqollu | 8 | 0,20 |

| | | |
|---|---|---|
| içkilərdən istifadə etməsi | | |
| Valideynin yaşayış yerinin olmaması | 337 | 8,31 |
| Valideynin işsiz olması | 796 | 19,63 |
| Uşağın ailədə təhqir və etinasızlığa məruz qalması | 14 | 0,35 |
| Valideynlərin ağır xəstəliyi | 207 | 5,10 |
| Ailənin maddi vəziyyətinin pis olması (aztəminatlı) | 1909 | 47,08 |
| Pis yaşayış şəraiti | 982 | 24,22 |
| Valideynlərin xaricdə yaşaması | 51 | 1,26 |
| Uşağın ağır xəstə olması | 308 | 7,60 |
| Uşağın xüsusi təhsilə ehtiyacı olması | 1219 | 30,06 |

| Müəssisəyə yerləşməyə qərar verən orqan | Nəfərlə | Faizlə |
|---|---|---|
| Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 267 | 6,58 |
| Təhsil Nazirliyi | 3677 | 90,68 |
| Səhiyyə Nazirliyi | 111 | 2,74 |
| **Cəmi** | **4055** | **100** |

| Uşağın himayəçisi | Nəfərlə | Faizlə |
|---|---|---|
| Bioloji ailə | 1633 | 40,27 |
| Bioloji ana | 1581 | 38,99 |
| Bioloji ata | 236 | 5,82 |
| Genişlənmiş ailə | 184 | 4,54 |
| Qəyyum | 43 | 1,06 |
| Övladlığa götürmüş valideyn | 3 | 0,07 |
| Müəssisənin himayəsində | 375 | 9,20 |
| **Cəmi** | **4055** | **100** |

| Uşağın bacı və qardaşları | Nəfərlə | Faizlə |
|---|---|---|
| yoxdur | 1059 | 26,12 |
| 1 nəfər | 1432 | 35,31 |
| 2 nəfər | 880 | 21,70 |
| 3 və daha çox | 684 | 16,87 |
| **Cəmi** | **4055** | **100** |

| Bacı və ya qardaşlarının yaşadığı yer | Nəfərlə | Faizlə |
|---|---|---|
| Bioloji ailə | 1631 | 40,22 |
| Genişlənmiş ailə | 33 | 0,81 |
| Qəyyumun ailəsi | 9 | 0,22 |
| Övladlığa qəbul etmiş ailə | 7 | 0,17 |
| Eyni müəssisədə | 1607 | 39,63 |
| Digər müəssisədə | 104 | 2,56 |
| Yetkinlik yaşında | 229 | 5,65 |
| Bacı və ya qardaşlarının yaşadığı yer barədə məlumat yoxdur | 332 | 8,19 |

| Uşağın yaxınları ilə əlaqəsi | Nəfərlə | Faizlə |
|---|---|---|
| Uşaq ailəyə baş çəkir | 2860 | 70,53 |
| Yaxınları müəssisəyə gəlir | 2809 | 69,27 |
| Məktubla | 50 | 1,23 |
| Telefon zəngləri | 744 | 18,35 |
| Əlaqə yoxdur | 387 | 9,54 |

| Uşağın evə getmə tezliyi | Nəfərlə | Faizlə |
|---|---|---|
| Hər şənbə -bazar | 1329 | 32,77 |
| Hərdənbir evə gedən | 2030 | 50,06 |
| Evə getməyənlər | 696 | 17,16 |
| **Cəmi** | **4055** | **100** |

| Uşağın sağlamlığı | Nəfərlə | Faizlə |
|---|---|---|
| Xroniki xəstəliklər | 191 | 4,71 |
| Əqli cəhətdən çatışmazlıqları | 813 | 20,05 |
| Eşitmə çatışmazlıqları | 392 | 9,67 |
| Görmə çatışmazlıqları | 173 | 4,27 |
| Dayaq hərəkət məhdudluğu | 210 | 5,18 |
| Enurez | 203 | 5,0062 |
| Nitq çatışmazlıqları | 390 | 9,6 |
| İrsi xəstəliklər | 8 | 0,20 |
| Anadangəlmə fiziki çatışmazlıqlar | 34 | 0,84 |
| Mantu sınağı müsbətdir (viraj) | 177 | 4,36 |
| Hepatit C | 1 | 0,02 |
| AİDS | 1 | 0,02 |
| Praktik sağlamdır | 3318 | 81,82 |

Qiymətləndirmənin nəticələri beynəlxalq meyarlara əsasən təhlil olunmuş və hər bir müəssisə barədə təkliflər dövlət uşaq müəssisələrinin transformasiyası üzrə Baş Planda qeyd olunmuşdur.

Baş Plana əsasən cari il ərzində 12, növbəti 3 il ərzində 20, beş ilə isə 23 müəssisənin transformasiya olunması nəzərdə tutulur. Yerləşdiyi ərazidən, mövcud infrastrukturundan və uşaqlara göstərilən xidmətlərin keyfiyyətindən asılı olaraq (a) müəssisənin bağlanması və ya (b) oradakı uşaqların sayının azalaraq müəssisə kimi fəaliyyət göstərməsi, yaxud (c) yerli ehtiyaclar nəzərə alınaraq onun bazasında alternativ günərzi qayğı, inkişaf-reabilitasiya mərkəzləri və müvəqqəti sığınacaqlar kimi müəssisələrin və ya ümumtəhsil məktəblərinin, peşə liseylərinin, gimnaziyaların yaradılması planda əksini tapmışdır. Müəssisələrdə çalışan işçi heyəti təhsili, yaş həddi, professionallığı nəzərə alınmaqla ixtisasartırma kurslarına cəlb edilərək, yaradılacaq xidmət sahələrində fəaliyyət göstərə biləcəklər.

Bu istiqamətdə artıq bir sıra işlər görülmüşdür. Müəssisələrin transformasiyası üzrə Baş Plan hökumət tərəfindən təsdiq edilmiş və icra üçün Təhsil, Səhiyyə, Maliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinə göndərilmişdir. Hal-hazırda İşçi Qrupu iki beynəlxalq və bir milli ekspertlə birlikdə tələb olunan maliyyə vəsaitləri də hesablamaqla, hər bir müəssisə üçün ətraflı planın hazırlanması üzərində işləyir

Baş Plana uyğun olaraq, Qazax şəhəri internat orta ümumtəhsil məktəbi transformasiya olunaraq Humanitar fənlər təmayüllü liseyə, xarici dillər təmayüllü ümumtəhsil internat məktəbi isə Xarici dillər təmayüllü gimnaziyaya çevrilmişdir.

Suraxanı rayonunda yerləşən 2 nömrəli uşaq evinin nəzdində "Günərzi Qayğı Mərkəzi" açılmışdır. Mərkəzin yaradılmasında məqsəd uşaqların müəssisələrə düşməsinin qarşısının alınmasıdır. Belə ki, mərkəzə yalnız Suraxanı rayonu ərazisində yaşayan və risk qrupuna daxil olan, aztəminatlı, çətin yaşayış şəraitində olan ailələrin uşaqları cəlb edilmişdir.

Dövlət uşaq müəssisələrinə alternativ model kimi yaradılan bu mərkəzin fəaliyyəti genişləndikcə, tədricən uşaq evi bütövlükdə Günərzi Qayğı Mərkəzinə çevriləcək. Hal-hazırda uşaq evinə gecələmək üçün gələn uşaqların qəbulu dayandırılmışdır. Uşaqların evlərinə daşınmasını təmin etmək məqsədilə mərkəzə nəqliyyat ayrılmışdır. Eyni zamanda Mərkəzin işçiləri tərəfindən uşaqların ailələri ilə iş aparılır, treninqlər keçirilir, psixoloji dəstək xidmətləri göstərilir.

Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün Respublika yardımçı internat məktəbinin nəzdində uşaq inkişaf-reabilitasiya mərkəzinin yaxın müddətdə istifadəyə verilməsi nəzərdə tutulur.

Bundan əlavə, "Uşaqların Xilası (Save the Children)" təşkilatı tərəfindən Mingəçevir şəhərində yerləşən Uşaq və Ailəyə Dəstək Mərkəzi Təhsil Nazirliyinin tabeliyinə verilmişdir. Mərkəz sağlamlıq imkanları məhdud olan uşaqların inkişafı, təhsili, cəmiyyətə adaptasiyası üzrə tədbirlər keçirir, həmçinin onların ailələrinə psixoloji, hüquqi dəstək xidmətləri göstərir.

"Uşaqların ailələrə verilməsi və alternativ qayğıya cəlb edilməsi" və "Uşaqlar üçün sosial xidmətlərin təşkili" mexanizmləri (konsepsiyası) işlənib hazırlanmış və cari ildə onların sınaqdan keçirilməsi nəzərdə tutulur.

Bu məqsədlə, "Müəssisədə yaşayan uşaqların ailələrə verilməsi və alternativ qayğıya cəlb edilməsi" pilot layihəsi hazırlanmışdır. Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi və BMT-nin Uşaq Fondu (UNİCEF) tərəfindən layihənin birgə həyata keçirilməsi üçün razılaşma əldə edilmişdir.

Layihənin məqsədi pilot seçilmiş rayonda uşaqların bioloji və ya alternativ ailələrə verilməsi və alternativ qayğıya cəlb edilməsi, risk qrupuna daxil olan uşaqların müəssisəyə düşməsinin qarşısının alınması prosesinin həyata keçirilməsi üçün uşaqların müdafiəsinin təmin edilməsidir.

Təhsil Nazirliyində Dövlət Proqramı çərçivəsində qanunvericiliyin təhlili ilə bağlı 3 nəfər hüquqşünas və 1 nəfər ekspertdən ibarət İşçi Qrupu yaradılmışdır. Uşaqların müdafiəsi sahəsində mövcud qanunvericilik təhlil olunaraq dəyişiklik barədə təkliflər veriləcəkdir.

Azərbaycan Respublikası ilə UNİCEF arasında "Uşaq müdafiə sisteminin gücləndirilməsi" ilə bağlı razılıq əldə olunmuşdur. Məhz bu məqsədlə UNİCEF Uşaq Hüquqları üzrə QHT Alyansı ilə birlikdə uşaqların problemlərinin araşdırılması və onlara müxtəlif sahələr üzrə xidmətlərin göstərilməsi ilə bağlı proqramın icrasına başlamışdır. Proqrama əsasən Uşaq hüquqları üzrə QHT Alyansının Uşaq hüquqları Klinikasının əməkdaşları Bakı şəhərinin Mərdəkan qəsəbəsində yerləşən oğlanlar üçün açıq tipli xüsusi təlim-tərbiyə və Qubada yerləşən xüsusi tədris müəssisəsində saxlanılan uşaqlarla bağlı araşdırmalar aparmışdır. Araşdırmanın əsas məqsədi qeyd olunan müəssisələrdə saxlanılan uşaqların mövcud problemlərini müəyyən etmək, hər bir uşaqla bağlı fərdi inkişaf planının hazırlanması və onların ailələrə qaytarılmasına yardım göstərməkdir.

2007-ci ilin noyabr və dekabr aylarında qeyd olunan müəssisələrdə ilkin araşdırma işləri aparılmışdır. 2008-ci ilin mart ayının sonlarında və aprel ayının əvvəllərində qeyd olunan müəssisələrdə ikinci araşdırma işləri aparılmışdır. Araşdırmalar nəticəsində qeyd olunan müəssisələrdən 9 nəfər uşaq seçilmişdir.

Hal-hazırda seçilmiş uşaqların ailələrə qaytarılması üçün onların özlərinin və ailələrinin problemlərinin həll olunması istiqamətində Təhsil Nazirliyi ilə birgə tədbirlər görülür. Uşaq Hüquqları Klinikasının nəzdindəki Uşaq və gənclərin sosial reabilitasiya mərkəzində ailəsi Bakı şəhərində yaşayan iki uşağa psixoloji dəstək və cəmiyyətə adaptasiya olunması ilə bağlı xidmətlər göstərilmişdir. İnternat məktəbinin son sinfində olan bu uşaqlar tətil müddətlərində mərkəzin xidmətlərindən yararlanmışdırlar.

İnsan hüquqları üzlə müvəkkilin (Ombudsmanın) təşəbbüsü ilə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 mart tarixli 1386 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı (2006-2015-ci illər)"nın həyata keçirilməsi prosesinin səmərəliliyini araşdırmaq məqsədi ilə 2006-cı ildə ailələrə verilmiş uşaqların vəziyyətini öyrənmək üzrə monitorinq keçirilmişdir. Belə ki, bioloji və alternativ ailələrə verilən uşaqların siyahısı Təhsil Nazirliyindən əldə edilmiş, bir sıra şəhər və rayonlara səfərlər edilmişdir. Bu məqsədlə hazırlanmış xüsusi sorğular əsasında uşaqlar və onların ailə üzvləri ilə söhbətlər aparılmış, yerlərdə araşdırmalar keçirilmişdir. Monitorinq nəticəsində aşkar edilmiş aztəminatlı ailələrə qanunvericiliyə əsasən ünvanlı dövlət sosial yardımının verilməsi ilə bağlı aidiyyəti qurumlarla ailə əlaqələndirilmiş və müraciətlər müsbət həll olunmuşdur. Həmçinin monitorinq zamanı aydın olmuşdur ki, bəzi uşaqlar ailəyə qayıtdıqdan sonra təhsildən yayınmışlar. Bununla bağlı siyahı tərtib edilərək həmin uşaqların təhsilə cəlb edilməsi ilə bağlı Təhsil Nazirliyinə müraciət edilmişdir.

Aparılan digər monitorinq zamanı aşkar edilmişdir ki, bəzən uşaqlar uşaqlara aid olmayan məhsulların reklamına cəlb edilirlər. Bu kimi halların "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun 21.2-ci maddəsinə zidd olduğunu nəzərə alaraq müvafiq orqanlara müraciət olunmuş (Ailə, qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi və İnsan hüquqları üzlə müvəkkil (Ombudsman) tərəfindən) və həmin reklamların demontaj olunmasına nail olunmuşdur.

2003-cü ildən 2009-cu ilin birinci yarım ilinədək olan dövr ərzində uşaq və gənclərlə bağlı 154 qeyri-hökumət təşkilatı, o cümlədən fəaliyyət məqsədi uşaq hüquqlarının müdafiəsi olan bir sıra qeyri-hökumət təşkilatları dövlət qeydiyyatına alınmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 27 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası"na əsasən ilk növbədə qaçqın, məcburi köçkün, əlil, sağlamlıq imkanları məhdud uşaqların və veteranların problemlərinin həll edilməsi və uşaq, qadın və gənclərin sosial, fiziki və mənəvi inkişafı ilə bağlı sahələr üzrə qeyri-hökumət təşkilatlarının təqdim etdikləri proqram və layihələrə üstünlük verilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası 2008-ci il 12 iyun tarixində qeyri-hökumət təşkilatları üçün 15 istiqamət üzrə maliyyə yardımı müsabiqəsi elan etmişdir. Müsabiqənin istiqamətlərindən biri də ailə, qadın, uşaq və gənclər problemlərinin həllinə dəstək mövzusu olmuşdur.

Həmin istiqamət üzrə ayrılmış fondun həcmi 85000 manat təşkil etmişdir. Şura bu istiqamət üzrə ümumilikdə 23 layihənin maliyyələşdirilməsi barədə qərar qəbul etmişdir ki, həmin layihələrdən on biri məhz uşaq problemlərini əhatə edir.

## II. UŞAQ ANLAYIŞI

### Maddə 1. Uşaqlıq yaşının təyin edilməsi

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə və Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 49.1-ci maddəsinə əsasən 18 yaşına (yetkinlik yaşına) çatmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən şəxslər uşaq hesab olunurlar.

Eyni zamanda konvensiyaya uyğun olaraq, Azərbaycan Respublikasının qanunvericiliyində uşaq anlayışı verilərkən uşağın yetkinlik yaşına daha əvvəl çatdığı hal da təsbit olunur. Belə ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 28-ci maddəsinə əsasən fiziki şəxsin mülki hüquq fəaliyyət qabiliyyəti, o, yetkinlik yaşına, yəni 18 yaşına çatdıqda tam həcmdə əmələ gəlir. Hər iki valideynin, övladlığa götürənlərin və ya qəyyumun razılığına əsasən qəyyumluq və himayəçilik orqanının qərarı ilə, belə razılıq olmadıqda isə məhkəmənin qərarı ilə yetkinlik yaşına çatmayan tam fəaliyyət qabiliyyətli sayılır (emansipasiya). 16 yaşı tamam olmuş yetkinlik yaşına çatmayan əmək müqaviləsi üzrə işləyirsə və ya valideynlərinin, övladlığa götürənlərin və ya himayəçinin razılığı ilə sahibkarlıq fəaliyyəti ilə məşğul olursa, tam fəaliyyət qabiliyyətli sayıla bilər.

### Nikah yaşı haqqında

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 10-cu maddəsinin müddəalarına uyğun olaraq Azərbaycan Respublikasında nikah yaşı kişilər üçün 18 yaş, qadınlar üçün 17 yaş müəyyən olunur. Üzürlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin yerli icra hakimiyyəti orqanları onların xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilər.

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə gender bərabərliyinin qorunması və erkən nikahların qarşısının alınması məqsədi ilə nikah yaşının qadınlar üçün də 18 yaş müəyyən olunması barədə təklif verilmiş və hazırda həmin təklif müzakirə olunmaqdadır.

18 yaşına çatanadək nikaha girməyə qanunun yol verdiyi halda 18 yaşına çatmamış fiziki şəxs nikaha girdiyi vaxtdan tam həcmdə fəaliyyət qabiliyyəti əldə edir. Nikah bağlanılması nəticəsində əldə edilmiş fəaliyyət qabiliyyəti nikahın 18 yaşına çatanadək pozulduğu halda da tam həcmdə saxlanılır.

## III. ÜMUMİ PRİNSİPLƏR

### A. Maddə 2. Ayrı-seçkilik

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinə əsasən bütün uşaqlar bərabər hüquqlara malikdirlər. Uşaqların, onların valideynlərinin və ya onları əvəz edən şəxslərin sosial və əmlak vəziyyətindən, sağlamlığından, irqi və milli mənsubiyyətindən, dilindən, təhsilindən, dinindən, siyasi baxışlarından, yaşayış yerindən asılı olmayaraq uşaqlar ayrı-seçkiliyə məruz qala bilməzlər. Uşaqlar valideynlərinin və ya onları əvəz edən digər şəxslərin hərəkətlərinə görə məsuliyyət daşımır və valideynləri ilə bağlı səbəblərə görə onların hüquqlarının

məhdudlaşdırılmasına yol verilmir. Nikahda və ya nikahdankənar doğulmasından asılı olmayaraq uşaqların valideynləri barəsində eyni hüquqları vardır.

Əlavə olaraq qeyd olunmalıdır ki, Azərbaycan Respublikası 1996-cı il 31 may tarixli Qanunu ilə "İrqi ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" BMT-nin Beynəlxalq Konvensiyasına qoşulmuşdur.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 43-cü maddəsinə müvafiq olaraq valideynlərin və uşaqların hüquq və vəzifələri qanunvericiliklə müəyyən olunmuş qaydada uşağın mənşəyinin təsdiq olunmasına əsaslanır.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 44-cü maddəsinə görə uşağın anadan mənşəyi (analıq) ananın uşağı tibb müəssisəsində doğmasını təsdiq edən sənəd əsasında, uşaq tibb müəssisəsindən kənarda anadan olduqda doğuma kömək göstərmiş həkimin sənədi əsasında müvafiq icra hakimiyyəti orqanı tərəfindən, bu sənədlər olmadıqda isə şahid ifadələri və digər sübutlar əsasında məhkəmə tərəfindən müəyyən olunur.

Minilliyin "İbtidai və orta təhsildə oğlanlar və qızlar arasında qeyri-bərabərliyi və ayrı-seçkiliyi aradan qaldırmaq və 2015-ci ilə qədər yüksək keyfiyyətli təhsilə tam və bərabər daxil olmalarına təminat verməklə təhsil hüququna münasibətdə cins bərabərliyinə nail olmaq" məqsədilə və "Təhsil hamı üçün" proqramlarının prinsipləri nəzərə alınmaqla hər hansı əsasda uşaqlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması və qarşısının alınması məsələlərinə xüsusi diqqət yetirilir.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən gender və ayrı-seçkilik üzrə ölkədə əsas və orta təhsil pillələri üçün 18 indikator üzrə təhlillər aparılmışdır. Təhsil sahəsində gender və ayrı-seçkilik problemləri üzrə beynəlxalq təşkilatlarla birgə layihə və proqram həyata keçirilir.

"Təhsil sahəsində ayrı-seçkiliklə mübarizə haqqında" Konvensiya Milli Məclis tərəfindən təsdiq edilmişdir.

## B. <u>Maddə 3. Uşağın ən yaxşı maraqları</u>

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə əsasən dövlət orqanları, bütün fiziki və hüquqi şəxslər öz fəaliyyətində uşaqların mənafelərini üstün tutmalı, onların hüquqlarının təmin olunmasına şərait yaratmalıdırlar. Azərbaycan Respublikasının normativ hüquqi aktları və müvafiq orqanların qərarları uşaq mənafelərinə zidd olmamalı və onların icrası uşaqların həyatına, inkişafına və tərbiyəsinə zərər gətirməməlidir. Uşağın hüquq və mənafelərini məhdudlaşdıran hər hansı bir əqd etibarsızdır.

Mütəmadi olaraq ümumtəhsil məktəblərinin şagirdləri arasında müxtəlif mövzularda rəsm, foto, tətbiqi incəsənət, rəqs və s. müsabiqə və festivalları keçirilir, BMT-nin "Uşaq hüquqlarına dair" Konvensiyası təbliğ olunur.

Uşaqların hüquqlarının və qanuni maraqlarının müdafiəsi bir sıra hallarda təcrübədə lazımınca təmin olunmur. Məhkəmə təcrübəsində valideynlər arasında nikah pozularkən adətən uşağın fikri və maraqları nəzərə alınmadan uşağın ana ilə birgə yaşaması barədə qərar verilir, uşaqların hüquqları və qanuni maraqları mənzil və ya əmlak bölgüsündə, alimentin təyin olunmasında bəzən layiqincə nəzərə alınmır, məhkəmə qərarlarının isə bir sıra hallarda vaxtında və tam icra olunmaması uşağın maddi və mənəvi durumuna öz mənfi təsirini göstərir. Bunun nəticəsi olaraq uşaqların dərsdən yayınması, işləyərək pul qazanmağa məcbur olması kimi acınacaqlı hallar müşahidə olunur.

Azərbaycan Respublikasının Ailə, qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi tərəfindən mütəmadi olaraq məktəblilər, xüsusi qayğıya ehtiyacı olan uşaqlar, qaçqın və məcburi köçkün, uşaq müəssisələrində yaşayan uşaqlar arasında müxtəlif mövzularda rəsm, inşa, foto, tətbiqi sənət müsabiqələri keçirilir, bundan əlavə Dövlət Komitəsinin nəzdində fəaliyyət göstərən "Uşaq və ailələrə dəstək" mərkəzlərində mütəmadi olaraq "mənim hüquqlarım" adlı sərgi və kompozisiyalar, bu mövzularda təlimlər və əlamətdar günlərə həsr edilmiş tədbirlər təşkil olunur.

Dövlət Komitəsi mütəmadi olaraq xüsusi qayğıya ehtiyacı olan uşaqların, xüsusi istedada malik və digər uşaqların yay tətillərini təşkil edir, onların beynəlxalq sərgi və festivallarda iştirakını təmin edir.

Mütəmadi olaraq uşaq qidalarının və uşaq oyuncaqlarının müvafiq normativ sənədlərə uyğunluğunu yoxlamaq və idxal edilən uşaq istehlak mallarının təhlükəsizlik və keyfiyyət göstəricilərinin standartların tələblərinə uyğunluğunu müəyyən etmək məqsədilə Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə .Dövlət Komitəsi müvafiq qurumlarla birgə monitorinqlər keçirir.

Respublika ərazisində uşaq qidalarının istehsalı ilə məşğul olan müəssisələr mövcud deyil.

2009-cu il ərzində Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə .Dövlət Komitəsinin Dövlət nəzarəti şöbəsinin əməkdaşları tərəfindən ölkəmizə idxal olunan uşaq qidalarının keyfiyyətinə dövlət nəzarəti həyata keçirilərək altı təsərrüfat subyekti tərəfindən idxal olunan müxtəlif əmtəə nişanlı uşaq qidaları yoxlanılmışdır. Yoxlanılan məhsullar keyfiyyət və təhlükəsizlik göstəricilərinə görə normativ sənədlərin tələblərinə uyğun olmuşdur. Bəzi müəssisələrdə idxal olunan məhsulların sənədləşməsi, saxlanması və sertifikatlaşdırma ilə bağlı bir sıra nöqsanlar aşkar olunmuş və bunların aradan qaldırılması ilə əlaqədar həmin təsərrüfat subyektlərinə müvafiq iradnamə verilmişdir.

Eyni zamanda ticarət şəbəkələrindən satışdan götürülmüş müxtəlif əmtəə nişanlı uşaq qidalarının müayinəsi göstərmişdir ki, yoxlanılmış məhsullar təhlükəsizlik göstəricilərinə görə normativ sənədlərin tələblərinə uyğundur.

Bununla yanaşı 14 ticarət şəbəkəsindən sınaqlar üçün Çin xalq Respublikasının istehsalı olan oyuncaqların nümunələri seçilib Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin və Komitənin laboratoriyalarına təqdim olunmuşdur.

Sınaqların nəticələrinə görə yoxlanılan 14 ticarət şəbəkəsindən 10-da standartlara, gigiyena normalarına uyğun olmayan, keyfiyyətsiz və istifadəsi təhlükəli olan oyuncaqlar aşkar edilmişdir.

Aparılan yoxlamaların nəticələri ilə bağlı istifadəsi təhlükəli, insan sağlamlığına ziyan vura bilən və standartlara uyğun olmayan oyuncaqların satışına qadağa qoyulmuşdur.

Uşaq istehlak mallarının təhlükəsizlik və keyfiyyət göstəricilərinin standartların tələblərinə uyğunluğunu müəyyən etmək məqsədilə monitorinqlər davam etdirilir.

Dövlət Komitəsi tərəfindən məktəblərdə və uşaq müəssisələrində uşaqlar üçün narkomaniya əleyhinə maarifləndirmə kompaniyaları təşkil edilir və həmin istiqamətdə digər tədbirlər həyata keçirilir.

İnternat müəssisələrində yaşayan uşaqlarla bağlı aşağıdakı istiqamətlərdə işlər aparılır:

- uşaqların asudə vaxtları onların maraqlarına uyğun həyata keçirilir;
- vaxtaşırı uşaqların sağlamlığı ilə bağlı müayinə və müalicə işləri aparılır;
- mütəmadi olaraq müəssisələrin işçi heyəti "Uşaq hüquqları", "Normal uşaq inkişafı" və digər bu kimi mövzularda təlimləndirilir və hər bir uşaq üçün fərdi qayğı planları hazırlanır.

## C. Maddə 6. Yaşamaq və inkişaf etmək hüququ

"Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının Qanunu 2005-ci 24 may tarixində qüvvəyə minmişdir. Həmin Qanunun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 7 noyabr tarixli 17/17/4260-11 nömrəli tapşırığına əsasən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi, Təhsil Nazirliyi, İdman və Gənclər Nazirliyi, Maliyyə Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Bakı şəhər İcra Hakimiyyətinin

nümayəndələrindən ibarət İşçi qrup yaradılmışdır. İşçi qrupun 2007-ci ildə keçirilən iclaslarında həmin Qanunun icrası ilə bağlı tədbirlər planının layihəsi müzakirə edilmiş, aidiyyəti dövlət qurumları, beynəlxalq və yerli qeyri-hökumət təşkilatları tərəfindən irəli sürülən rəy və təkliflər nəzərə alınaraq son variantı Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir.

Bakı şəhərində hər biri 50 yerlik, respublikanın 5 rayonunda isə hər biri 30 yerlik yetkinlik yaşına çatmayanlar üçün ixtisaslaşdırılmış reabilitasiya müəssisəsi və hər biri 25 yerlik sosial sığınacağın tikintisi nəzərdə tutulmuşdur.

Bununla bərabər, Daxili İşlər Nazirliyinin müvafiq əmrinə əsasən qeydə alınmış bütün intihar və intihara cəhd hadisələri ilə əlaqədar ərazi polis orqanları tərəfindən xidməti yoxlamalar aparılır, nəticələri təhlil edilir, zəruri hallarda aidiyyəti dövlət təşkilatlarına müvafiq təklif və tövsiyələr göndərilir.

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının 1998-ci il 3 iyul tarixli Qanununun 18-ci maddəsinə müvafiq olaraq yollarda təhlükəsiz davranma qaydaları vətəndaşlara, o cümlədən uşaqlara məktəbəqədər, ümumtəhsil və xüsusi təhsil müəssisələrində müntəzəm olaraq aidiyyəti dövlət təşkilatları, o cümlədən Daxili İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil və Səhiyyə nazirlikləri tərəfindən birgə hazırlanmış və təsdiq edilmiş nümunəvi proqramlar və metodik tövsiyələr əsasında öyrədilir, onların yol-qəza və bədbəxt hadisələrdən müdafiəsi istiqamətində yerli və mərkəzi hakimiyyət orqanları səviyyəsində proqramlar hazırlanıb həyata keçirilir.

Həmin Qanunun 24-cü və 25-ci maddələrinə uyğun olaraq respublikanın ərazisində yol hərəkətinin təhlükəsizliyi vəziyyətinin əsas göstəricilərinin (yol-nəqliyyat hadisələrinin, yol-nəqliyyat hadisələrində zərər çəkmiş şəxslərin, yol hərəkəti qaydalarını pozmuş şəxslərin, sürücülərin, bu istiqamətdə fəaliyyət nəticələri və s.) dövlət uçotu aparılır. Ölkədə yol hərəkətinin və hərəkət iştirakçılarının təhlükəsizliyi, qeydə alınmış yol nəqliyyat hadisələri və hadisələr vaxtı zərər çəkmiş və ya həlak olmuş şəxslər, o cümlədən uşaqlar barədə kütləvi informasiya vasitələri ilə vaxtaşırı ictimaiyyətə məlumat verilir.

Uşaqların yol-qəza hadisələrindən müdafiəsi və qarşısının alınması məqsədilə təbliğatın gücləndirilməsi istiqamətində son 3 il ərzində 5 ədəbiyyat, o cümlədən 3 dərs vəsaiti hazırlanmış və onun orta ümumtəhsil məktəblərində tədris olunması təmin edilmişdir.

Səhiyyə Nazirliyi UNİSEF-lə birlikdə uşaq ölümü hallarının təhlili və azaldılması sahəsində proqramlar həyata keçirir (Child Mortality Survey 2007-2008). Hesabat dövründə (2007) uşaq ölümü hər 1000 diri doğulana 12,1 olmuşdur.

Perinatal ölüm hər 1000 doğuşa -8,9

Xəstəliyə görə uşaq ölümü:

HİV/AİDS-2

Vərəm-25

Malyariya-0

Hepatit-2

Poliomielit-0

KRX-51

Hər bir qadının analıq barədə məsələni həll etmək hüququ vardır. Hamiləliyin süni surətdə pozulması qadının arzusu ilə hamiləliyin 12 həftəlik müddətinədək aparılır. Sosial göstərişlər üzrə süni pozulma hamiləliyin 22 həftəliyinədək aparıla bilər ("Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsi).

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İnformatika və Statistika İdarəsində 19 yaşına kimi qızlarda hamiləliklə bağlı məlumatlar (15483 (2007) toplanılır.

Azərbaycan Respublikası hər bir uşağın alınmaz yaşamaq hüququna malik olduğunu qəbul edir, onun sağ qalmasını və sağlam böyüməsini maksimum mümkün dərəcədə təmin edir.

**Ölənlərin sayı**

| İllər | N ə f ə r | | | Əhalinin hər 1000 nəfərinə | | |
|---|---|---|---|---|---|---|
| | cəmi | o cümlədən: | | cəmi | o cümlədən: | |
| | | şəhər yerlərində | kənd yerlərində | | şəhər yerlərində | kənd yerlərində |
| **2003** | 49001 | 24999 | 24002 | 6,0 | 5,9 | 6,1 |
| **2004** | 49568 | 25867 | 23701 | 6,0 | 6,0 | 6,0 |
| **2005** | 51962 | 27347 | 24615 | 6,2 | 6,2 | 6,2 |
| **2006** | 52248 | 27581 | 24667 | 6,2 | 6,2 | 6,1 |
| **2007** | 53655 | 28162 | 25493 | 6,2 | 6,2 | 6,3 |
| **2008** | 52710 | 27817 | 24893 | 6,0 | 6,0 | 6,1 |

**Ölənlərin cins üzrə bölgüsü**

| İllər | N ə f ə r | | | Əhalinin hər 1000 nəfərinə | | |
|---|---|---|---|---|---|---|
| | cəmi | *o cümlədən: of which:* | | cəmi | *o cümlədən: of which:* | |
| | | kişilər | qadınlar | | kişilər | qadınlar |
| **2003** | 49001 | 25563 | 23438 | 6,0 | 6,4 | 5,6 |
| **2004** | 49568 | 26039 | 23529 | 6,0 | 6,4 | 5,6 |
| **2005** | 51962 | 27474 | 24488 | 6,2 | 6,7 | 5,8 |
| **2006** | 52248 | 27639 | 24609 | 6,2 | 6,6 | 5,7 |
| **2007** | 53655 | 28636 | 25019 | 6,2 | 6,7 | 5,6 |
| **2008** | 52710 | 28042 | 24668 | 6,0 | 6,5 | 5,6 |

Ölənlərin yaş qrupu üzrə bölgüsü

| İllər | N ə f ə r | | | Əhalinin hər 1000 nəfərinə hesabı ilə müvafiq yaş qrupuna görə ölənlər | | |
|---|---|---|---|---|---|---|
| | cəmi | o cümlədən: | | cəmi | o cümlədən: | |
| | | şəhər yerlərində | kənd yerlərində | | şəhər yerlərində | kənd yerlərində |
| 2003 | | | | | | |
| Cəmi | 49001 | 24999 | 24002 | 6,0 | 5,9 | 6,1 |
| o cümlədən: | | | | | | |
| 18 yaşadək (0-17) | 3453 | 1232 | 2221 | 1,2 | 0,9 | 1,5 |
| 2004 | | | | | | |
| Cəmi | 49568 | 25867 | 23701 | 6,0 | 6,0 | 6,0 |
| o cümlədən: | | | | | | |
| 18 yaşadək (0-17) | 3494 | 1415 | 2079 | 1,3 | 1,1 | 1,5 |
| 2005 | | | | | | |
| Cəmi | 51962 | 27347 | 24615 | 6,2 | 6,2 | 6,2 |
| o cümlədən: | | | | | | |
| 18 yaşadək (0-17) | 3236 | 1360 | 1876 | 1,2 | 1,1 | 1,3 |
| 2006 | | | | | | |
| Cəmi | 52248 | 27581 | 24667 | 6,3 | 6,2 | 6,1 |
| o cümlədən: | | | | | | |
| 18 yaşadək (0-17) | 3236 | 1595 | 1641 | 1,2 | 1,3 | 1,2 |
| 2007 | | | | | | |
| Cəmi | 53655 | 28162 | 25493 | 6,2 | 6,2 | 6,3 |
| o cümlədən: | | | | | | |
| 18 yaşadək (0-17) | 3100 | 1556 | 1544 | 1,2 | 1,3 | 1,1 |
| 2008 | | | | | | |
| Cəmi | 52710 | 27817 | 24893 | 6,0 | 6,0 | 6,1 |
| o cümlədən: | | | | | | |
| 18 yaşadək (0-17) | 2864 | 1487 | 1377 | 1,1 | 1,3 | 1,0 |

**Perinatal ölüm**

| İllər | Nəfər | Hər 1000 nəfər diri və ölü doğulana |
|---|---|---|
| **2003** | 866 | 7,6 |
| **2004** | 1059 | 8,0 |
| **2005** | 1427 | 10,0 |
| **2006** | 1529 | 10,2 |
| **2007** | 1369 | 9,0 |
| **2008** | 1486 | 9,7 |

**1 yaşadək ölən körpələr arasında ölümün əsas səbəbləri**

| Əsas səbələr | 2006 | 2007 | 2008 |
|---|---|---|---|
| **Nəfər** | | | |
| Bütün səbəblərdən ölən körpələrin sayı | 1882 | 1756 | 1715 |
| o c ü m l ə d ə n : | | | |
| - bəzi infeksion və parazitar xəstəliklərdən | 152 | 138 | 98 |
| - sinir sisteminin xəstəliklərindən | 74 | 93 | 171 |
| - tənəffüs orqanlarının xəstəliklərindən | 766 | 712 | 555 |
| - həzm sisteminin xəstəliklərindən | 28 | 24 | 21 |
| - perinatal dövrdə meydana çıxan hallardan | 333 | 321 | 349 |
| - anadangəlmə anomaliyalardan (inkişaf qüsurlarından) | 369 | 270 | 317 |
| - travmalar, zəhərlənmələr və xarici səbəblərin təsirinin digər nəticələrindən | 37 | 26 | 15 |
| - digər səbəblərdən | 123 | 172 | 189 |
| **Hər 10 000 nəfər diri doğulana** | | | |
| Bütün səbəblərdən ölən körpələrin sayı | 119,0 | 120,9 | 114,2 |
| o c ü m l ə d ə n : | | | |

| | | | |
|---|---|---|---|
| - bəzi infeksion və parazitar xəstəliklərdən | 9,4 | 9,7 | 7,8 |
| - sinir sisteminin xəstəliklərindən | 4,5 | 5,6 | 8,7 |
| - tənəffüs orqanlarının xəstəliklərindən | 54,1 | 49,1 | 41,7 |
| - həzm sisteminin xəstəliklərindən | 1,8 | 1,7 | 1,5 |
| - perinatal dövrdə meydana çıxan hallardan | 21,8 | 21,7 | 22,0 |
| - anadangəlmə anomaliyalardan (inkişaf qüsurlarından) | 17,4 | 21,2 | 19,3 |
| - travmalar, zəhərlənmələr və xarici səbəblərin təsirinin digər nəticələrindən | 2,3 | 2,1 | 1,3 |
| - digər səbəblərdən | 7,7 | 9,8 | 11,9 |

**Abortların yaş qrupları üzrə bölgüsü**

| | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|---|---|
| **Abortların sayı - cəmi** | **16.912** | **19.806** | **19.586** | **20.867** | **22.325** | **25.256** |
| o cümlədən qadınların yaşlarına görə: | | | | | | |
| 20 yaşadək | 809 | 725 | 822 | 1.014 | 1.100 | 1.394 |
| 20-24 yaşda | 4.119 | 4.555 | 4.731 | 4.765 | 4.944 | 5.710 |
| 25-29 yaşda | 5.120 | 6.681 | 6.104 | 6.643 | 6.977 | 7.026 |
| 30-34 yaşda | 4.133 | 4.832 | 4.623 | 4.896 | 5.440 | 6.674 |
| 35-49 yaşda | 2.731 | 3.013 | 3.306 | 3.549 | 3.864 | 4.452 |
| **15-49 yaşında olan hər 1 000 qadına düşən abortların sayı [1] - cəmi** | **7,0** | **8,0** | **7,8** | **8,1** | **8,5** | **9,5** |
| o cümlədən: | | | | | | |
| 20 yaşadək | 1,8 | 1,6 | 1,8 | 2,2 | 2,3 | 3,0 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 20-24 yaşda | 11,0 | 11,5 | 11,5 | 11,1 | 11,0 | 12,4 |
| 25-29 yaşda | 16,8 | 21,6 | 18,9 | 18,8 | 18,4 | 17,9 |
| 30-34 yaşda | 12,7 | 15,0 | 14,5 | 15,4 | 16,9 | 20,3 |
| 35-49 yaşda | 2,9 | 3,1 | 3,3 | 3,5 | 3,8 | 4,3 |

[1)] Müvafiq yaş qrupunda olan qadınların hər 1 000 nəfərinə

## D. Maddə 12. Uşağın baxışlarına hörmət etmək

Azərbaycan Respublikası Mülki Prosessual Məcəllənin 49-cu maddəsinə əsasən on altı yaşı olan yetkinlik yaşına çatmamış şəxs tam fəaliyyət qabiliyyətli elan edildiyi halda (emansipasiya) o, məhkəmədə şəxsən öz hüquq və vəzifələrini həyata keçirə bilər. Yetkinlik yaşına çatmayan on dörd yaşından on səkkiz yaşınadək şəxslərin, habelə məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslərin hüquq, azadlıq və qanunla qorunan mənafeləri məhkəmədə onların qanuni nümayəndələri tərəfindən qorunur. Lakin məhkəmə yetkinlik yaşına çatmayanların və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslərin özlərini bu işlərdə iştirak etməyə cəlb edə bilər. Qanunla nəzərdə tutulan hallarda mülki, ailə, əmək, inzibati və digər hüquq münasibətlərindən əmələ gələn və alınmış əmək haqqı və ya sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirə sərəncam verməklə əlaqədar olan əqdlər üzrə öz hüquq, azadlıq və qanunla qorunan mənafelərini yetkinlik yaşına çatmayanlar məhkəmədə şəxsən özləri müdafiə edirlər.

Həmin Məcəllənin 197-ci maddəsinə müvafiq olaraq on dörd yaşına qədər olan şahidin və məhkəmənin mülahizəsi ilə on dörd yaşından on altı yaşına qədər olan şahidlərin dindirilməsi təhsil aldığı müəssisənin nümayəndəsinin iştirakı ilə aparılır. Zəruri halda məhkəməyə yetkinlik yaşına çatmamış şahidin valideynləri, övladlığa götürənlər, qəyyum və ya himayəçi də çağırılır. Göstərilən şəxslər sədrlik edənin icazəsi ilə şahidə suallar verə, habelə şahidin şəxsiyyətinə, verdiyi ifadənin məzmununa münasibətdə öz mülahizələrini söyləyə bilərlər.

Müstəsna hallarda işin hallarını müəyyən etmək zərurəti olduqda, işdə iştirak edən bu və ya digər şəxs, habelə iclas zalında olan hər hansı bir şəxs yetkinlik yaşına çatmamış şahid dindirilərkən məhkəmənin qərardadı ilə məhkəmə iclası zalından çıxarıla bilər. İclas zalından çıxarılmış işdə iştirak edən şəxs iclas zalına qayıtdıqdan sonra ona yetkinlik yaşına çatmamış şahidin ifadəsinin məzmunu bildirilməli və onun şahidə suallar verməsinə imkan yaradılmalıdır.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 52-ci maddəsinə görə uşaq ailədə onun maraqlarına toxunan istənilən məsələnin həlli zamanı öz fikrini bildirmək, habelə məhkəmə istintaqı və inzibati araşdırmaların gedişində dinlənilmək hüququna malikdir. Onun maraqlarına zidd olan hallar istisna olmaqla, 10 yaşına çatmış uşağın fikri mütləq nəzərə alınmalıdır.

Qanunvericilikdə nəzərdə tutulmuş hallarda məhkəmə və ya qəyyumluq və himayə orqanı yalnız 10 yaşına çatmış uşağın razılığı ilə qərar qəbul edə bilər.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 432-ci maddəsinə görə yetkinlik yaşına çatmayan şəxs barəsində ibtidai istintaqın bütün mərhələlərində aşağıdakı hüquqların təmin edilməsinin əsas prosessual təminatlarına riayət edilməlidir:

- irəli sürülmüş ittiham barəsində məlumat almaq hüququ;
- ifadə verməkdən imtina etmək hüququ;
- müdafiə hüququ;
- valideynlərin və ya digər qanuni nümayəndələrin iştirak etmək hüququ;
- məxfilik hüququ.

16 yaşınadək və əqli cəhətdən zəiflik əlamətləri olan yetkinlik yaşına çatmayan şəxsin iştirakı ilə istintaq hərəkətlərinin aparılmasında müstəntiq müəllim və ya psixoloqun iştirakını təmin etməlidir. Yetkinlik yaşına çatmayan şəxs barəsində cinayət işi üzrə icraata xitam verilməsinə hər bir halda yetkinlik yaşına çatmayan şəxsin və ya onun valideynlərinin (digər qanuni nümayəndələrinin) razılığı ilə yol verilir. Yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsə ibtidai istintaqın qurtarmasını elan edərkən və ona cinayət işinin materiallarını təqdim edərkən müstəntiq və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror öz mülahizələrinə görə yetkinlik yaşına çatmayan şəxsə mənfi təsir göstərə biləcək cinayət işinin materiallarının yetkinlik yaşına çatmayan şəxsə təqdim edilməməsi barədə əsaslandırılmış qərar çıxarmaq hüququna malikdirlər. Belə halda göstərilən materiallarla məcburi qaydada yetkinlik yaşına çatmayan şəxsin müdafiəçisi və ya qanuni nümayəndəsi tanış edilməlidir. Həmin Məcəllənin 433-cü maddəsinə görə yetkinlik yaşına çatmayan şəxsin tutulması zamanı bu barədə dərhal onun valideynlərinə və ya digər qanuni nümayəndələrinə məlumat verilir.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə müvafiq olaraq barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxs və ya zərər çəkmiş şəxs yetkinlik yaşına çatmadıqda və ya öz fiziki, yaxud psixi qüsurlarına görə müstəqil olaraq hüquqlarını özləri həyata keçirmək imkanına malik olmadıqda, həmin şəxslərin mənafeyini təmsil etməyə onların qanuni nümayəndələrinin hüququ vardır. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxsin və ya zərər çəkmiş şəxsin qanuni nümayəndəsi olmadıqda, inzibati xəta haqqında iş üzrə icraat aparan səlahiyyətli vəzifəli şəxs qəyyumluq və himayə orqanlarını qanuni nümayəndə hesab edir.

İnzibati qaydada tutulan yetkinlik yaşına çatmayanların, icraatın aparıldığı dili bilməyənlərin, lal, kar, kor, fiziki və ya psixi qüsurları üzündən özlərinin müdafiə hüququnu həyata keçirə bilməyən digər şəxslərin işlərində vəkilin iştirakı məcburidir. Göstərilən hallarda barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin müdafiəçidən imtinası qəbul olunmur.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 145.3-cü maddəsinə müvafiq olaraq uşağın himayədar ailəyə verilməsi onun rəyi nəzərə alınmaqla həyata keçirilir. 10 yaşı tamam olmuş uşaq isə yalnız öz razılığı alındıqdan sonra himayədar ailəyə verilə bilər.

Bir qayda olaraq BMT-nin "Uşaq hüquqlarına dair" Konvensiyası üzrə hesabat hazırlanarkən uşaq və gənclər qeyri-hökumət təşkilatları və təşəbbüs qrupları ilə məsləhətləşmələr və müzakirələr aparılmış, onlar tərəfindən həyata keçirilmiş tədbirlər və əldə edilmiş nəticələr haqqında məlumat toplanmışdır. Hazırkı hesabatın hazırlanmasına 20-dək qeyri-hökumət təşkilatları nümayəndəsi və uşaq qrupları cəlb edilmiş, müzakirələr keçirilmişdir.

Hazırda istifadə olunan şagird qaydaları qabaqcıl təhsil işçilərindən seçilmiş mütəxəssislər, İşçi qrupu tərəfindən 1994-1995-ci illərdə Azərbaycan Respublikasının Təhsil Qanununa uyğun olaraq hazırlanmışdır. Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilərək bütün ümumtəhsil məktəblərinə göndərilmişdir.

## IV. MÜLKİ HÜQUQ VƏ AZADLIQLAR

### <u>Maddə 7. Ad və vətəndaşlıq</u>

“Uşaq hüquqları haqqında” Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə müvafiq olaraq hər bir uşaq doğulduqdan sonra Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq qeydiyyata alınır və vətəndaşlıq əldə edir.

Azərbaycan Respublikası Azərbaycan Respublikasının 1996-cı il 31 may tarixli Qanunu ilə BMT-nin 1961-ci il 30 avqust tarixli “Vətəndaşsızlığın ixtisar edilməsi haqqında” Konvensiyasına qoşulmuşdur.

Hesabat dövrü ərzində 706596 uşaq doğumu, 62805 nikahdan kənar uşağın doğumu dövlət qeydiyyatına alınmışdır.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 167-ci maddəsinə əsasən doğum haqqında məlumat uşaq doğulduğu gündən ən geci 3 ay ərzində, uşaq ölü doğulduqda isə ən geci doğum vaxtından ötən 3 gün müddətində verilməlidir.

Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı haqqında şəhadətnamələrə səhv məlumatların daxil edilməsi ilə bağlı olaraq bildirilməlidir ki, doğumun dövlət qeydiyyatı rəsmi sənədlər əsasında aparıldığı üçün bu sahədə ciddi qüsurlar mövcud deyil. Qeyd edilməlidir ki, bu iş daim nəzarətdə saxlanılır və Azərbaycan Respublikasının ədliyyə nazirinin 2005-ci il 2 iyun tarixli 11-T nömrəli əmri ilə təsdiq edilmiş “Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı ilə bağlı fəaliyyətin yoxlanılması qaydası” əsasında mütəmadi yoxlanılır. Bundan başqa vətəndaşlıq vəziyyəti aktlarının elektron məlumat bankı yaradılmış, bununla əlaqədar qeydiyyat orqanlarının fəaliyyətinin təşkilinə dair müvəqqəti qaydalar müəyyən edilmiş, Bakı şəhərinin bütün qeydiyyat orqanlarını əhatə edən elektron şəbəkə qurulmuş və digər rayon qeydiyyat şöbələrinin də həmin şəbəkəyə qoşulması təmin edilmişdir.

Eyni zamanda görülmüş tədbirlər sırasında qeyd olunmalıdır ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 iyul tarixli 145 nömrəli Qərarına əsasən Nazirlər Kabinetinin “Azərbaycan Respublikası Ailə Məcəlləsinin tətbiqi ilə əlaqədar bəzi normativ-hüquqi aktların təsdiq edilməsi haqqında” 2001-ci il 1 mart tarixli 52 nömrəli Qərarına əlavə və dəyişikliklər edilməsi ilə bağlı vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyat kitablarının doldurulması qaydasını nəzərdə tutan metodiki təlimatın, habelə vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatını aparan orqanların işini təkmilləşdirmək məqsədilə akt qeydləri blanklarının optik tanınmasına imkan verən yeni forma işlənilmişdir.

Yeni formalı akt qeydlərinin tətbiqi iki nüsxə tərtib edilən aktlar arasında hər hansı fərqin istisna edilməsinə, yazıların aydın və oxunaqlı olmasına, statistik hesabatların dəqiqliyinin təmin olunmasına xidmət edir.

Göstərilənlərlə yanaşı, qeyd etmək lazımdır ki, dövlət qeydiyyatının təkmilləşdirilməsi istiqamətində islahatlar davam etdirilir. Belə ki, “Ədliyyə orqanlarının inkişafı haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli Fərmanı ilə vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı orqanlarının əsasında fiziki şəxslərin dövlət qeydiyyatı işinin sadələşdirilməsi məqsədilə yerlərdə rayon (şəhər) qeydiyyat şöbələri yaradılmışdır.

Qanunvericilikdə vətəndaşsızlıqdan müdafiəni təmin etmənin tənzimlənməsi - “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinə əsasən Azərbaycan Respublikasının ərazisində olan, hər iki valideyni naməlum uşaq Azərbaycan Respublikasının vətəndaşıdır.

Bütün uşaqların doğum qeydiyyatının təmin edilməsi - Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 14 oktyabr tarixli 224 nömrəli Qərarı ilə doğumun dövlət qeydiyyatı haqqında verilən şəhadətnaməyə görə alınan haqq ləğv edilmişdir.

Eyni zamanda qeyd edilməlidir ki, Bakı şəhərinin bir sıra rayonlarında yeni yaşayış massivlərinin salınması ilə əlaqədar qeydiyyat şöbələrinin nümayəndələri tərəfindən uzaq məsafədə yerləşən yaşayış massivlərində vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatının səyyar şəkildə aparılması təmin edilmişdir.

Yetkinlik yaşına çatmış uşaqların adlarının dəyişməsi - Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 53-cü maddəsinə əsasən uşaq ad, ata adı və soyad daşımaq hüququna malikdir. Həmin Məcəllənin 54-cü maddəsinə uyğun olaraq müvafiq yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları uşaq 18 yaşına çatana qədər onun adının dəyişdirilməsinə, eləcə də soyadının digər valideynin soyadına dəyişdirilməsinə valideynlərin birgə xahişi əsasında və uşağın mənafeyini nəzərə alaraq icazə verə bilər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 52 nömrəli Qərarı ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının qeydində dəyişiklik, bərpa və ləğv qaydalarını müəyyən edən Əsas müddəalar"ın tələblərinə uyğun olaraq vətəndaşın adının dəyişdirilməsi kifayət qədər əsaslar olduqda və aidiyyəti şəxslər arasında mübahisə olmadıqda ərizə verən şəxslərin daimi yaşayış yerində qeydiyyat şöbələri və konsulluq idarələri tərəfindən həyata keçirilir. Aidiyyəti şəxslər arasında mübahisə olduqda qeydiyyatda düzəliş məhkəmənin qətnaməsi əsasında aparılır.

## Maddə 8. Fərdiliyin qorunub saxlanması

Azərbaycan Respublikası beynəlxalq övladlığa götürmə, uşaq qaçırılması və saxlanmasının qarşısının alınması üzrə əməkdaşlıq sahəsində müəyyən hüquqi təcrübə qazanmışdır. Belə ki, Azərbaycan Respublikasının 2004-cü il 30 mart tarixli Qanunu ilə "Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında" Konvensiyaya qoşulmuşdur. Həmin Konvensiyanın 1-ci maddəsinə əsasən, ölkələrarası övladlığa götürmənin uşağın ən ümdə maraqlarına və beynəlxalq hüquqda tanındığı kimi, onun əsas hüquqlarına hörmət etməklə həyata keçirilməsinin təmin olunması üçün təminatlar yaratmaq, bu cür təminatlara əməl olunmanı təmin etmək və bununla da uşağın qaçırılmasının satışının və ya ticarətinin qarşısını almaq üçün Razılılığa gələn Dövlətlər arasında əməkdaşlıq sistemini yaratmaq, razılılığa gələn Dövlətlərdə bu Konvensiyaya uyğun olaraq həyata keçirilmiş övladlığa götürmənin tanınmasını təmin etmək Konvensiyanın əsas məqsədləri kimi müəyyən edilmişdir. Həmin Konvensiyanın müddəaları Razılığa gələn bir Dövlətdə (mənşə dövlətdə) daimi yaşayan uşağın razılığa gələn digər dövlətdə (qəbul edən dövlətdə) daimi yaşayan ər, arvad və ya şəxs tərəfindən mənşə dövlətində övladlığa götürüldükdən sonra və ya qəbul edən Dövlətdə, yaxud mənşə dövlətində belə övladlığa götürülmə məqsədi üçün köçürüldüyü və ya köçürülməli olduğu halda tətbiq olunur.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası 2004-cü il 30 mart tarixli Qanunu ilə "Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında" Haaqa Konvensiyasına qoşularkən həmin Konvensiyaya dair 5 bəyanatla çıxış etmişdir. Həmin bəyanatlarla Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinə uyğun olaraq Mərkəzi orqan, həmçinin Konvensiyanın 23-cü maddəsinin 2-ci bəndinə uyğun olaraq övladlığa götürməni təsdiq edən səlahiyyətli orqan təyin edilmiş, övladlığa verilmiş uşaqların Azərbaycan Respublikasının ərazisini yalnız məhkəmənin övladlığa verilmə barədə qanuni qüvvəyə minmiş qərarı əsasında tərk edə bilməsi, Azərbaycan Respublikasının ərazisində adətən daimi yaşayan uşaqların övladlığa götürülməsinin yalnız müvafiq milli qanunvericiliyin buna icazə verdiyi həcmdə həyata keçirilə bilməsi qaydasını müəyyən etmiş, habelə Konvensiyanın tətbiqini yaxşılaşdırmaq məqsədilə razılığa gələn dövlətlər arasında bağlanmış, lakin Azərbaycan Respublikasının iştirakçısı olmadığı sazişlər əsasında övladlığa götürmələri tanımayacağını bəyan etmişdir. Azərbaycan Respublikasının 2006-ci il 15 dekabr tarixli Qanunu ilə həmin Konvensiyaya dair Azərbaycan Respublikasının bəyanatlarına dəyişiklər edilərək, bəyanatlardan Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Konvensiyanın 6-ci maddəsinin 1-ci bəndinə uyğun olaraq Mərkəzi orqan, həmçinin Konvensiyanın 23-cü maddəsinin 2-ci bəndinə uyğun olaraq övladlığa götürməni təsdiq edən səlahiyyətli orqan təyin edilməsi barədə 1-ci və 4-cü bəndlər çıxarılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 22 iyul tarixli Qərarı ilə təsdiq edilmiş “Ölkələrarası övladlığa götürülmə ilə bağlı əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə hüquqi yardım göstərən orqanların akkreditasiya Qaydası”na əsasən isə Azərbaycan Respublikası üçün “Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında” Haaqa Konvensiyasının 6-ci maddəsinin 1-ci bəndinə uyğun olaraq Mərkəzi orqan qismində Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsini müəyyən edilmişdir. Həmçinin qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının beynəlxalq övladlığa götürmə sahəsində təcrübəsi yalnız yuxarıda qeyd olunan Haaqa Konvensiyası ilə məhdudlaşdırılmış, Konvensiya müddəalarının milli qanunvericilik səviyyəsində tətbiqi Azərbaycan Respublikasının Ailə Məcəlləsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Valideyn himayəsindən məhrum olan və övladlığa götürülən uşaqların uçot Qaydalarının və Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların övladlığa götürülməsini arzu edən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin uçot Qaydasının təsdiq edilməsi haqqında” 2000-ci il 20 sentyabr tarixli, “Ölkələrarası övladlığa götürmə ilə bağlı əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə hüquqi yardım göstərən orqanların akkreditasiya Qaydası”nın təsdiq edilməsi haqqında 2008-ci il 22 iyul tarixli qərarları və digər normativ hüquqi aktlar əsasında həyata keçirilir.

“Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının ərazisində və ya Azərbaycan Respublikasının vətəndaşlarından doğulmuş şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Həmin Qanunun 10-cu maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikasının vətəndaşı olan şəxsin xarici dövlətin vətəndaşlığına mənsubiyyəti, Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində nəzərdə tutulmuş və ya Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə müvafiq surətdə həll edilmiş hallar istisna olmaqla tanınmır.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin XI fəsli ailədə uşaqların hüquqlarına həsr olunmuşdur. Uşaq ad, ata adı və soyad daşımaq hüququna malikdir. Uşağa ad valideynlərin razılığı ilə verilir, ata adı atasının adına görə verilir.

Yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları uşaq 18 yaşına çatana qədər onun adının dəyişdirilməsinə, eləcə də soyadının digər valideyninin soyadına dəyişdirilməsinə valideynlərin birgə xahişinə əsasən və uşağın mənafeyi nəzərə alınaraq icazə verilə bilər.

10 yaşına çatmış uşağın adı və soyadı yalnız onun razılığı ilə dəyişdirilə bilər.

Uşağın öz valideynləri, babaları, nənələri, qardaşları, bacıları və başqa qohumları ilə ünsiyyətdə olmaq, yəni ailə əlaqələrinə malik olmaq hüququ vardır.

“Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə müvafiq olaraq 14 yaşından 18 yaşınadək uşaqların vətəndaşlığı yalnız onların razılığı ilə dəyişə bilər.

Daxili İşlər orqanlarının aidiyyəti xidmətləri tərəfindən 2003-2008-ci illər ərzində yetkinlik yaşına çatmayanlar arasında hüquqpozmaların xəbərdarlığı, onlara qarşı sui-istifadə və zorakılıq hallarının yolverilməzliyi, habelə uşaqların küçə həyatına məruz qalması təzahürləri ilə mübarizə işi daha da yaxşılaşdırılmış və bu yönümdə ardıcıl tədbirlər həyata keçirilmişdir.

Həmin Nazirlik sistemində aparılan davamlı islahatların tərkib hissələrindən biri kimi yeniyetmələrlə iş üzrə xidmət sahəsinin fəaliyyəti, funksional vəzifələri son illər planauyğun və ardıcıl şəkildə təkmilləşdirilmiş, uşaq hüquqlarına dair beynəlxalq normalara, ölkə qanunlarının tələb və müddəalarına uyğun olaraq yeni normativ hüquqi aktların qəbul edilməsi təmin olunmuş, insan hüquqları üzrə beynəlxalq normaların, o cümlədən BMT-nin “Uşaq hüquqlarına dair” Konvensiyasının tələb və prinsiplərinə, “Yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin minimal standart qaydaları”na (Pekin qaydaları – 1985-ci il), “Yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığın xəbərdarlığına dair BMT-nin Rəhbər prinsipləri”nə (Ər-Riyad prinsipləri), “90-cı illərdə uşaqların müdafiəsi və inkişafına dair BMT-nin Bəyannaməsi”nə və ölkə

qanunlarına müvafiq olaraq daxili işlər orqanları sisteminə, o cümlədən yeniyetmələrlə iş üzrə xidmət sahəsinin yenidən təşkili və təkmilləşdirilməsi məqsədilə Daxili İşlər Nazirliyi tərəfindən bir sıra islahatlar aparılmış, görülən işin dünyəvi təcrübəyə uyğunlaşdırılması istiqamətində adekvat ölçülər götürülmüş, hazırda bu yönümdə islahatlar və yaradıcılıq işləri davam etdirilməkdədir.

## Maddə 13. İfadə etmək azadlığı

Azərbaycan Respublikası Konstitusiyasının 47-ci maddəsində göstərilir ki, hər kəsin fikir və söz azadlığı var. Heç kəs öz fikir və əqidəsini açıqlamağa və ya fikir və əqidəsindən dönməyə məcbur edilə bilməz. İrqi, milli, dini, sosial ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilmir.

Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsində hər kəsin qanuni yolla istədiyi məlumatı axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı təsbit olunmuşdur.

“Uşaq hüquqları haqqında” Azərbaycan Respublikası Qanununun 14-cü maddəsində hər bir uşağın vicdan, fikir və söz azadlığına malik olduğu təsbit olunmuşdur. Valideynlər, digər şəxslər və dövlət orqanları uşağın vicdan, fikir və söz azadlığına hörmətlə yanaşmalıdırlar. Həmin qanunun 15-ci maddəsinə görə isə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hər bir uşağın əqli və fiziki inkişafı üçün zəruri olan istənilən məlumatı axtarmaq, əldə etmək, ötürmək və yaymaq hüququ vardır.

## Maddə 14. Əqidə, vicdan və din azadlığı

Uşağın Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən vicdan, fikir və söz azadlığına malik olmaq hüququnun əsasları hazırkı hesabatın 13-cü maddəsində verilmişdir.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 52-ci maddəsinə müvafiq olaraq uşaq ailədə onun maraqlarına toxunan istənilən məsələnin həlli zamanı öz fikrini bildirmək, habelə məhkəmə istintaqı və inzibati araşdırmaların gedişində dinlənilmək hüququna malikdir. Onun maraqlarına zidd olan hallar istisna olunmaqla, 10 yaşına çatmış uşağın fikri mütləq nəzərə alınmalıdır. Qanunvericilikdə nəzərdə tutulmuş hallarda məhkəmə və qəyyumluq və himayə orqanı yalnız 10 yaşına çatmış uşağın razılığı ilə qərar qəbul edə bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinə müvafiq olaraq hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır. Dini mərasimlərin yerinə yetirilməsi, ictimai qaydanı pozmursa və ya ictimai əxlaqa zidd deyildirsə, sərbəstdir. Dini etiqad və əqidə hüquq pozuntusuna bəraət qazandırmır.

“Uşaq hüquqları haqqında” Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinə görə uşağın səhhətinə zərərli təsir göstərən dini ayinlərin icrasına cəlb edilməsi qadağandır.

Dini təhsil müntəzəm kurrikulumun tərkib hissəsi deyildir. Din dövlətdən ayrıdır. Din təhsildən və məktəbdən ayrıdır. Məktəbdən kənarda dini təhsil almaq hər bir uşağın öz hüququdur.

## Maddə 15. Sərbəst və dinc toplaşmaq azadlığı

Azərbaycan Respublikası Konstitusiyasının 58-ci maddəsinə əsasən hər kəsin başqaları ilə birləşmək hüququ vardır. Bütün birliklərin sərbəst fəaliyyətinə təminat verilir. Heç kəs hər hansı birliyə daxil olmağa və ya onun üzvlüyündə qalmağa məcbur edilə bilməz.

Azərbaycan Respublikasının bütün ərazisində və ya hər hansı hissəsində qanuni dövlət hakimiyyətini zorla devirmək məqsədi güdən birliklər qadağandır. Konstitusiyanı və qanunları pozan birliklərin fəaliyyətinə yalnız məhkəmə qaydasında xitam verilə bilər.

“Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununun 26-cı maddəsinə görə uşaqların təhsil və yaşayış yerlərində Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada ictimai birliklər və ictimai özfəaliyyət orqanları yaratmaq və onlarda birləşmək hüququ vardır.

Uşaqların və uşaq ictimai birliklərinin və ictimai özfəaliyyət orqanlarının siyasi fəaliyyətə cəlb edilməsinə yol verilmir.

Son illər bu sahədə uşaqların fəallığı nəzərəçarpacaq dərəcədə artmışdır. Bu baxımdan 2007-ci ildən etibarən Azərbaycan Respublikasının Milli Məclisində uşaqların problemlərinin müzakirəsi və həllinə yardımçı olacaq 85 deputatdan ibarət Uşaq Parlamentinin fəaliyyətə başlamasını xüsusi qeyd etmək lazımdır. Ölkənin bütün rayonlarından və məktəblərində yerli “uşaq parlamenti” nümayəndələri vardır.

## Maddə 16. Şəxsi həyata hüququn müdafiə edilməsi

Azərbaycan Respublikası Konstitusiyasının 32-ci maddəsinə görə hər kəsin şəxsi toxunulmazlıq hüququ vardır.

Hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa, şəxsi və ailə həyatına müdaxilə etmək qadağandır. Hər kəsin şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə hüququ vardır.

Öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, heç kəs onun xəbəri olmadan və ya etirazına baxmadan izlənilə bilməz, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz.

Hər kəsin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna dövlət təminat verir. Bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər.

Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, hər kəs onun haqqında toplanmış məlumatlarla tanış ola bilər. Hər kəsin onun barəsində toplanmış və həqiqətə uyğun olmayan, tam olmayan, habelə qanunun tələbləri pozulmaqla əldə edilmiş məlumatların düzəldilməsini və ya çıxarılmasını (ləğv edilməsini) tələb etmək hüququ vardır.

Azərbaycan Respublikası Konstitusiyasının 33-cü maddəsində isə hər kəsin mənzil toxunulmazlığı hüququ olduğu təsbit olunmuşdur. Qanunvericilikdə müəyyən edilmiş hallar və ya məhkəmə qərarı istisna olmaqla mənzildə yaşayanların iradəsi ziddinə heç kəs mənzilə daxil ola bilməz.

## Maddə 17. İnformasiya əldə etmək hüququ

Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsində hər kəsin məlumat azadlığına malik olduğu təsbit olunmuşdur. Yəni hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır. Kütləvi informasiyanın azadlığına təminat verilir. Kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurası qadağandır. Hər kəsin kütləvi informasiya vasitələrində dərc edilən və onun hüquqlarını pozan və ya mənafelərinə xələl gətirən məlumatı təkzib etmək və ya ona cavab vermək hüququna təminat verilir.

Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, hər kəs onun haqqında toplanmış məlumatlarla tanış ola bilər. Hər kəsin onun barəsində toplanmış və həqiqətə uyğun olmayan, tam olmayan, habelə qanunun tələbləri pozulmaqla əldə edilmiş məlumatların düzəldilməsini və ya çıxarılmasını (ləğv edilməsini) tələb etmək hüququ vardır.

"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanunun 1-ci maddəsində məlumat əldə etmək hüququnun sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə, açıq cəmiyyətin və demokratik hüquqi dövlətin prinsipləri əsasında təmin edilməsinin hüquqi əsaslarını müəyyənləşdirmək, həmçinin ictimai vəzifələrin yerinə yetirilməsinə vətəndaşlar tərəfindən nəzarət olunmasına şərait yaratmaq bu qanunun məqsədi kimi müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikasında informasiyanın əldə olunması azaddır. Yaşından asılı olmayaraq hər kəs özü birbaşa və ya nümayəndəsi vasitəsilə informasiya sahibinə müraciət etmək, informasiyanın növünü və əldə etmə formasını seçmək hüququna malikdir.

Fiziki şəxslərin özləri barəsindəki sənədləşdirilmiş informasiya ilə maneəsiz tanış olmaq, onu əldə etmək, bu informasiyada dəqiqləşdirmələr aparılmasını tələb etmək, informasiyadan kimlərin və hansı məqsədlə istifadə etdiyini öyrənmək hüququ vardır.

Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsində isə göstərilir ki, kütləvi informasiyanın azadlığına təminat verilir. Kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurası qadağandır.

Azərbaycan Respublikasının ərazisində kütləvi informasiya vasitələri dövlət dilindən istifadə edirlər.

Azərbaycan Respublikası vətəndaşlarının kütləvi informasiyanın istehsalı və yayımında qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikası əhalisinin danışdığı başqa dillərdən, habelə dünyada geniş yayılmış digər dillərdən istifadə etmək hüququ vardır.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə qorunan sirləri yaymaq, mövcud konstitusiyalı dövlət quruluşunu zorakılıqla devirmək, dövlətin bütövlüyünə qəsd etmək, müharibəni, zorakılığı və qəddarlığı, milli, irqi, sosial ədavəti, yaxud dözülməzliyi təbliğ etmək, mötəbər mənbə adı altında vətəndaşların şərəf və ləyaqətini alçaldan şayiələr, yalan və qərəzli yazılar, pornoqrafik materiallar çap etdirmək, böhtan atmaq, yaxud digər qanunazidd əməllər törətmək məqsədilə kütləvi informasiya vasitələrindən istifadə olunmasına yol verilmir.

Xüsusilə qeyd olunmalıdır ki, "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununun 14-cü maddəsinə əsasən mətbu nəşrlərin təsis edilməsi üçün dövlət orqanlarından icazə tələb olunmur.

31.07.2008-ci il tarixinədək 3750 mətbu nəşr uçota alınmışdır.

Müxtəliflik dəyərlərinin artırılmasının əhəmiyyətini artırmaq və insan hüquqlarının, uşaq hüquqlarının qorunması sahəsində məlumatlılığı genişləndirmək üçün aşağıdakı işlər aparılmışdır:

- bu sahədə ictimaiyyətin məlumatlandırılmasına dair təlimlər və seminarlar keçirilmiş, kütləvi informasiya vasitələri ilə birgə məqalə və materiallar hazırlanmışdır;
- BMT-nin "Uşaq hüquqlarına dair" Konvensiyası və digər sənədlər Azərbaycan dilinə tərcümə edilərək məktəblərə paylanmış və öyrənilməsi təmin edilmişdir.

## Maddə 37. Qeyri İnsani rəftar. İşgəncələr və azadlıqdan məhrumetmə

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 133-cü maddəsində işgəncə verməyə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Həmin maddəyə görə:

133.1. Qəsdən sağlamlığa ağır və ya az ağır zərər vurma ilə nəticələnməyən mütəmadi olaraq döyməklə və ya sair zorakı hərəkətlərlə güclü fiziki ağrı və ya psixi iztirablar vermə-

üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

133.2. Eyni əməllər:

133.2.1. iki və ya daha çox şəxsə qarşı və ya girov götürülən yaxud oğurlanmış şəxsə qarşı və ya sifarişlə törədildikdə;

133.2.2. aşkar surətdə hamilə vəziyyətində olan qadın barəsində törədildikdə;

133.2.3. bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən törədildikdə;

133.2.4. təqsirkar şəxs üçün aşkar surətdə yetkinlik yaşına çatmayan, habelə köməksiz vəziyyətdə olan şəxsə qarşı törədildikdə;

133.2.5. zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özü və ya yaxın qohumlarına qarşı törədildikdə-

üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

133.3. Bu Məcəllənin 133.1 və 133.2-ci maddələri ilə nəzərdə tutulan əməllər şəxsdən məlumat almaq və ya onu etirafa məcbur etmək, yaxud törətdiyi və ya törədilməsində şübhə doğurduğu əmələ görə həmin şəxsi cəzalandırmaq məqsədi ilə öz qulluq mövqeyindən istifadə etməklə vəzifəli şəxs tərəfindən və ya onun təhriki ilə törədildikdə —

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 145-ci maddəsində qanunsuz azadlıqdan məhrumetməyə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Həmin maddəyə görə:

145.1. Adam oğurluğu ilə bağlı olmayan qanunsuz azadlıqdan məhrum etmə-

iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

145.2. Eyni əməllər-

145.2.1. iki və ya daha çox şəxsə qarşı törədildikdə;

145.2.2. təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadına qarşı törədildikdə;

145.2.3. yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə;

145.2.4. bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə;

145.2.5. zərərçəkmiş şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə;

145.2.6. silahdan yaxud silah kimi istifadə edilən əşyalardan istifadə etməklə törədildikdə-

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

145.3. Bu Məcəllənin 145.1 və ya 145.2-ci maddələrində göstərilən əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda-

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

2001-ci ildən etibarən məhkumlarının genişləndirilməsi və cəza şəraitin humanistləşdirilməsi məqsədilə Cəzaların İcrası Məcəlləsində əlavə və dəyişikliklərin edilməsi ilə əlaqədar 16 qanun qəbul edilmiş, bu zaman yetkinlik yaşına çatmayanların hüquqlarına xüsusi diqqət yetirilmişdir.

Belə ki, 24 iyun 2008-ci il tarixində qəbul edilmiş "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə əlavələr və dəyişikliklə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununu ilə Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 124-cü maddəsinin 2-ci bəndinə edilmiş dəyişikliyə görə ümumi rejimli tərbiyə müəssisələrində cəza çəkən məhkumlar ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda əlli manatadək (əvvəl bu məbləğ 9 manatadək idi) miqdarda pul xərcləyə bilərlər. 124. 3. 1-ci maddəyə edilmiş dəyişikliyə müvafiq olaraq isə ümumi rejimli

tərbiyə müəssisələrində məhkumlar cəzanın icrası qaydalarını pozmadıqda ,əməyə və təhsilə vicdanla yanaşdıqda cəza müddətinin ən azı dörddə birini çəkdikdən sonra onların saxlanılması şəraiti yaxşılaşdırıla bilər. Bu halda məhkumlar əlavə olaraq ərzaq məhsullar və ən zəruri mallar əldə etmək üçün ayda on beş manatadək (əvvəl bu məbləğ 3 manatadək idi)miqdarda pul xərcliyə bilələr.

Qanuna görə əgər əvvəllər möhkəm rejimli tərbiyə müəssisələrində cəza çəkən məhkumlara ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda yeddi manatadək xərcləməyə icazə verilirdisə, indi bu məbləğ artırılaraq qırx manatadək müəyyənləşdirilmişdir. Möhkəm rejimli tərbiyə müəssisələrində məhkumlar cəzanın icrası qaydalarını pozmadıqda, əməyə və təhsil vicdanla yanaşdıqda, cəza müddətinin azı üçdə birini sonra onların saxlanılması şəraiti yaxşılaşdırıla bilər. Cəzaların İcrası Məcəlləsinin 124. 5. 1-ci maddəsinə edilmiş dəyişikliyə görə bu halda məhkumlar əlavə olaraq ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda on beş manatadək (əvvəl məbləğ 3 manatadək idi) miqdarda pul xərcləyə bilərlər.

2003-2008-ci illər ərzində penitensiar xidmətin istintaq təcridxanalarında və Tərbiyə müəssisəsində müəssisənin işçi heyəti tərəfindən yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxslərə və məhkumlara münasibətdə zorakılıq və pis rəftar halları qeydə alınmamışdır.

Qeyd olunmalıdır ki, Azərbaycan Respublikasında demokratik hüquqi islahatlar çərçivəsində penitensiar sistemin təkmilləşdirilməsi qabaqcıl təcrübənin öyrənilməsi və nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq və şəffaflıq şəraitində ardıcıl davam etdirilir.

Yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxslərlə və məhkumlarla işləyən işçi heyətinin xidmətə hazırlığına xüsusi diqqət yetirilir. Bu məqsədlə 2000-ci ildən penitensiar xidmətin nəzdində fəaliyyət göstərən Təlim Mərkəzinin imkanlarından istifadə edilir. Xidmətə yeni qəbul edilmiş işçilər üç aylıq ilkin hazırlıq kursları keçirlər. Xidmət edən işçi heyəti hər üç ildən bir qırx beş günlük ixtisasartırma kurslarına cəlb olunur. Hər iki kateqoriyalı işçi heyəti üçün xüsusi tədris proqramları hazırlanmışdır. Bu proqramlara digər mövzularla yanaşı “İnsan hüquqları”, “Məhkumlarla rəftara həsr olunmuş beynəlxalq sənədlər” kimi mövzular da daxil edilmişdir. Son üç il ərzində Tərbiyə müəssisəsinin əksəriyyət işçiləri ilkin və ixtisasartırma kursları keçmişlər.

Bundan başqa 2008-ci ilin mart və aprel aylarında nazirliyin penitensiar xidmətinin və Tibb baş idarəsinin əməkdaşları tərəfindən qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə İtaliyanın, habelə Avropa Şurasının Hüquqi işlər üzrə Baş Direktorluğunun dəstəyi ilə Estoniyanın penitensiar sistemlərinin fəaliyyəti, bu sahədə çalışan bir sıra qeyri-hökumət təşkilatlarının işi, məhkumların saxlanma şəraiti ilə tanış olunmuş, cəzanın icrası və çəkilməsi qaydalarının beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində əldə edilmiş təcrübəyə xüsusi diqqət yetirilmişdir.

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin 10-cu maddəsində məhkumların, o cümlədən yetkinlik yaşına çatmayan məhkumların əsas hüquqları qismində digər hüquqlarla yanaşı məhkumların cəzanı insan şəxsiyyətinə hörmət edilən şəraitdə çəkmək, hüquqi yardım almaq hüquqları da təsbit edilmişdir. Həmin maddəyə Azərbaycan Respublikasının 2008-ci il 24 iyun tarixli Qanunu ilə məhkumların əsas hüquqları sırasına daha iki - cəzanın icrası və çəkilməsi ilə əlaqədar barəsində qəbul edilən qərarlara dair öz rəyini bildirmək və ya onlardan şikayət etmək, psixoloji yardım almaq hüquqları əlavə edilmişdir.

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi tərbiyə müəssisələrində nümunəvi davranışa, əməyə və təhsilə vicdanlı münasibətə, özfəaliyyət təşkilatlarında və tərbiyə tədbirlərində fəal iştirakına görə yetkinlik yaşına çatmayan məhkumlara nəzərdə tutulmuş həvəsləndirmə tədbirlərindən əlavə tərbiyə müəssisəsi nümayəndəsinin müşayiəti ilə müəssisənin hüdudlarından kənarda idman, mədəni-kütləvi və digər tədbirlərə bir dəfə tamaşa etməyə icazə vermək növündə həvəsləndirmə tədbirlərinin tətbiq edilməsinə imkan yaradır. Həvəsləndirmə tədbiri qaydasında

tərbiyə müəssisəsinin nümayəndəsinin müşayiəti ilə müəssisəsinin hüdudlarından kənarda idman, mədəni-kütləvi və digər tədbirlərə tamaşa etməyə icazə verilmiş məhkumlara tədbir zamanı onlara məxsus mülki paltarlar verilir. Tərbiyə müəssisəsindən kənara çıxma müddəti səkkiz saatdan çox olmamaq şərti ilə müəssisənin müdiriyyəti tərəfindən müəyyən edilir.

Əlavə olaraq bildiririk ki, yeniyetmə məhkumlar arasında 2003-cü ildən etibarən indiyədək intihar halları baş verməmişdir.

"Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının 2007-ci il 31 may tarixli Qanununda yetkinlik yaşına çatmayan məhkumların cəza çəkməkdən azad edildikdən sonra sosial adaptasiyasına xüsusi diqqət yetirilmişdir.

Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası dedikdə, penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial mühitə uyğunlaşdırılması, hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunması, bu şəxslər tərəfindən törədilə biləcək yeni cinayətlərin və onlara təsir göstərə bilən kriminogen amillərin qarşısının alınması məqsədi ilə həyata keçirilən hüquqi, iqtisadi, təşkilati və sosial-psixoloji tədbirlər sistemi başa düşülür. Sosial adaptasiya müddəti bir ildir.

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş cəza çəkməkdən azad edilmiş yetkinlik yaşına çatmayanların yaşayış sahəsi olmadıqda, onlar qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən internat məktəblərinə göndərilir və tam dövlət təminatına götürülürlər.

## V. AİLƏ MÜHİTİ VƏ ALTERNATİV QAYĞI

### A. Maddə 5. Valideyn himayəsi

Azərbaycan Respublikası Konstitusiyasının 34-cü maddəsinin IV hissəsinə müvafiq olaraq uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də borcudur.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 58-ci maddəsinə əsasən valideynlər uşaqlarını tərbiyə etmək hüququna malikdirlər və uşaqlarını tərbiyə etməyə borcludurlar, uşaqlarının tərbiyəsinə, sağlamlığına və onların psixi, fiziki, mənəvi inkişafına görə məsuliyyət daşıyırlar. Valideynlər uşaqların əsas ümumi təhsil almasını təmin etməyə borcludurlar. Dövlət valideynlərin bu hüquq və vəzifələrinə qanunda nəzərdə tutulmuş qaydada yalnız uşağın mənafeyi tələb etdiyi hallarda müdaxilə edə bilər.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 44.3.-cü maddəsinə əsasən uşağın anası ilə nikahda olmayan şəxsin atalığı uşağın atasının və anasının Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələrinə birgə ərizə verməmələri ilə müəyyən olunur.

"Tərbiyə müəssisələrinin nəzdində Himayəçilik Şurasının işinin təşkili və fəaliyyət Qaydası" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 15 yanvar tarixli 16 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

Himayəçilik Şurası tərbiyə müəssisəsinin müdiriyyətinə tədris-tərbiyə prosesinin təşkilində, onun maddi-texniki bazasının möhkəmləndirilməsində, məhkumların sosial müdafiəsinə dair məsələlərin həllində, cəza çəkməkdən azad olunanlara əmək və məişət şəraitinin yaradılmasında köməklik göstərir.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 44.4-cü maddəsinə görə ana öldükdə, fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə, ananın yerini müəyyən etmək mümkün olmadıqda və ya o, valideynlik hüquqlarından məhrum edildikdə, atalıq yerli icra hakimiyyətlərinin qəyyumluq və

himayə orqanlarının razılığı ilə uşağın atasının ərizəsi əsasında, bu razılıq olmadıqda isə məhkəmənin qərarı ilə müəyyən olunur.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 44.5-ci maddəsinə əsasən atalığın müəyyən olunması haqqında birgə ərizə verməyin uşağın doğulmasından sonra qeyri-mümkünlüyü və ya çətinliyi güman olunduğu hallarda gələcək uşağın öz aralarında nikahda olmayan valideynləri bu ərizəni Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələrinə ananın hamiləliyi dövründə vermək hüququna malikdirlər. Uşağın valideynləri haqqında qeyd uşaq doğulduqdan sonra aparılır.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 44.6-cı maddəsinə görə yetkinlik yaşına çatmış şəxs barədə atalığın müəyyən olunmasına yalnız onun razılığı ilə, həmin şəxs fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə isə onun qəyyumu və ya yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanlarının razılığı ilə yol verilir.

### B. Maddə 18. Valideynlik məsuliyyəti

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununun 11-ci maddəsində hər bir uşağın hərtərəfli inkişaf etmək, milli və ümumbəşəri dəyərlərə uyğun, humanizm və əxlaqi prinsiplər əsasında tərbiyə almaq hüququ vardır.

Uşağın tərbiyəsi ailədə, məktəbdə və məktəbəqədər və məktəbdənkənar uşaq təlim-tərbiyə müəssisələrində aparılır.

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin 123.1-ci maddəsinə əsasən müəyyən müddətə azadlıqdan məhrumetmə növündə cəzaya məhkum olunmuş yetkinlik yaşına çatmayan məhkumlar ümumi və möhkəm rejimli tərbiyə müəssisələrində cəza çəkirlər.

Tərbiyə müəssisəsinin müdiriyyətinə tədris-tərbiyə prosesinin təşkilində, onun maddi-texniki bazasının möhkəmləndirilməsində, məhkumların sosial müdafiəsinə dair məsələlərin həllində, cəza çəkməkdən azad olunanlara əmək və məişət şəraitinin yaradılmasında kömək göstərilməsi məqsədilə tərbiyə müəssisəsinin nəzdində dövlət müəssisə, idarə və ya təşkilatlarının, ictimai birliklərin, digər müəssisələrin nümayəndələrinin və fiziki şəxslərinin iştirakı ilə himayəçilik şurası yaradılır.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 125-ci maddəsinə əsasən hamiləlik dövründə və doğuşdan sonrakı dövr üçün işləyən qadınlara 126 təqvim günü (doğuşdan əvvəl 70 təqvim günü və doğuşdan sonra 56 təqvim günü) müddətində ödənişli məzuniyyət verilir. Doğuş çətin olduqda, iki və daha çox uşaq doğulduqda doğuşdan sonrakı məzuniyyət 70 təqvim günü müddətində verilir.

Kənd təsərrüfatı istehsalında çalışan qadınlara hamiləliyə və doğuşa görə məzuniyyət aşağıdakı müddətlərdə verilir:

- normal doğuşda 140 təqvim günü (doğuşdan əvvəl 70 təqvim günü və doğuşdan sonra 70 təqvim günü);
- doğuş çətin olduqda 156 təqvim günü (doğuşdan əvvəl 70 təqvim günü və doğuşdan sonra 86 təqvim günü);
- iki və daha çox uşaq doğulduqda 180 təqvim günü (doğuşdan əvvəl 70 təqvim günü və doğuşdan sonra 110 təqvim günü).

Həmin Məcəllənin 126-cı maddəsinə əsasən iki aylığadək yaşında uşağı övladlığa götürən, yaxud övladlığa götürmədən böyüdən qadınlar doğuşdan sonra müəyyən edilmiş 56 günlük sosial məzuniyyətdən, həmçinin bu Məcəllənin 117-ci maddəsi ilə müəyyən edilmiş əlavə və 127-ci maddəsində nəzərdə tutulmuş qismən ödənişli məzuniyyətlərdən istifadə etmək hüququna malikdirlər.

“Sosial müavinətlərin artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 avqust tarixli Fərmanına əsasən sosial müavinətlərin məbləği artırılaraq aşağıdakı kimi müəyyən olunmuşdur:

Aylıq müavinətlər:

- sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara müavinət - 50 manat;
- ailə başçısını itirməyə görə müavinət - 40 manat;
- müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqlarına müavinət -40 manat
- valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) müavinət – 25 manat;
- bir yaşadək uşağı olan aztəminatlı ailələrə müavinət - 20 manat.

Birdəfəlik müavinətlər:

- uşağın anadan olmasına görə müavinət - 50 manat;
- dəfn üçün müavinət – 100 manat.

“Uşağa qulluğa görə qismən ödənişli sosial məzuniyyətdə olanlara verilən müavinətin artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 avqust tarixli Sərəncamına əsasən:

- bir yaş yarımadək uşağa qulluğa görə qismən ödənişli sosial məzuniyyətdə olanlara aylıq müavinətin məbləği 20 manat;
- bir yaş yarımdan üç yaşınadək uşağa qulluğa görə həmin müavinətin məbləği 10 manat müəyyən edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarı ilə təsdiq edilmiş “Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş işçilərə sığorta edənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə”nin 6-cı bəndinə əsasən xəstələnmiş ailə üzvlərinin qulluğa ehtiyacı olduqda əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə sığorta olunana müavinət verilir. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət, qanunvericiliklə müəyyən edilmiş qaydada verilmiş xəstəlik vərəqəsinə (əmək qabiliyyətini itirmək vərəqəsi) əsasən təyin edilir.

### C. Maddə 9. Valideynlərdən ayrı düşmə

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 65-ci maddəsinə əsasən valideynlik hüquqlarından məhrumetmə məhkəmə qaydasında həll edilir.

Həmin Məcəllənin 66-cı maddəsinə müvafiq olaraq valideynlik hüquqlarından məhrum edilmiş valideynlər uşağa münasibətdə həmin uşaqla qohumluq faktına əsaslanan bütün hüquqlarını, o cümlədən təminat almaq, habelə uşaqlar üçün təyin edilmiş dövlət müavinəti almaq və imtiyazlardan istifadə etmək hüququnu itirirlər. Valideynlik hüquqlarından məhrum edilmiş valideynlər uşaqların saxlanmasını təmin etmək vəzifələrindən azad edilmirlər.

Həmin Məcəllənin 61-ci maddəsinə əsasən uşaqlardan ayrı yaşayan valideyn onlarla ünsiyyət hüququna, uşaqların tərbiyə və təhsili ilə bağlı məsələlərin həll edilməsində iştirak etmək hüququna malikdir. Uşaqlarından ayrı yaşayan valideynlər valideynlik hüququnun həyata keçirilməsi qaydası haqqında yazılı saziş bağlaya bilərlər. Valideynlər razılığa gələ bilmədikdə, mübahisə onların (onlardan birinin) tələbi əsasında yerli icra hakimiyyətlərinin qəyyumluq və himayəçilik orqanlarının iştirakı ilə məhkəmə tərəfindən həll edilir.

Məhkəmənin qətnaməsinə əməl etməyən valideynə qarşı mülki prosessual qanunvericiliyə uyğun ölçü götürülür. Bu qətnaməyə qəsdən əməl edilmədikdə, məhkəmə uşaqdan ayrı yaşayan valideynin tələbi ilə uşağın mənafeyi və rəyi nəzərə alınmaqla onun həmin valideynə verilməsi haqqında qətnamə qəbul edə bilər.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 50-ci maddəsinə müvafiq olaraq valideynlərinin nikahının pozulması və ya etibarsız sayılması, valideynlərinin ayrı yaşaması uşağın hüquqlarına təsir etmir.

Valideynlər ayrı yaşadıqda uşaq onların hər biri ilə ünsiyyətdə olmaq hüququna malikdir.

Valideynlər müxtəlif dövlətlərdə yaşadıqda da uşaq öz valideynləri ilə ünsiyyətdə olmaq hüququna malikdir.

Uşaq ekstremal hallarda (tutulduqda, həbs olunduqda, saxlanıldıqda, müalicə müəssisəsində yerləşdirildikdə və s.) qanunvericiliklə müəyyən olunmuş qaydada öz valideynləri və qohumları ilə ünsiyyətdə olmaq hüququna malikdir.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 60.2-ci maddəsinə görə valideynlik hüquqlarını həyata keçirərkən valideynlər uşaqların mənəvi inkişafına, fiziki və psixi sağlamlığına xələl yetirməməlidirlər. Valideynlik hüquqlarını həyata keçirərkən uşaqların hüquq və mənafelərinə ziyan vuran valideynlər qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar.

2003-cü ildən etibarən 2008-ci ilin birinci yarım ilinin sonunadək Azərbaycan Respublikasında valideynlik hüququndan məhrumetmə ilə bağlı birinci instansiya məhkəmələri tərəfindən baxılmış işlərin ümumi sayı, habelə onlardan təmin olunmuşların sayı müvafiq ardıcıllığa uyğun olaraq aşağıdakı kimi olmuşdur:

2003-cü il: 79/53

2004-cü il: 104/60

2005-ci il: 150/94

2006-cı il: 145/96

2007-ci il: 172/123

2008-ci ilin ilk 6 ayı: 108/48

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinə əlavələri nəzərdə tutan Azərbaycan Respublikasının 2008-ci il 24 iyun tarixli Qanunu ilə həmin Məcəlləsinin 16.1-ci maddəsinə BMT-nin "Uşaq hüquqlarına dair" Konvensiyasının 9.3-cü maddəsinin tələbinə uyğun olan əlavələr edilmişdir. Həmin Məcəllənin 16.1-ci maddəsinə görə cəzanı icra edən müəssisə və ya orqanın vəzifəli şəxsləri məhkumun razılığı ilə onun ailəsinə və ya yaxın qohumlarından birinə, yaxud məhkumun göstərdiyi şəxsə ona təyin olunmuş cəzanın icrası, cəzanın çəkilmə yeri, məhkumun yerdəyişmələri və azad edilməsi barədə məlumat verməlidirlər(əlavə edilən sözlər fərqləndirilmişdir).

Azərbaycan Respublikasında 55 dövlət uşaq müəssisəsi fəaliyyət göstərir. Müəssisələrdə yaşayan uşaqların sayı 4063 nəfərdir. Hal-hazırda dövlət uşaq müəssisələrində daimi yaşayan valideyn himayəsindən məhrum olan uşaqların sayı 1037 nəfərdir.

**Valideyn himayəsindən məhrum olan uşaqların sayı (ilin sonuna)**

| | **2003** | **2004** | **2005** | **2006** | **2007** | **2008** |
|---|---|---|---|---|---|---|
| Himayədarlıq (qəyyumluq) əsasında ailələrdə tərbiyə alan uşaqların sayı, nəfər | 9215 | 8842 | 7716 | 6670 | 2928 | 3006 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 0-17 yaşlı uşaqların sayına nisbətən, faizlə | 0,3 | 0,3 | 0,3 | 0,3 | 0,1 | 0,1 |
| Övladlığa götürmə əsasında ailələrdə tərbiyə alan uşaqların sayı, nəfər | 14794 | 14228 | 13293 | 11746 | 2043 | 2106 |
| 0-17 yaşlı uşaqların sayına nisbətən, faizlə | 0,5 | 0,5 | 0,5 | 0,5 | 0,1 | 0,1 |

**18 yaşa qədər uşaqların övladlığa götürülməsi**

(Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin məlumatlarına əsasən)

| | **2005** | **2006** | **2007** | **2008** |
|---|---|---|---|---|
| Övladlığa götürülənlərin sayı cəmi, nəfər | 803 | 929 | 972 | 844 |
| 1- yaşa qədər | 134 | 156 | 197 | 219 |
| onlardan qızlar | 65 | 77 | 104 | 120 |
| 1-5 yaşda | 324 | 384 | 413 | 299 |
| onlardan qızlar | 138 | 180 | 148 | 144 |
| 6-10 yaşda | 198 | 189 | 211 | 173 |
| onlardan qızlar | 97 | 78 | 81 | 73 |
| 11-17 yaşda | 147 | 200 | 151 | 153 |
| onlardan qızlar | 65 | 74 | 64 | 63 |

**Validеynlərindən ayrılmış uşaqlar üçün müəssisələrin siyahısı**

(regionlar əsasında)

| Region | Rayon | Say | Müəssisənin adı |
|---|---|---|---|
| Naxçıvan | Ordubad | 1 | Ordubad rayon ümumtəhsil internat məktəbi |
| | | 2 | Bakı şəh. S.Rüstəm adına xarici dillər təmayülü internat məktəbi |
| | | 3 | 2 saylı Yetim və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün internat məktəbi |

| | | | |
|---|---|---|---|
| Bakı | Əzizbəyov | 4 | Yetim və valideyn himayəsi olmayan uşaqlar üçün Respublika Yardımçı internat məktəbi |
| | | 5 | Bakı şəh. 16 saylı Beyin iflici və poliomielit keçirmiş uşaqlar üçün xüsusi internat məktəbi |
| | | 6 | Bakı şəh. Zəif eşidən və sonradan karlaşmış uşaqlar üçün xüsusi ümumtəhsil internat məktəbi |
| | | 7 | Bakı şəh. E. Mirzəyev adına nitqi qüsurlu uşaqlar üçün Respublika xüsusi internat məktəbi |
| | | 8 | Vərəmin müxtəlif ilkin və sönməkdə olan xəstə uşaqlar üçün nəzərdə tutulmuş sanatoriya tipli internat məktəbi |
| | | 9 | Oğlanlar üçün açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsi |
| | | 10 | Ağıldankəm uşaqlar üçün 3 saylı internat evi |
| | Xətai | 11 | 3 saylı uşaq evi |
| | Qaradağ | 12 | Bakı şəh. E. Quliyev adına 14 saylı Nitqi qüsurlu uşaqlar üçün internat məktəbi |
| | Nərimanov | 13 | Bakı şəh. Psixo-Nevroloji uşaq evi |
| | | 14 | Bakı şəh. Gözdən əlil uşaqlar üçün respublika internat orta məktəbi |
| | Nəsimi | 15 | Bakı şəh. 1 saylı körpə uşaq evi |
| | Nizami | 16 | Bakı şəh. 1 saylı uşaq evi |
| | | 17 | Bakı şəh. Kar uşaqlar üçün 1 saylı internat məktəbi |
| | | 18 | Bakı şəh. Kar uşaqlar üçün 3 saylı Respublika xüsusi internat məktəbi |
| | Sabunçu | 19 | 1 saylı Yetim və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün xüsusi internat məktəbi |
| | | 20 | Bakı şəh. 11 saylı xüsusi internat məktəbi |
| | | 21 | Bakı şəh. 10 saylı Yel xəstəlikli uşaqlar üçün sanatoriya tipli internat məktəbi |
| | Suraxanı | 22 | Bakı şəh. 2 saylı uşaq evi |
| | | 23 | Suraxanı 7 saylı Əqli cəhətdən qüsurlu uşaqlar üçün xüsusi internat məktəbi |
| Abşeron | Abşeron | 24 | Ağıldankəm uşaqlar üçün 7 saylı internat evi |
| Gəncə | Gəncə | 25 | Gəncə şəh. Uşaq evi |
| | | 26 | Gəncə şəh. P.Hüseynov adına 1 saylı internat məktəbi |
| | | 27 | Gəncə şəh. 4 saylı Sanatoriya tipli internat əsas məktəbi |
| | | 28 | Gəncə şəh. Körpələr evi |

| | | | |
|---|---|---|---|
| Mingəçevir | Mingəçevir | 29 | Migəçevir şəh. İnternat orta məktəbi |
| Neftçala | Neftçala | 30 | Neftçala şəh. M. Səfərov adına əsas ümumtəhsil internat məktəbi |
| Sumqayıt | Sumqayıt | 31 | Sumqayıt şəh. Fransız-ingilis təmayüllü internat məktəbi |
| | | 32 | Sumqayıt şəh. General M. Əsədov adına orta ümumtəhsil internat məktəbi |
| | | 33 | Sumqayıt şəh. Əqli və fiziki cəhətdən qüsurlu uşaqlar üçün xüsusi internat məktəbi |
| Ağsu | Ağsu | 34 | Ağsu şəh. P. Mirzəyev adına İnternat orta məktəbi |
| Balakən | Balakən | 35 | Balakən şəh. İnternat əsas məktəbi |
| Biləsuvar | Biləsuvar | 36 | Biləsuvar şəh. K. Ağayev adına İnternat orta məktəbi |
| Goranboy | Goranboy | 37 | Goranboy şəh. R. Ağakişiyev adına İnternat əsas məktəbi |
| Göyçay | Göyçay | 38 | Göyçay şəh. S. Vurğun adına İnternat orta məktəbi |
| Lənkəran | Lənkəran | 39 | Lənkəran şəh. O. Mirzəyev adına qarışıq tipli uşaq evi |
| | | 40 | Lənkəran şəh. Xarici dillər təmayüllü internat məktəbi |
| | | 41 | Lənkəran şəh. Əqli və ya fiziki inkişafında qüsurlar olan uşaq və yeniyetmələr üçün təşkil edilmiş xüsusi internat məktəbi |
| Lerik | Lerik | 42 | Lerik rayon V. İbrahimov adına İnternat orta məktəbi |
| Tovuz | Tovuz | 43 | Qovlar qəs. Ümumtəhsil internat məktəbi |
| Quba | Quba | 44 | Quba şəh. Xüsusi İnternat orta ümumtəhsil məktəbi |
| | | 45 | Quba xüsusi peşə məktəbi |
| Qusar | Qusar | 46 | Qusar şəh. İnternat orta məktəbi |
| Salyan | Salyan | 47 | Salyan şəh. A. Səfərov adına internat əsas məktəbi |
| Şəki | Şəki | 48 | Şəki şəh. Qarışıq tipli uşaq evi |
| | | 49 | Şəki şəh. Qarışıq tipli internat məktəbi |
| Siyəzən | Siyəzən | 50 | Siyəzən şəh. İnternat əsas məktəbi |
| Zaqatala | Zaqatala | 51 | Zaqatala şəh. İnteranat məktəbi |

| | | | |
|---|---|---|---|
| Bərdə | Bərdə | 52 | Bərdə şəh. R. Musayev adına İnternat orta məktəbi |
| Füzuli | Füzuli | 53 | Füzuli şəh. M. Xəzani adına İnternat orta məktəbi |
| Qazax | Qazax | 54 | Qazax şəh. M.Hüseyn adına İnternat orta məktəbi |
| Yevlax | Yevlax | 55 | Yevlax şəh. T.Əzimov adına İnternat orta məktəbi |

## D. Maddə 10. Ailənin yenidən birləşməsi

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 49.2-ci maddəsinə əsasən hər bir uşaq ailədə yaşamaq və tərbiyə almaq, öz valideynlərini tanımaq və onların qayğısından istifadə etmək, uşağın maraqlarına zidd olan hallar istisna olmaqla, onlarla birgə yaşamaq hüququna malikdir.
Həmin Məcəllənin 60.4-cü maddəsinə əsasən valideynlər ayrı yaşadıqda uşaqların yaşayış yeri onların razılığı ilə həll edilir. Valideynlər arasında razılıq olmadıqda, məhkəmə mübahisəni uşaqların hüquq və mənafelərini, onların rəyini və sair halları (uşaqların qardaş və bacılarına, valideynlərdən hər birinə olan bağlılığı, valideynlərin əxlaqi və digər şəxsi keyfiyyətləri, uşağın yaşı, onun inkişafı və tərbiyəsi üçün şərait yaradılması) nəzərə almaqla həll edir.

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin aidiyyəti xidmət sahəsi birgə əməkdaşlıq və informasiya mübadiləsi sayəsində 2003-2007 illərdə və cari ilin ötən dövründə Rusiya Federasiyasının müxtəlif vilayətlərindən, Ukrayna, Özbəkistan, Gürcüstan, Qırğızıstan, Qazaxıstan, Türkmənistan və Türkiyə dövlətlərindən daxil olmuş, müxtəlif səbəblərə görə həmin ölkələrin hüquq mühafizə, sosial xidmət orqanlarının fəaliyyət dairəsinə baxımsız və sosial təhlükəli vəziyyətə düşmüş respublikanın 176 azyaşlı sakini barəsində müraciətləri araşdırmış, onların şəxsiyyətləri, ünvanları, mənşəyi dəqiqləşdirilmişdir. Sorğu edilənlərin 155 nəfəri həmin Nazirlik tərəfindən təqdim edilən müəyyənləşdirmə və məlumatlara əsasən Rusiya Federasiyası, Ukrayna və Gürcüstanda yaşayan valideynlərinə, yaxın qohumlarına təhvil verilmiş, 21 nəfəri isə MDB iştirakçısı olan dövlətlərin əməkdaşlığı haqqında Kişinyov Sazişinə əsasən (07.10.2002-ci il) respublikaya gətirilmiş, 12 nəfəri valideynlərinə və qanuni nümayəndələrinə verilmiş, digərləri müvafiq uşaq müəssisələrində yerləşdirilməklə zəruri qayğı və ya yardımla əhatə olunmuşlar.

## E. Maddə 27. Uşağa qayğı üzrə xərclərin əvəzinin ödənilməsi (4-cü bənd)

Uşağa qayğı üzrə xərclərin əvəzinin ödənilməsi sahəsində “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 24 fevral tarixli 373 nömrəli Fərmanı mühüm əhəmiyyətə malikdir.
Qanunvericiliyə aşağıda göstərilən kateqoriya vətəndaşların 16 yaşınadək (ümumtəhsil müəssisələrində əyani təhsil alanlar üçün 18 yaşadək) uşaqlarına göstərilən məbləğlərdə aylıq sosial müavinət ödənilir:

- şəhid uşaqlarına - 10 manat;
- müharibə əlillərinin, 20 Yanvar hadisələri zamanı əlil olanların, Çernobıl qəzası nəticəsində I və II qrup əlil olmuş, yaxud vəfat etmiş valideynlərin uşaqlarına, habelə Çernobıl qəzasının nəticələrinin aradan qaldırılmasının iştirakçılarının dispanser qeydiyyatında olan uşaqlarına – 5 manat.

“Sosial müavinətlər haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən vəfat etmiş şəxsin uşaqlarına - 18 yaşına çatanadək (əyani təhsil alanlara təhsili bitirənədək, lakin 23 yaşdan çox olmamaqla), vəfat etmiş şəxsin 18 yaşına çatanadək sağlamlıq imkanlarının məhdudluğu müəyyən olunmuş 18 yaşından yuxarı əlil uşaqlarına - əlillik müddətinə və vəfat etmiş şəxsin 8 yaşınadək uşaqlarına baxan və işləməyən (yaşından və əmək qabiliyyətindən asılı olmayaraq) valideynlərdən, qardaş, bacı, baba və nənələrdən birinə - uşağın 8 yaşınadək qanunvericiliyə uyğun olaraq ailə başçısını itirməyə görə müavinət təyin olunur və 40 manat məbləğində ödənilir. Həmin Qanunda və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında beynəlxalq normalara uyğun olaraq “16 yaşınadək əlil uşaqlar” sözləri “sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar” sözləri ilə əvəz edilmişdir. Bu kateqoriyadan olan şəxslərə 50 manat məbləğində aylıq sosial müavinət ödənilir.
2008-ci il 1 sentyabr tarixindən etibarən “Uşağa qulluğa görə qismən ödənişli sosial məzuniyyətdə olanlara verilən müavinətin artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 avqust tarixli 3015 nömrəli Sərəncamı ilə bir yaş yarımadək uşağa qulluğa görə qismən ödənişli sosial məzuniyyətdə olanlara verilən aylıq müavinətin məbləği 20 manat, bir yaş yarımdan üç

yaşınadək uşağa qulluğa görə isə həmin müavinətin məbləği 10 manat miqdarında müəyyən edilmişdir.
Cəmiyyətin əsas özəyi kimi ailə Azərbaycan dövlətinin xüsusi himayəsindədir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir, çoxuşaqlı ailələrə yardım göstərilir. Həmin istiqamətdə aparılan tədbirlərdən biri kimi "Sosial müavinətlərin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 avqust tarixli 820 nömrəli Fərmanı ilə sosial müavinətlərin digər növləri aşağıdakı məbləğlərdə müəyyən edilmişdir:

- müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqlarına aylıq müavinət - 40 manat;
- valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) aylıq müavinət - 25 manat;
- bir yaşınadək uşağı olan aztəminatlı ailələrə aylıq müavinət - 20 manat.
- uşağın anadan olmasına görə birdəfəlik müavinət - 50 manat.

10,7 min ailənin 1 yaşınadək olan 10,8 min uşaqlarına aylıq, 23,6 min ailəyə 24 min uşağın doğulmasına görə birdəfəlik sosial müavinətlər verilmişdir. Bundan əlavə, 173,3 min ailənin 381,7 min uşağı ünvanlı dövlət sosial yardımı almışdır.

Aztəminatlı ailələrə dövlət qayğısının gücləndirilməsi istiqamətində mütəmadi olaraq tədbirlər həyata keçirilir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamları ilə aylıq və birdəfəlik sosial müavinətlərin məbləği artırılmış, minimum aylıq əmək haqqı və əmək pensiyalarının baza hissəsi il ərzində artırılaraq 75 manata çatdırılmışdır. Bundan əlavə, büdcə təşkilatlarında əmək haqları orta hesabla 50 faiz artırılmış, 2008-ci il üçün ehtiyac meyarının həddi 55 manat, 2009-cu il yanvarın 1-dən isə 60 manat məbləğində təsdiq edilmişdir. Hazırda ölkədə orta aylıq əmək haqqı 268 manat təşkil edir ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 24,2 faiz çoxdur.
"Yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 5 oktyabr tarixli 768-IIQ nömrəli Qanununun 3.2-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti 2009-cu il 30 aprel tarixli 74 nömrəli qərarı ilə Azərbaycan Respublikasında minimum istehlak səbətinin yeni tərkibini müəyyən etmişdir. Minimum topluya daxil olan ərzaq məhsullarının tərkibi əhalinin əsas sosial-demoqrafik qrupları üzrə nəzərdən keçirilməklə ərzaq toplusunun enerji dəyəri ölkə üzrə adambaşına 2258 kkal-dən 2420 kkal-yə çatdırılmışdır ki, bu da MDB məkanında ən yüksək göstəricilərdən biridir. Enerjinin dəyəri əmək qabiliyyətli əhali üçün 2559, pensiyaçılar üçün 2005, uşaqlar üçün isə 2182 kkal təşkil etmişdir.
"Azərbaycan Respublikasında 2009-cu il üçün yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının Qanununa görə 2009-cu il üçün yaşayış minimumu ölkə üzrə 84 manat, o cümlədən əməkqabiliyyətli əhali üçün 92 manat, pensiyaçılar üçün 65 manat, uşaqlar üçün 69 manat məbləğində müəyyən edilmişdir. Bu göstəricilər əvvəlki illə müqayisədə 20% çoxdur.
Azərbaycanda yoxsulluğun azaldılması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində yoxsulluğun səviyyəsi 2003-cü ildəki 44.7%-dən 13.2%-ə enmişdir.

## F. Maddə 20. Ailədən məhrum olmuş uşağın müdafiə edilməsi

Aidiyyəti dövlət qurumları tərəfindən müvafiq müəssisələri tərk edən uşaqların müxtəlif peşələr üzrə kurslara cəlb edərək işlə təmin olunmalarına köməklik göstərilir.

2009-cu il 18 mart tarixində Azərbaycan Respublikasının Konstitusiyasına ümumxalq səsverməsi (referendum) yolu ilə edilmiş əlavələr və dəyişikliklər nəticəsində 17-ci maddənin adı "Ailə, uşaqlar və dövlət" redaksiyasında verilmiş və mətninə aşağıdakı məzmunda III-VI hissələr əlavə edilmişdir:

"III. Valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlətin himayəsindədirlər.

IV. Uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır.

V. 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər.

VI. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir.”.

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 mart tarixli 1386 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı (2006-2015-ci illər)”nın həyata keçirilməsi məqsədilə uşaqların internat müəssisələrinə qəbuluna ciddi nəzarət edilir. Belə ki, bu hallar çox dəqiqliklə araşdırılır və yalnız çox kəskin və çıxılmaz vəziyyətlərdə uşağın müəssisədə yerləşməsinə icazə verilir. Ölkədə alternativ qayğı sisteminin yaradılmasına baxmayaraq bu sistem hələ ki, ölkənin bütün rayon və şəhərlərini əhatə edə bilmir. Bütün bunları nəzərə alaraq internat müəssisələrində yaşayan və tərbiyə alan uşaqların normal şəraitli müəssisələrdə yaşamasını təmin etmək məqsədilə, Heydər Əliyev Fondunun dəstəyi ilə işçi qrupu yaradılmış və bu işçi qrup respublikada fəaliyyət göstərən uşaq evləri və internat məktəblərində mövcud problemlərin araşdırılması məqsədilə monitorinq aparmışdır. Bu müəssisələrdə uşaqların sayı, aylıq və illik qida, geyim, texniki vəsait normativləri, ümumi şərait (təhsil, səhiyyə, yaşayış, istirahət) kimi göstəricilər müəyyən edilmişdir. Daha sonra 31 uşaq müəssisəsində əsaslı təmir işləri aparılmış, həmin müəssisələr yeni avadanlıqla təchiz olunmuş, kommunal şərait yaxşılaşdırılmışdır. Belə müəssisələrdə kitabxanalar yaradılmış, müvafiq uşaqların cəmiyyətə inteqrasiyası həyata keçirilmiş, onların asudə vaxtları və istirahətləri üçün şərait yaradılmış və onların maksimum səviyyədə bioloji ailələrinə qaytarılmasına dəstək göstərilmişdir. Belə müəssisələrdə yaşayan uşaqların sənət öyrənmələri üçün kompüter kursları və müxtəlif dərnəklər təşkil olunmuş, bundan əlavə uşaqlar inteqrasiya olunaraq icmadakı ümumi məktəblərə göndərilmişdir.

2009-cu ilin yanvarında Heydər Əliyev Fondunun təşəbbüsü ilə uşaq evlərində tərbiyə alan kimsəsiz, 18 yaşına çatmış qızlar üçün Bakıda 50 mənzillik yaşayış binası inşa edilmiş, onların işlə təmin olunmasına şərait yaradılmış, mənzillər hər bir məişət avadanlığı ilə təmin olunmuşdur. Beynəlxalq müsabiqələrdə bu tip uşaqların da iştirakının təmin edilməsinə Heydər Əliyev Fondu böyük dəstək göstərir.

Bundan əlavə Heydər Əliyev Fondunun Prezidenti, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Mehriban xanım Əliyeva Milli Məclisdə internat müəssisələrini bitirən kimsəsiz uşaqların iş və mənzillə təminatı məsələsini qaldırmış və bu məsələnin həlli istiqamətdə işlər aparılmaqdadır.

Azərbaycan Respublikası Prezidentinin 2 aprel 2009-cu il tarixli Sərəncamına müvafiq olaraq “Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Referendum Aktının qüvvəyə minməsi ilə əlaqədar müvafiq normativ hüquqi aktların layihələrinin hazırlanması barədə göstəriş verilmişdir

### G. <u>Maddə 21. Uşağın övladlığa götürülməsi</u>

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 117-ci maddəsinə görə övladlığa götürməyə yetkinlik yaşına çatmayanlar barəsində və yalnız onların mənafeyi naminə uşağın doğumu Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələrində qeydə alındıqdan sonra yol verilir. Bir uşaq iki şəxs tərəfindən (ər-arvaddan başqa) övladlığa götürülə bilməz.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 118-ci maddəsinə müvafiq olaraq övladlığa götürmə uşağı övladlığa götürmək istəyən şəxsin (şəxslərin) verdiyi ərizə əsasında məhkəmə tərəfindən həyata keçirilir. Məhkəmədə övladlığa götürmə barədə işə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (Azərbaycan Respublikasının vətəndaşı olan uşağın əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürüldüyü hallarda) və yerli icra

hakimiyyətlərinin qəyyumluq və himayə orqanlarının (Azərbaycan Respublikasının vətəndaşı olan uşağın Azərbaycan Respublikasının vətəndaşları tərəfindən övladlığa götürüldüyü hallarda) iştirakı ilə mülki prosessual qanunvericilikdə nəzərdə tutulmuş xüsusi icraat qaydasında baxılır.

Övladlığa götürənlərin və övladlığa götürülən uşaqların hüquq və vəzifələri məhkəmənin uşağın övladlığa götürülməsinin müəyyən olunması barədə qətnaməsinin qüvvəyə mindiyi gündən yaranır.

Məhkəmə uşağın övladlığa götürülməsi barədə qətnamənin qüvvəyə mindiyi gündən 3 gün müddətində bu qətnamədən çıxarışı Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələrinə göndərməyə borcludur.

Uşağın övladlığa götürülməsi vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı üçün müəyyən olunmuş qaydada qeydiyyata alınır.

Hər hansı şərtlər altında, hər hansı müddətə və ya nümayəndələr vasitəsilə övladlığa götürmək yolverilməzdir.

"Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında" Konvensiyanın 8-ci maddəsinə əsasən Mərkəzi orqanlar övladlığa götürmə ilə əlaqədar qeyri-qanuni maliyyə və ya digər mənfəətin əldə olunmasının qarşısını almaq və bu Konvensiyanın məqsədlərinə zidd olan bütün düzgün olmayan təcrübəni aradan qaldırmaq üçün birbaşa və ya dövlət orqanları vasitəsilə lazımi müvafiq tədbirləri görməlidirlər.

Azərbaycan Respublikasında uşağın öz valideynlərinin kim olmasını bilmək və onlardan qayğı görmək hüququna təminat Azərbaycan Respublikasının Ailə Məcəlləsi və digər qanunları ilə tənzimlənir.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 49-cu maddəsinə (Uşağın ailədə yaşamaq və tərbiyə olunmaq hüququ) əsasən:

- 18 yaşına (yetkinlik yaşına) çatmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən şəxslər uşaq hesab olunurlar.
- Hər bir uşaq ailədə yaşamaq və tərbiyə almaq, öz valideynlərini tanımaq və onların qayğısından istifadə etmək, uşağın maraqlarına zidd olan hallar istisna olmaqla, onlarla birgə yaşamaq hüququna malikdir.
- Uşaq öz valideynləri tərəfindən tərbiyə olunmaq, öz maraqlarının təmin olunması, hərtərəfli inkişafı, onun ləyaqətinə hörmət olunması hüququna malikdir.
- Valideynlər olmadıqda, onlar valideynlik hüquqlarından məhrum olunduqda və ya uşaq valideyn himayəsini itirdiyi digər hallarda, uşağın ailədə tərbiyəsi bu Məcəllənin 18-ci fəslində müəyyən olunmuş qaydada yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları tərəfindən təmin edilir.

Azərbaycan Respublikasının Ailə Məcəllənin 50-ci maddəsinə (Uşağın öz valideynləri və başqa qohumları ilə ünsiyyətdə olmaq hüququ) əsasən:

- Uşaq valideynləri, babaları, nənələri, qardaşları, bacıları və başqa qohumları ilə ünsiyyətdə olmaq hüququna malikdir.
- Valideynlərinin nikahının pozulması və ya etibarsız sayılması, valideynlərinin ayrı yaşaması uşağın hüquqlarına təsir etmir.
- Valideynlər ayrı yaşadıqda uşaq onların hər biri ilə ünsiyyət hüququna malikdir.
- Valideynlər müxtəlif dövlətlərdə yaşadıqda da uşaq öz valideynləri ilə ünsiyyətdə olmaq hüququna malikdir.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 62-ci maddəsinə (Baba, nənə, qardaş, bacı və digər qohumların uşaqla ünsiyyət hüququ) əsasən:

- Baba, nənə, qardaş, bacı və digər qohumlar uşaqla ünsiyyət hüququna malikdir.

- Valideynlər (onlardan biri) uşağın yaxın qohumları ilə ünsiyyətinə etiraz etdikdə müvafiq icra hakimiyyəti orqanı valideynlərin (onlardan birinin) bu ünsiyyətə mane olmamağını tələb edə bilər.
- Valideynlər (onlardan biri) yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanlarının qərarına tabe olmadıqda, uşağın yaxın qohumları və ya yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları uşaqla ünsiyyətdə olan maneəni aradan qaldırmaq üçün iddia ilə məhkəməyə müraciət edə bilər. Məhkəmə uşağın rəyini və marağını nəzərə almaqla mübahisəni həll edir.
- Məhkəmənin qərarına əməl etməyən valideyn Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyinə uyğun məsuliyyət daşıyır.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 126-cı maddəsinə (Övladlığa götürənlərin xahişi ilə övladlığa götürülənin doğulduğu yerin və tarixin dəyişdirilməsi) əsasən:

- Övladlığa götürülmüş uşağın doğum tarixi uşaq 1 yaşına çatana qədər dəyişdirilə bilər.
- Övladlığa götürülmüş uşağın doğulduğu yerin və tarixin dəyişdirilməsi məhkəmə qətnaməsində göstərilir.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 127-ci maddəsinə (Övladlığa götürənlərin övladlığa götürülənin valideynləri kimi yazılması) əsasən:

- Bu Məcəllənin 124.6-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, övladlığa götürülən 10 yaşına çatmış uşaq barəsində bu cür qeydin yazılması üçün onun razılığı lazımdır.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 130-cu maddəsinə (Övladlığa götürmənin gizli saxlanması) əsasən:

- Övladlığa götürmənin sirri qanunla mühafizə olunur.
- Övladlığa götürənlərin razılığı olmadan, onlar öldükdə isə qəyyumluq və himayə orqanının razılığı olmadan övladlığa götürmə haqqında hər hansı məlumat vermək, habelə vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyat kitablarından övladlığa götürənlərin övladlığa götürülənin doğma valideynləri olmadığını göstərən çıxarışlar vermək qadağan edilir.
- Övladlığa götürənin iradəsi ziddinə övladlığa götürmə sirrini yaymış şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb olunurlar.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 134-cü maddəsinə (Övladlığa götürmənin və övladlığa götürmənin ləğv olunmasının hüquqi nəticələri) əsasən:

- Övladlığa götürülənlər və onların övladları övladlığa götürənlərə və onların qohumlarına münasibətdə, eləcə də övladlığa götürənlər və onların qohumları övladlığa götürülənlərə (onların övladlarına) münasibətdə öz şəxsi qeyri-əmlak və əmlak hüquq və vəzifələrinə görə mənşəcə qohumlara bərabər tutulurlar.
- Övladlığa götürülən uşaqlar öz valideynlərinə (qohumlarına) münasibətdə şəxsi qeyri-əmlak və əmlak hüquq və vəzifələrini itirirlər.
- Uşaq övladlığa bir nəfər tərəfindən götürüldükdə, əgər o, kişidirsə, - ananın arzusu ilə, əgər qadındırsa, atanın arzusu ilə, şəxsi qeyri-əmlak və əmlak hüquq və vəzifələri saxlanıla bilər.
- Uşağın valideynlərindən biri öldükdə, əgər bunu onun mənafeyi tələb edirsə, ölmüş valideynin atasının və ya anasının (uşağının babasının və ya nənəsinin) xahişi ilə ölənin qohumlarına münasibətdə şəxsi qeyri-əmlak və əmlak hüquq və vəzifələri saxlanıla bilər. Ölən valideynin qohumlarının övladlığa götürülən uşaqla ünsiyyətdə olmaq hüquqi bu Məcəllənin 62-ci maddəsinə uyğun həyata keçirilir.
- Uşağın övladlığa götürülməsi haqqında məhkəmənin qətnaməsində övladlığa götürlənin valideynlərindən biri və ya ölmüş valideynin qohumları ilə münasibətlərin saxlanması barədə qeyd olunur.

- Bu Məcəllənin 128.1 və 128.2-ci maddələri ilə nəzərdə tutulmuş hüquqi nəticələr övladlığa götürən şəxslərin uşağın doğum haqqında akt qeydində onun valideynləri qismində yazılmasından asılı olmadan yaranır.
- Məhkəmə övladlığa götürülməni ləğv etdikdə, övladlığa götürülmüş uşağın və övladlığa götürənlərin (onların qohumlarının) qarşılıqlı hüquq və vəzifələrinə xitam verilir. Uşağın mənafeyi bunu tələb edərsə, onunla valideynləri (onun qohumları) arasında qarşılıqlı hüquq və vəzifələr bərpa olunur.
- Övladlığa götürmə ləğv olunduqda, uşaq məhkəmənin qətnaməsi ilə valideynlərə qaytarılır. Bu halda uşağın valideynləri olmadıqda, yaxud uşağın valideynlərinə qaytarılması onun mənafeyinə ziddirsə, uşaq müvafiq icra hakimiyyəti orqanın himayəsinə verilir.
- Məhkəmə uşağa övladlığa götürülərkən verilən ad və soyadın saxlanılıb-saxlanılmamasını da həll edir.
- 10 yaşı tamam olmuş uşağın adı və soyadı öz razılığı ilə dəyişdirilə bilər.

Məhkəmə uşağın mənafeyinə uyğun olaraq, bu Məcəllənin 76-78-ci maddələrində qeyd edilən vəsaitin keçmiş övladlığa götürəndən tutulub uşağa verilməsi haqqında qətnamə qəbul edə bilər.

Azərbaycan Respublikasının vətəndaşı olan uşağın əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi ləğv edildikdə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə ayrı qayda nəzərdə tutulmamışdırsa, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Azərbaycan Respublikasının vətəndaşı olan uşağın Azərbaycan Respublikasının ərazisinə qaytarılması üçün tədbirlərin görülməsi və ya övladlığa götürənin vətəndaşı olduğu (daimi yaşadığı) dövlətin qanunvericiliyinə uyğun yerləşdirilməsi məqsədilə övladlığa götürənin vətəndaşı olduğu (daimi yaşadığı) dövlətin səlahiyyətli orqanına məlumat verir. Azərbaycan Respublikasının ərazisinə qaytarılan uşaq bu Məcəllənin 114-116-cı maddələrinə uyğun olaraq yenidən uçota alınır və müəyyən olunmuş qaydada yerləşdirilir.

"Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında" Konvensiyanın 11-ci maddəsinə əsasən akkreditə edən dövlətin səlahiyyətli orqanın müəyyən etdiyi məhdudiyyət çərçivəsində və bu cür vəziyyətə uyğun olaraq, yalnız qeyri-mənfəət (kommersiya) məqsədini güdməlidir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 174-cü maddəsinə (Qanunsuz olaraq övladlığa götürmə) əsasən uşaqların övladlığa götürülməsi, qəyyumluğa (himayəyə) və ya himayədar ailəyə tərbiyə olunmaq üçün verilməsi ilə bağlı qanunsuz hərəkətlər tamah məqsədi ilə törədildikdə yüz manatdan üç yüz manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 22 iyul tarixli 166 nömrəli qərarı ilə təsdiq edilmiş "Ölkələrarası övladlığa götürmə ilə bağlı əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə hüquqi yardım göstərən orqanların akkreditasiya Qaydası"nın 5.1-ci bəndinə görə akkreditə edilməsi üçün müraciət etmiş orqan qeyri-kommersiya hüquqi şəxs olmalı və onun fəaliyyəti qeyri-kommersiya xarakteri daşımalıdır.

Övladlığa götürmə hallarında idarələr arasında əlaqələndirmə bir neçə dövlət qurumları arasında aparılır.

Övladlığa götürmə sahəsində Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (Azərbaycan Respublikasının vətəndaşı olan uşağın əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürüldüyü hallarda) və yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları və yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar (Azərbaycan Respublikasının vətəndaşı olan uşağın

Azərbaycan Respublikasının vətəndaşları tərəfindən övladlığa götürüldüyü hallarda) əməkdaşlıq həyata keçirirlər.

Övladlığa götürmə hallarında dövlət orqanları arasında münasibətlər Azərbaycan Respublikasının Ailə və Mülki Prosessual məcəllələri ilə tənzimlənir. Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 19-cu fəslində (Övladlığa götürmə) dövlət qurumları arasında övladlığa götürmə proseduru öz əksini tapmışdır.

Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsinə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin razılığı əsasında yol verilir.

Övladlığa götürmə uşağı övladlığa götürmək istəyən şəxsin (şəxslərin) verdiyi ərizə əsasında məhkəmə tərəfindən həyata keçirilir. Məhkəmədə övladlığa götürmə barədə işə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (Azərbaycan Respublikasının vətəndaşı olan uşağın əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürüldüyü hallarda) və yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanlarının (Azərbaycan Respublikasının vətəndaşı olan uşağın Azərbaycan Respublikasının vətəndaşları tərəfindən övladlığa götürüldüyü hallarda) iştirakı ilə mülki prosessual qanunvericilikdə nəzərdə tutulmuş xüsusi icraat qaydasında baxılır.

Məhkəmə uşağın övladlığa götürülməsi barədə qətnamənin qüvvəyə mindiyi gündən 3 gün müddətində bu qətnamədən çıxarışı Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə (Azərbaycan Respublikasının vətəndaşı olan uşağın əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürüldüyü hallarda) göndərməyə borcludur.

Azərbaycan Respublikası vətəndaşı olan uşaqlar əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürüldükdə, övladlığa götürənlərə hüquqi yardım akkreditə edilmiş orqan tərəfindən həyata keçirilir.

Akkreditə edilmiş orqan Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (Azərbaycan Respublikasının vətəndaşı olan uşağın əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürüldüyü hallarda) tərəfindən müəyyən edilir.

Yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları Azərbaycan Respublikasının vətəndaşı olan uşaq Azərbaycan Respublikasının vətəndaşları tərəfindən övladlığa götürüldüyü zaman məhkəməyə, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürüldüyü zaman vətəndaşlığından və yaşayış yerindən asılı olmayaraq uşağın öz qohumları tərəfindən övladlığa götürülməsinin qeyri-mümkünlüyünü təsdiq edən sənədlər əlavə edilməklə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə övladlığa götürmənin uşağın mənafeyinə uyğun olması barədə rəy təqdim edir.

Tərbiyə, müalicə, ailənin sosial müdafiəsi müəssisələrində və digər analoji müəssisələrdə yerləşən uşaqların övladlığa götürülməsinə həmin müəssisələrin rəhbərləri yazılı razılıq verməlidirlər.

2003-cü ildən etibarən 2008-ci ilin birinci yarısının sonunadək ölkə daxilində 4044 uşaq övladlığa götürülmüşdür.

Eyni zamanda, Azərbaycan Respublikasının Ailə Məcəlləsinə əsasən ölkələrarası övladlığa götürmə məsələləri üzrə digər zəruri tədbirləri həyata keçirmək, habelə valideyn himayəsindən məhrum olan uşaqların, övladlığa götürülən uşaqların ümumi uçotunu, habelə Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların övladlığa götürülməsini arzu edən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin uçotunu aparmaq Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin səlahiyyətlərinə aid edilmişdir.

Nazirlər Kabineti yanında Övladlığa Götürmə Məsələləri Komissiyası tərəfindən verilmiş məlumata əsasən, Komissiya 2000-2007-ci illər ərzində 186 əcnəbi ailəsinə 213 uşağın övladlığa verilməsinə razılıq vermişdir. Həmin uşaqlardan 178 nəfər ABŞ, 19 nəfər İsrail, 3 nəfər İtaliya, 3 nəfər Avstraliya, 2 nəfər Türkiyə, 2 nəfər Böyük Britaniya, 1 nəfər Fransa, 1 nəfər Norveç, 1 nəfər Kanada, 1 nəfər Almaniya, 1 nəfər İspaniya, 1 nəfər Qırğızıstan ailələrinə övladlığa verilmişdir.

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi "Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında" Konvensiya üzrə Mərkəzi orqan təyin edildikdən sonra cəmi 8 əcnəbi ailəsinə Azərbaycan Respublikasının vətəndaşı olan uşağın övladlığa götürülməsinə razılıq verilmişdir. Onlardan 7 ailə ABŞ vətəndaşları, 1 ailə isə Belçika vətəndaşıdır.

Hal-hazırda Dövlət Komitəsində övladlığa uşaq götürmək istəyən 17 ailə qeydiyyata alınmışdır ki, həmin ailələr uşaq gözləmə mərhələsindədirlər. Övladlığa götürən ailələrdən içərisində ABŞ ailələrinin üstünlük təşkil etməsinə baxmayaraq, Fransa, İsveçrə, İtaliya vətəndaşları da bu siyahıda özlərinə yer tutur.

### Ölkələrarası övladlığa götürmə sahəsində əməkdaşlıq

Artıq qeyd olunduğu kimi, Azərbaycan Respublikası 2004-cü il 30 mart tarixli 611-IIQ nömrəli Qanunla 1993-cü il 29 may tarixli "Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında" Konvensiyaya müvafiq bəyanatlarla qoşulmuşdur.

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2008-ci il 18 mart tarixli 1-324/08 saylı məktubu ilə Beynəlxalq Xüsusi Hüquq üzrə Haaqa Konfransının Azərbaycan dilinə tərcümə edilmiş Nizamnaməsi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə ölkəmizin bu təşkilata üzv olması istiqamətində tədbirlərin davam etdirilməsi məqsədilə təqdim edilmişdir.

2008-ci il 20-23 oktyabr tarixlərində Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova UNİCEF-in Azərbaycandakı nümayəndəliyinin dəvəti ilə Niderland Krallığına səfər etmişdir. Səfərin məqsədi uşaq hüquqlarının qorunması və ölkələrarası övladlığa götürmə sahələri ilə məşğul olan Beynəlxalq Xüsusi Hüquq üzrə Haaqa Konfransının Daimi Bürosu və Niderland Krallığının Ədliyyə Nazirliyi ilə əməkdaşlığın gələcək perspektivlərinin müzakirəsi və müvafiq sahələrə dair həmin təşkilatların təcrübəsi ilə tanışlıq olmuşdur.

### Övladlığa götürmə üzrə aşağıdakılarla məhdudlaşmayan normativ hüquqi aktlar:

- "Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında" Konvensiyaya qoşulmaq barəsində" Azərbaycan Respublikasının 2004-cü il 30 mart tarixli 611-IIQ nömrəli Qanunu;
- Azərbaycan Respublikasının Ailə Məcəlləsi;
- Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi;
- "Valideyn himayəsindən məhrum olan və övladlığa götürülən uşaqların uçot Qaydalarının, uşaqları övladlığa götürməyi arzu edən şəxslərin uçot Qaydasının və Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların övladlığa götürülməsini arzu edən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin uçot Qaydasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 20 sentyabr tarixli 172 nömrəli Qərarı;
- "Ölkələrarası övladlığa götürmə ilə bağlı əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə hüquqi yardım göstərən orqanların akkreditasiya Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 22 iyul tarixli 166 nömrəli Qərarı.

### Övladlığa götürmə prosedurları

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 39-cu fəslinə əsasən uşağın övladlığa götürülməsi barədə ərizə uşağı övladlığa götürmək istəyən şəxslər (şəxs) tərəfindən övladlığa götürülən uşağın yaşadığı (olduğu) yer üzrə məhkəməyə verilir. Azərbaycan Respublikasının vətəndaşı olan uşaq əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürüldüyü zaman ərizə uşağın yaşadığı (olduğu) yer üzrə məhkəməyə aşağı övladlığa götürmək istəyən şəxslər (şəxs) tərəfindən və ya onların müraciəti əsasında akkreditə edilmiş orqan tərəfindən verilir.
Uşağın övladlığa götürülməsi barədə ərizədə aşağıdakılar göstərilməlidir:

- övladlığa götürənlərin (götürənin) soyadı, adı, atasının adı, doğulduğu il, yaşayış yeri, məşğuliyyət növü;
- övladlığa götürülən uşağın soyadı, adı, atasının adı, onun yaşayış yeri (olduğu yer), valideynləri barədə məlumat, qardaş və bacılarının olub-olmaması;
- uşağın övladlığa götürülməsi haqqında övladlığa götürənlərin (götürənin) xahişini əsaslandıran hallar, bu halları təsdiq edən sübutlar;
- övladlığa götürülən uşağın soyadının, adının, atasının adının, onun doğulduğu tarixin (1 yaşınadək uşaqlar övladlığa götürüldükdə) dəyişdirilməsi, övladlığa götürənlərin (götürənin) valideynlər (valideyn) kimi uşağın doğulması haqqında akt qeydində yazılması barədə xahiş.

Övladlığa götürmə barədə ərizəyə aşağıdakılar əlavə olunmalıdır:

- uşaq nikahda olmayan şəxs tərəfindən övladlığa götürüldükdə-övladlığa götürənin doğum haqqında şəhadətnaməsinin surəti;
- uşaq nikahda olan şəxslər (şəxs) tərəfindən övladlığa götürüldükdə-övladlığa götürənlərin (götürənin) nikah haqqında şəhadətnaməsinin surəti;
- uşaq ər-arvaddan biri tərəfindən övladlığa götürüldükdə-digərinin razılığı və ya ər-arvadın ailə münasibətlərinə xitam verməklə 1 ildən artıq müddətdə birgə yaşamadıqlarını təsdiq edən sənəd. Müvafiq sənədi ərizəyə əlavə etmək mümkün olmadıqda ərizədə həmin faktları təsdiq edən sübutlar göstərilməlidir;
- övladlığa götürənlərin (götürənin) səhhətinin vəziyyəti barədə tibbi rəy;
- övladlığa götürənlərin (götürənin) tutduğu vəzifə və əmək haqqı barədə iş yerindən arayış və ya gəlirlər haqqında digər sənəd;
- yaşayış yerindən istifadə etmək hüququnu və ya yaşayış yerinə mülkiyyət hüququnu təsdiq edən sənəd.

Azərbaycan Respublikasının vətəndaşı olan uşağın əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi haqqında ərizəyə bu Məcəllənin 347.1.1-347.1.6-cı maddələrində göstərilən sənədlər, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin razılığı, habelə övladlığa götürənlərin vətəndaşları olduqları dövlətin (uşaq vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürüldükdə həmin şəxslərin daimi yaşayış yeri olan dövlətin) səlahiyyətli orqanının onların həyat şəraiti və övladlığa götürmək imkanları barədə rəyi, müvafiq dövlətin səlahiyyətli orqanının övladlığa götürülən uşağın onun ərazisinə gəlməsinə və orada yaşamasına icazəsi əlavə olunur.

Əcnəbi və vətəndaşlığı olmayan şəxs olan uşağın Azərbaycan Respublikasının vətəndaşları tərəfindən övladlığa götürülməsi haqqında ərizəyə bu Məcəllənin 347.1.1-347.1.6-cı maddələrində göstərilən sənədlər, habelə uşağın qanuni nümayəndəsinin və vətəndaşı olduğu (daimi yaşadığı) dövlətin səlahiyyətli orqanının razılığı və göstərilən dövlətin qanunvericiliyinə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqaviləyə əsasən tələb olunduqda, uşağın övladlığa götürülməyə razılığı əlavə olunur.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallar istisna olmaqla, övladlığa götürən əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərin sənədləri müəyyən edilmiş qaydada leqallaşdırılmalıdır. Leqallaşdırıldıqdan sonra onlar Azərbaycan dilinə tərcümə edilməli və tərcümə notariat qaydasında təsdiq edilməlidir.

Azərbaycan Respublikasının vətəndaşı olan uşağın əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi halı istisna olmaqla, işi məhkəmədə baxılmağa hazırlayarkən hakim ərizəni ona əlavə edilmiş sənədlərlə birlikdə övladlığa götürmənin əsaslığı və övladlığa götürülən uşağın mənafeyinə uyğunluğu haqqında məhkəməyə rəy verməyə borclu olan övladlığa götürülən uşağın yaşayış yeri (olduğu yer) üzrə qəyyumluq və himayəçilik orqanına göndərilməsi haqqında qərardad çıxarır. Həmin qərardadla iş üzrə icraat rəy alınanadək dayandırılır.

Məhkəməyə təqdim edilmiş qəyyumluq və himayəçilik orqanının rəyinə aşağıdakılar əlavə olunmalıdır:

- övladlığa götürülən uşağın yaşayış yeri (olduğu yer) üzrə və ya övladlığa götürənlərin (götürənin) yaşayış yeri üzrə qəyyumluq və himayəçilik orqanının tərtib etdiyi övladlığa götürənlərin (götürənin) həyat şəraitinin müayinə aktı;
- övladlığa götürülən uşağın səhhətinin vəziyyəti, fiziki və əqli inkişafı haqqında tibbi rəy;
- övladlığa götürülən uşağın doğum haqqında şəhadətnaməsi;
- on yaşına çatmış övladlığa götürülən uşağın övladlığa götürülməsinə, eləcə də onun adının, soyadının və atasının adının mümkün dəyişikliklərinə və övladlığa götürənlərin (götürənin) onun valideynləri kimi yazılmasına razılığı (qanuna əsasən belə razılıq tələb olunmayan hallar istisna olmaqla);
- qanunda valideynlərin razılığı olmadan uşağın övladlığa götürülməsinə yol verilən hallardan başqa, uşağın valideynlərinin onun övladlığa götürülməsinə notariat qaydasında təsdiq edilmiş razılığı;
- uşağın qəyyumunun (himayəçisinin), ögey valideynlərinin və ya valideynlərinin himayəsindən məhrum olmuş uşağın qaldığı müəssisə rəhbərinin onun övladlığa götürülməsinə razılığı;
- uşaq onun qohumları olmayan, Azərbaycan Respublikasının hüdudlarından kənarda daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları tərəfindən övladlığa götürüldükdə, övladlığa götürülənin mərkəzləşdirilmiş qeydiyyatda olmasını, habelə vətəndaşlığından və yaşayış yerindən asılı olmayaraq, uşağın öz qohumları tərəfindən övladlığa götürülməsinin qeyri-mümkünlüyünü təsdiq edən sənəd.

Zəruri hallarda məhkəmə digər məlumatları da tələb edə bilər.

Qəyyumluq və himayəçilik orqanının rəyi məhkəməyə daxil olduqdan sonra hakimin qərardadı ilə iş üzrə icraat təzələnir və iş məhkəmə iclasında baxılmağa təyin edilir.

Azərbaycan Respublikasının vətəndaşı olan uşaq əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürüldüyü zaman məhkəmə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən razılığa əsas olmuş qəyyumluq və himayəçilik orqanı tərəfindən verilmiş vətəndaşlığından və yaşayış yerindən asılı olmayaraq uşağın öz qohumları (bacıları, qardaşları, nənələri, babaları, valideynlərinin bacıları, qardaşları, onların övladları) tərəfindən övladlığa götürülməsinin qeyri-mümkünlüyünü təsdiq edən sənədləri və övladlığa götürmənin uşağın mənafeyinə uyğun olması barədə rəyi, həmçinin övladlığa götürülənin ümumi uçotda olmasını və övladlığa götürənin vətəndaşı olduğu (daimi yaşadığı) dövlətin səlahiyyətli orqanının təqdim etdiyi müvafiq sənədləri tələb edir.

İşə qapalı məhkəmə iclasında, övladlığa götürənlərin (götürənin), qəyyumluq və himayəçilik orqanı nümayəndəsinin, Azərbaycan Respublikasının vətəndaşı olan uşaq əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürüldükdə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndəsinin mütləq, zəruri hallarda isə digər maraqlı şəxslərin və on yaşına çatmış uşağın özünün iştirakı ilə baxılır.

Məhkəmə ərizəyə baxaraq, uşağın övladlığa götürülməsi haqqında övladlığa götürənlərin (götürənin) xahişinin təmin və ya rədd edilməsi haqqında qərar qəbul edir. Övladlığa götürmə haqqında xahişi təmin edərkən məhkəmə uşağı konkret şəxslər (şəxs) tərəfindən övladlığa götürülmüş hesab edir və

qətnamədə övladlığa götürmənin vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını aparan orqanlarda qeyd edilməsi üçün zəruri olan övladlığa götürülən və övladlığa götürənlər (götürən) haqqında bütün məlumatları göstərir.

Məhkəmə övladlığa götürənlərin (götürənin) uşağın doğulması haqqında akt qeydində valideynlər (valideyn) kimi yazılmasına, eləcə də uşağın doğulduğu tarix və yerin dəyişdirilməsinə dair onların xahişlərini rədd edərək, uşağı övladlığa götürmələri haqqında xahişlərini təmin edə bilər.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə ayrı qayda nəzərdə tutulmamışdırsa, Azərbaycan Respublikasının vətəndaşı olan uşaqlar əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürüldüyü zaman övladlığa götürmədən sonra əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən uşağın saxlanması, tərbiyəsi və təhsili şəraiti barədə məlumatların mütəmadi olaraq övladlığa götürənin vətəndaşı olduğu (daimi yaşadığı) dövlətin səlahiyyətli orqanına təqdim edilməsi öhdəliyinin götürülməsi uşağın övladlığa götürülməsi haqqında məhkəmənin qətnaməsində göstərilməlidir.

Xahiş təmin edildikdə, övladlığa götürənlərin (götürənin) və övladlığa götürülən uşağın qarşılıqlı hüquq və vəzifələri uşağın övladlığa götürülməsi haqqında məhkəmə qətnaməsinin qanuni qüvvəyə mindiyi gündən müəyyən olunur.

Uşağın övladlığa götürülməsi haqqında məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra 3 gün müddətində Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə, uşağın övladlığa götürülməsinin dövlət qeydiyyatı üçün qətnamənin çıxarıldığı yer üzrə vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını aparan orqana, övladlığa götürülən uşaqların uçotu üçün uşağın yaşadığı (olduğu) yer üzrə yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanlarına göndərilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 22 iyul tarixli 166 nömrəli qərarı ilə təsdiq edilmiş "Ölkələrarası övladlığa götürmə ilə bağlı əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə hüquqi yardım göstərən orqanların akkreditasiya Qaydası"na müvafiq olaraq, övladlığa götürülmüş uşaqların gələcək həyatı barədə Azərbaycan Respublikasının mərkəzi orqanını öz səlahiyyətləri daxilində məlumatlandırmaq, mərkəzi orqanının müəyyən etdiyi müddət ərzində onların həyatına nəzarət edilməsini təmin etmək, övladlığa verilmiş uşağın sosial-psixoloji vəziyyəti, sağlamlıq durumu, inkişafı, təhsili, uşağı övladlığa götürmüş ailənin maddi və psixoloji vəziyyəti, uşaqla ailədə davranış və uşağın davranışı, ailəyə uyğunlaşması və s. barədə məlumatları toplamaq və mərkəzi orqana təqdim etmək vəzifələri akkreditə edilmiş orqanın üzərinə düşür.

## H. Maddə 11. Ölkədən qeyri qanuni çıxarmaq və geri qaytarmamaq

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 144-cü maddəsinə əsasən adam oğurluğu yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə cəzası ilə cəzalandırılır.

"Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" 1994-cü il 14 iyun tarixli Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə müvafiq olaraq Azərbaycan Respublikasının hər bir vətəndaşı qanunvericilikdə nəzərdə tutulmuş qaydada xüsusi ayrılmış nəzarət məntəqələrindən keçib sərbəst surətdə ölkədən getmək və ölkəyə gəlmək hüququna malikdir.

Həmin Qanunun 11-ci maddəsində isə göstərilir ki, xaricə daimi yaşayış üçün gedən vətəndaşlar ölkəyə müvəqqəti yaşamaq üçün pasport vasitəsi ilə gəlirlər, daimi yaşayış üçün ölkəyə qayıtmaqdan ötrü isə onların pasportlarında Azərbaycan Respublikasının xaricdəki konsulluğunda uçotdan çıxarılma barədə qeyd olmalıdır.

"Əmək miqrasiyası haqqında" 1999-cu il 28 oktyabr tarixli Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə müvafiq olaraq əməkçi miqrantların ailələri ilə birləşmələrinə məhdudiyyət qoyulması qadağandır.

## İ. Maddə 19. Fiziki və psixoloji reabilitasiya və sosial reinteqrasiya (maddə 39)

Azərbaycan Respublikasının qanunvericiliyində uşaqlara qarşı cismani cəzanın bütün formaları qadağan olunmuşdur. Hətta Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 64.0.4-cü, 64.0.5-ci, 64.0.7-ci maddələrinə əsasən valideynlər, (onlardan biri) valideynlik hüquqlarından sui-istifadə etdikdə, uşaqlarla amansız davrandıqda, onları fiziki və psixi təzyiq altında saxladıqda, uşaqların və ya ərinin (arvadının) sağlamlığına və ya həyatına qarşı qəsdən edilmiş cinayət törətdikdə valideynlik hüquqlarından məhrum edilə bilərlər.

"Məhkumların islah edilməsində ictimaiyyətin iştirakı və cəzanı icra edən müəssisələrin fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi Qaydaları" 2006-cı il 27 aprel tarixində dövlət qeydiyyatına alınmışdır.

Həmin Qaydalara uyğun olaraq məhkumların islah edilməsində və penitensiar müəssisələrin fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi məqsədilə nüfuzlu qeyri-hökumət təşkilatları nümayəndələrindən ibarət İctimai Komitə formalaşdırılmışdır.

İctimai Komitə tərəfindən cəzanın icrası yerlərinə istənilən vaxt baş çəkilməsi və məhkumlarla görüşlərin keçirilməsinə şərait yaradılmışdır. Eyni zamanda həm adı çəkilən komitə, həm də digər təşkilat və şəxslər tərəfindən penitensiar müəssisələrə başçəkmələrin nəticələri üzrə hesabatların təqdim edilməsi işinin sadələşdirilməsi və operativliyinin təmin edilməsi məqsədilə müvafiq rəy forması işlənib hazırlanmış, buraya ictimai nəzarət predmetinə daxil olan bir sıra məqamlarla yanaşı, işgəncə və pis rəftar hallarının müşahidə olunub-olunmaması ilə bağlı xüsusi bənd daxil edilmişdir.
2006 - 2009-cu illər ərzində İctimai Komitənin üzvləri tərəfindən penitensiar müəssisələrə 175-dən artıq monitorinq həyata keçirilmişdir.

2000 - 2008-ci illər BQXK-nın üzvləri tərəfindən penitensiar müəssisələrə 63343 şəxslərə görüşün keçirilməsi ilə nəticələnmiş 279 səfər həyata keçirilmişdir.

Həmçinin Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) və onun aparatının əməkdaşları tərəfindən Ədliyyə Nazirliyinin tabeliyində olan penitensiar müəssisələrə 82 başçəkmə həyata keçirilmişdir.

Bu səfərlərin nəticəsində müvafiq tövsiyələri özündə əks etdirən hesabatlar təqdim olunur və onların əsasında zəruri tədbirlər həyata keçirilir.

Penitensiar müəssisələrdə qanunçuluğun və insan hüquqlarının təmin olunması məqsədilə yeni səmərəli hüquq müdafiə mexanizmləri, o cümlədən Ədliyyə Nazirliyinin strukturunda Cəzaların icrasına nəzarət müfəttişlik və İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsi yaradılmışdır

"Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun layihəsi Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə hazırlanmışdır. Bütün müvafiq dövlət orqanları, habelə QHT-lər həmin qanun layihəsinin hazırlanması prosesinə fəal surətdə cəlb olunmuşdur. Qanun layihəsi həmçinin yerli və beynəlxalq təşkilatların (UNFPA, ATƏT, Avropa Şurası) ekspertləri tərəfindən qiymətləndirilmişdir. Müvafiq dövlət orqanları ilə razılaşdırıldıqdan sonra qanun layihəsi Azərbaycan Respublikası Milli Məclisinə təqdim edilmişdir. Qanun layihəsi uşaqlar da daxil olmaqla hər kəsin məişət zorakılığından adekvat və səmərəli müdafiəsi, onların şərəf və ləyaqətlərinə hörmət bəsləmək məqsədi daşıyır, məişət zorakılığı hallarının qarşısının alınması kimi geniş və əhatəli müddəaları, zorakılıq qurbanları üçün sığınacaqlar, məsləhət xidmətləri, reabilitasiya, cinayətkarların cəzalandırılması və s. də daxil olmaqla müdafiə tədbirlərini ehtiva edir. Məlumat çatışmazlığı əsas boşluq kimi müəyyən

olunduğundan qanun layihəsində statistik məlumat bazasının və məlumat toplama metodologiyasının yaradılması nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının qanunvericiliyi yetkinlik yaşına çatmayan şəxslərə münasibətdə zorakılıq törədən şəxslərin cinayət məsuliyyətinə cəlb olunmasına imkan verən kifayət qədər mexanizmləri özündə əks etdirir. Belə ki, Cinayət məcəlləsində əsasən adam öldürmə, müxtəlif ağırlıq dərəcələrində bədən xəsarətinin yetirilməsi, döymə, işgəncə vermə, adam öldürməklə hədələmə və ya ağır bədən xəsarəti yetirmə, zorlama, seksual xarakterli hərəkətlər məcbur etməyə və s. bu xarakterli əməllərin cəzalandırılması müəyyən olunub. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində 22-ci bölməsi bütövlükdə yetkinlik yaşına çatmayanlara və ailə münasibətləri əleyhinə cinayətlərə həsr edilmişdir.

Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planında da məişət zorakılığına qarşı mübarizənin gücləndirilməsi, zorakılığın qurbanlarının hüquqi müdafiə vasitələri, kompensasiya, reabilitasiya, tibbi və psixoloji yardımla təmin edilməsi və geniş maarifləndirmə tədbirlər nəzərdə tutulub. Uşaqlara münasibətdə zorakılığın qarşısının alınması ilə bağlı tədbirlər 2007-ci ildə respublika Nazirlər Kabinetinin Sərəncamı ilə "Demokratik cəmiyyətdə gündəlik zorakılıqda mübarizə üzrə Respublika Kompleks Proqramı"nda, 2007-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramında (2007 -2010-cu illər", habelə 2008-ci ildə isə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "2008 - 2015-ci illərdə yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nda əks etdirilmişdir".

2006-cı ildən başlayaraq hər il qaçqın və məcburi köçkün gənclərin II yaradıcılıq festival-müsabiqəsi keçirilir. Bundan əlavə bu kateqoriyada olan uşaqların cəmiyyətə inteqrasiyasını həyata keçirmək məqsədi ilə müxtəlif müsabiqələr təşkil edilir, onların beynəlxalq səviyyədə keçirilən tədbir və festivallarda iştirakı təmin olunur.

### J. Maddə 25. Qəyyumluğun vaxtaşırı yoxlanılması

Azərbaycan Respublikasının Mülki Məcəllənin 34-cü (Qəyyumluq və himayəçilik orqanları) maddəsinə əsasən fiziki şəxsin fəaliyyət qabiliyyəti olmayan sayılması və ya fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması barədə qərarın qanuni qüvvəyə mindiyi gündən etibarən üç gün ərzində məhkəmə həmin fiziki şəxs üzərində qəyyumluq və himayəçilik təyin edilməsi üçün onun yaşayış yeri üzrə qəyyumluq və himayəçilik orqanına bu barədə məlumat verməlidir.

Həmin maddəyə əsasən qəyyumluqda olanların yaşayış yeri üzrə qəyyumluq və himayəçilik orqanı onların qəyyumlarının və himayəçilərinin fəaliyyətinə nəzarət edir.

Dövlət müəssisələrində uşağın yerinin mütəmadi yoxlanması üzrə öhdəlik həmin dövlət müəssisələrinin tabe olduqları dövlət qurumları tərəfindən həyata keçirilir.

Rayon (şəhər) təhsil şöbələrinin nəzdində fəaliyyət göstərən qəyyumluq və himayəçilik orqanlarının tərkibinə Maarif Nazirliyinin 1988-ci il 28 mart tarixli 68 nömrəli əmri ilə təsdiq edilmiş müvafiq Əsasnaməyə əsasən, rayon (şəhər) təhsil şöbələrinə uşaqların mühafizəsi üzrə məktəb inspektoru ştatı daxil edilmişdir. Həmin ştat dövlət qulluğu kateqoriyasına aiddir və rayon (şəhər) təhsil şöbəsinin ştat cədvəlinə daxildir. Rayon İcra Hakimiyyətləri nəzdində yaradılmış "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya"nın üzvləri tərkibinə rayon təhsil şöbəsinin müdiri və uşaq mühafizəsi üzrə inspektor daxildir.

Azərbaycan Respublikasının Mülki və Ailə məcəllələrində qəyyumluq və himayəçiliklə bağlı məsələlər öz əksini tapmışdır.

Valideynlər öldükdə, valideynlik hüquqlarından məhrum olunduqda, valideynin hüquqları məhdudlaşdırıldıqda, valideynlər fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə, valideynlər xəstələndikdə, uzun müddət uşaqlarla birlikdə olmadıqda, valideynlər uşaqların tərbiyəsindən və ya onların hüquq və mənafelərinin müdafiəsindən yayındıqda, o cümlədən doğum evlərindən, tərbiyə, müalicə və əhalinin sosial müdafiəsi müəssisələrindən və digər analoji müəssisələrdən öz uşaqlarını götürməkdən imtina etdikdə, eləcə də valideyn himayəsinin olmadığı digər hallarda uşaqların hüquq və mənafelərinin müdafiəsi yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları tərəfindən həyata keçirilir.

Həmin orqanlar valideyn himayəsindən məhrum olan uşaqları aşkar edir, belə uşaqların ilkin uçotunu aparır, ümumi uçotun aparılması üçün müvafiq icra hakimiyyəti orqanına məlumat verir və valideyn himayəsindən məhrum olmağın konkret hallarını nəzərə almaqla, həmin uşaqların yerləşdirilməsi formalarını seçir, eləcə də onların saxlanması, tərbiyəsi və təhsili şəraitinə nəzarəti həyata keçirir.

Zorakılığa məruz qalmış uşaqların müəyyənləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həkim mütəxəssislər arasında təlim işinin təşkilini planlaşdırır. Bu mütəxəssislərin işi zorakılığa məruz qalmış uşaqlardakı simptomları müəyyən etmək və onlara müəyyən yardımlar göstərməkdən ibarət olacaqdır. Zorakılığa məruz qalmış uşaqlara psixoloji yardım üçün reabilitasiya mərkəzlərinin yaradılması nəzərdə tutulmuşdur. Onların işi :

- zorakılığa məruz qalan həddi-buluğa çatmamış qurbanlara kompleks şəkildə professional köməyin təşkili;
- qəddar rəftara məruz qalan uşaq və yeniyetmələrə vaxtlı-vaxtında ödənişsiz hüquqi , sosial-psixoloji və tibbi yardımın göstərilməsi;
- yeniyetmələr arasında seksual cinayətlərin və qanun pozuntularının profilaktikası;
- uşaqlar üzərində zorakılıq problemləri haqqında ictimai rəyin formalaşdırılması və digər bu istiqamətdə tədbirlərdən ibarət olacaqdır.

## VI. İLKİN SƏHİYYƏ XİDMƏTLƏRİ VƏ RİFAH

### A. Maddə 6. Yaşamaq və inkişaf etmək (2-ci bənd)

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə əsasən alkoqol və tütün məmulatlarının uşaqlara satılması qadağandır.

Penitensiar sistemdə olan yetkinlik yaşına çatmamış şəxslərə saxlanıldıqları müəssisələrin tibb sanitariya hissələri tərəfindən ambulator və stasionar tibbi yardım göstərilir. Müəssisələrə daxil olduğu zaman onlar ilkin tibbi baxışdan keçirilir, antropoloji göstəriciləri qeyd edilir, onlara rentgenoloji və laborator müayinələr aparılır. İstintaq təcridxanasında hər bir yeni qəbul edilən təqsirləndirilən şəxs üçün fərdi tibbi kitabça tərtib edilir. Onların səhhətində şikayətləri, anamnestik məlumatlar və obyektiv müayinə nəticələri, işgəncə və qəddar rəftar halları barədə məlumatlar orada əks etdirilir. Saxlandıqları sonrakı dövrdə müraciətlərinə əsasən onlara tibb sanitar hissələrində müvafiq tibbi yardım göstərilir, zəruri hallarda isə onlar müalicə müəssisələrində stasionar müalicəyə cəlb olunurlar.

Cəzaçəkmə müəssisələrində olan yetkinlik yaşına çatmamışlar arasında yoluxucu xəstəliklərə düçar olmuş şəxslərin aşkar edilməsi üçün tədbirlər görülür. Belə ki, istintaq təcridxanasına daxil olduğu zaman könüllü olaraq onların qanı HİV/AİDS-ə görə yoxlanılır, habelə ağ ciyər vərəminə görə döş qəfəsi orqanlarının flüoroqrafiyası aparılır. Saxlandıqları sonrakı dövrdə ildə bir dəfə olmaqla

flüoroqrafiya müayinəsi təkrarən keçirilir, şübhə doğuran hallarda HİV/AİDS-ə görə müayinə təkrarlanır və Respublika QİÇS-lə Mübarizə Mərkəzinin əməkdaşları tərəfindən onlarla epidemioloji araşdırma aparılır. Bütün yetkinlik yaşına çatmayanlar HİV/AİDS və vərəm xəstəlikləri barədə məlumatlandırılır, onlara maarifləndirmə xarakterli broşuralar paylanılır. Hal-hazırda bu məhkumlar arasında HİV/AİDS-ə yoluxmuş şəxs yoxdur, vərəm prosesi inaktiv olan bir nəfər yoluxmuş şəxsin üzərində tibbi nəzarət həyata keçirilir.

### B. Maddə 23. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar

Azərbaycan Respublikasında 56,5 min xüsusi qayğıya ehtiyacı olan uşaq var.

Respublika üzrə xüsusi qayğıya ehtiyacı olan və xüsusi internat məktəblərinə cəlb olunmuş uşaqların sayı 1282 nəfərdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 3 fevral tarixli 20 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı (2005-2009-cu illər)" çərçivəsində beynəlxalq təşkilatlarla birlikdə 3 inkluziv təhsil layihəsinin həyata keçirilməsi davam etdirilmişdir. Bu layihələr Bakı, Sumqayıt, Mingəçevir şəhərləri və Yevlax rayonunda 30-dan çox təhsil müəssisəsini, 200-dən artıq məktəbəqədər və məktəb yaşlı xüsusi qayğıya ehtiyacı olan uşağı əhatə etmişdir.

Respublika üzrə 19 məktəb və 6450 uşaq bu məktəblərdə xüsusi təhsilə cəlb olunmuşdur.

Sağlamlıq imkanları məhdud uşaqların tibbi-sosial reabilitasiyası ilə bağlı respublikada 2 Uşaq Bərpa Mərkəzi (Bakı və Naxçıvan şəhərlərində) tikilib istifadəyə verilmişdir.

Uşaqların sağlamlıq imkanlarının məhdudlaşmasının müəyyən edilməsinə dair meyarlar yenidən işlənmişdir.

Sağlamlıq imkanları məhdud uşaqların reabilitasiya vasitələri ilə (protez-ortopedik məmulatlar, əlil arabaları, eşitmə aparatları və s.) təmini istiqamətində işlər davam etdirilmişdir.

Uşaqların müayinə və müalicəsi üçün geniş mərkəzin inşasının zəruri olduğunu nəzərə alaraq, 2009-cu ildə Heydər Əliyev Fondunun dəstəyi ilə Bakı şəhərində Psixonevroloji Uşaq Mərkəzi inşa edilmişdir. Müasir avadanlıqla təchiz edilmiş aktiv terapiya, masaj, müayinə, yataq, yemək otaqları mərkəzdə müalicə olunan uşaqların sağlamlığının tezliklə bərpa edilməsinə zəmin yaradır.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə paytaxtda və regionlarda tibb müəssisələrinin yenidənqurma layihələri həyata keçirilir. Əzizbəyov rayonunun Türkan qəsəbəsində poliklinika, təcili yardım stansiyası, Şüvəlan qəsəbəsində xəstəxana, Zirə qəsəbəsində Müalicə Diaqnostika Mərkəzi yenidən qurulmuş və müasir avadanlıqla təchiz olunmuşdur. 2008-ci ilin oktyabrında Heydər Əliyev Fondunun təşəbbüsü ilə Qala qəsəbəsində xəstəxana inşa edilmişdir. Təcili yardım stansiyası və apteki olan yeni səhiyyə müəssisəsi müasir tibbi avadanlıqlarla təmin olunmuşdur.

2007-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Təbəssüm" uşaq sanatoriyasında başlanmış əsaslı təmir və yenidənqurma işləri 2009-cu ilin yanvarında başa çatmışdır.

Bakı şəhərində gözdən sağlamlıq imkanları məhdud uşaqlar üçün ixtisaslaşdırılmış musiqi məktəbi fəaliyyət göstərir. Sağlamlıq imkanları məhdud uşaqlar üçün dövlət səviyyəsində uşaq və ailələrə dəstək mərkəzləri fəaliyyət göstərir. Respublikada fəaliyyət göstərən 16 reabilitasiya və ailəyə dəstək mərkəzlərinin üçü dövlət müəssisələri, digərləri isə qeyri-hökumət təşkilatlarıdır. Həmin üç dövlət müəssisəsindən ikisi Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nəzdində fəaliyyət göstərir (Şüvəlan və Goranboy rayonlarında), digər biri (Mingəçevir şəhərində) Azərbaycan Respublikasının Təhsil Nazirliyinin balansında olan mərkəzdir. Goranboy və Şüvəlan mərkəzlərinin hər birinin fəaliyyətindən hər il 1000-dən artıq uşaq və ailə bəhrələnir. Bu mərkəzlərdə aktiv terapiya məşğələləri, incəsənət terapiyası, musiqi, kompüter kursları, ingilis, rus

dili kursları (qaçqın, məcburi köçkün və aztəminatlı ailələrin uşaqları, internat müəssisəsindən ailəyə qaytarılan uşaqlar üçün) fəaliyyət göstərir.

Mütəmadi olaraq Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən mərkəzin fəaliyyətindən bəhrələnən uşaqlara əlil arabaları, ortopedik ayaqqabı və xüsusi ortopedik stullar və digər avadanlıqlar dəstək olaraq verilir. Bundan əlavə mərkəzlərdə yeni aktiv terapiya avadanlıqları quraşdırılmış, autizmli uşaqlarla iş uçun yeni otaqlar hazırlanmış, avadanlıqlar alınmış və dörd mütəxəssis xarici ölkəyə autizmli uşaqlarla iş üçün həm praktik, həm də nəzəri biliklərin toplanılması məqsədi ilə Türkiyə dövlətinə göndərilmişdir. Mütəxəssislər geri döndükdən sonra xüsusi təlim proqramı hazırlayaraq bütün uşaq reabilitasiya mərkəzləri və internat müəssisə heyəti üçün təlimlərin və praktik məşğələlərin keçirilməsi planlaşdırılmışdır.

**Əhaliyə dövlət tərəfindən təyin olunmuş sosial müavinətlər**

| | *2007* | | *2008* | |
|---|---|---|---|---|
| | Sosial müavinət təyin olunanların sayı, nəfər | Bir nəfərə düşən orta aylıq məbləğ, manat | Sosial müavinət təyin olunanların sayı, nəfər | Bir nəfərə düşən orta aylıq məbləğ, manat |
| **Sosial müavinətlər - cəmi** | **259712** | **17,44** | **275402** | **23,35** |
| o cümlədən: | | | | |
| 16 yaşadək əlil uşaqlara | 48479 | 25,0 | **x** | **x** |
| Sağlamlıq imkanları məhdud | | | | |
| olan 18 yaşınadək uşaqlara | **x** | **x** | 55066 | 35,0 |
| Uşaqlı ailələrə aylıq | 24364 | 6,09 | 25431 | 6,36 |
| 1 yaşınadək uşağı olan ailələrə | 3161 | 10,0 | 6280 | 15,0 |
| Yetim və valideyn | | | | |
| himayəsindən məhrum olmuş | | | | |
| Uşaqların qəyyumlarına | 1260 | 5,0 | 1192 | 10,0 |
| **Birdəfəlik müavinətlər - cəmi** | **101677** | **x** | **97250** | **x** |
| o cümlədən: | | **-** | | |
| Uşağın doğulmasına görə | | | | |
| ailələrə verilən müavinət | 90968 | **x** | 86861 | **x** |
| uşaqlara verilən müavinət | 94909 | 28,82 | 90171 | 32,65 |

**Əhaliyə dövlət tərəfindən verilən ayrı-ayrı müavinətlər**

(Dövlət Sosial Müdafiə Fondunun məlumatlarına əsasən)

| | **2006** | **2007** | **2008** |
|---|---|---|---|
| Uşağın anadan olmasına görə birdəfəlik müavinət: | | | |
| şəxslərin sayı, min nəfər | 18,5 | 25,6 | 26,8 |
| məbləğ, min manat | 555,5 | 854,3 | 1003,2 |
| 3 yaşına çatanadək uşaqlara qulluqla əlaqədar müavinət: | | | |
| şəxslərin sayı, min nəfər | 21,4 | 22,1 | 25,4 |
| məbləğ, min manat | 553,7 | 684,2 | 1247,0 |

**İlk dəfə əlil hesab edilən 16 yaşadək uşaqların sayı**

| | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|
| Cəmi, min nəfər | 9,5 | 8,4 | 6,0 | 6,5 |
| *o cümlədən:* | | | | |
| şəhər yerlərində | 4,5 | 3,9 | 2,7 | 2,9 |
| kənd yerlərində | 5,0 | 4,5 | 3,3 | 3,6 |
| 16 yaşınadək olan uşaqların hər 1 000 nəfərinə | 4,0 | 3,5 | 2,5 | 2,8 |

**İlk dəfə sağlamlıq imkanları məhdud hesab edilən 18 yaşadək uşaqların sayı**

| | 2007 | 2008 |
|---|---|---|
| İlk dəfə sağlamlıq imkanları məhdud hesab edilən 18 yaşadək uşaqların sayı - cəmi, min nəfər | 5,2 | 6,9 |
| *o cümlədən:* | | |
| şəhər yerlərində | 2,4 | 3,1 |
| kənd yerlərində | 2,8 | 3,8 |
| 18 yaşadək olan uşaqların hər 1 000 nəfərinə | 2,0 | 2,6 |

**Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün xüsusi internat və məktəblər** *(tədris ilinin əvvəlinə)*

<table>
<tr><td rowspan="4"></td><td colspan="5">Məktəblərin sayı</td><td colspan="11">onlarda şagirdlərin sayı nəfər</td></tr>
<tr><td rowspan="3">2003-2004</td><td rowspan="3">2004-2005</td><td rowspan="3">2005-2006</td><td rowspan="3">2006-2007</td><td rowspan="3">2007-2008</td><td>2003-2004</td><td>2004-2005</td><td rowspan="3">Cəmi</td><td colspan="2">2005-2006</td><td rowspan="3">Cəmi</td><td colspan="2">2006-2007</td><td colspan="3">2007-2008</td></tr>
<tr><td rowspan="2">Cəmi</td><td rowspan="2">Cəmi</td><td colspan="2">o cümlədən</td><td colspan="2">o cümlədən</td><td rowspan="2">Cəmi</td><td colspan="2">o cümlədən</td></tr>
<tr><td>oğlanlar</td><td>qızlar</td><td>oğlanlar</td><td>qızlar</td><td>oğlanlar</td><td>qızlar</td></tr>
<tr><td>Məktəblərin sayı</td><td>20</td><td>21</td><td>21</td><td>21</td><td>19</td><td>5313</td><td>6111</td><td>6402</td><td>4153</td><td>2249</td><td>6372</td><td>4136</td><td>2236</td><td>5850</td><td>3743</td><td>2107</td></tr>
<tr><td>Bundan başqa</td><td>„</td><td>_</td><td>_</td><td>.</td><td>.</td><td>581</td><td>575</td><td>611</td><td>407</td><td>204</td><td>617</td><td>391</td><td>226</td><td>600</td><td>374</td><td>226</td></tr>
</table>

| | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| ümumtəhsil məktəblərində sağlamlıq imkanları məhdud olan uşaqlar üçün təşkil edilmiş siniflərdə şagirdlər | | | | | | | | | | | | | | | | |
| o cümlədən: | | | | | | | | | | | | | | | | |
| əqli zəiflər üçün | 9 | 9 | 9 | 9 | 9 | 2344 | 2535 | 2695 | 1692 | 1003 | 2742 | 1944 | 798 | 2918 | 1972 | 946 |
| Korlar üçün | 2 | 2 | 2 | 2 | 2 | 271 | 269 | 309 | 217 | 92 | 315 | 224 | 91 | 303 | 219 | 84 |
| karlar üçün (karlar və lallar) | 2 | 2 | 2 | 2 | 2 | 679 | 733 | 781 | 515 | 266 | 780 | 440 | 340 | 756 | 476 | 280 |
| zəif eşidən və sonradan kar olanlar üçün | 1 | 1 | 1 | 1 | 1 | 182 | 175 | 182 | 136 | 46 | 183 | 137 | 46 | 155 | 114 | 41 |
| poliomielit və serebral iflic uşaqlar üçün | 1 | 1 | 1 | 1 | 1 | 228 | 209 | 211 | 132 | 79 | 175 | 114 | 61 | 165 | 116 | 49 |
| nitq qüsuru olan uşaqlar üçün | 2 | 2 | 2 | 2 | 2 | 519 | 523 | 550 | 356 | 194 | 543 | 357 | 186 | 537 | 357 | 180 |
| sair | 3 | 4 | 4 | 4 | 2 | 1090 | 1667 | 1674 | 1105 | 569 | 1634 | 920 | 714 | 1016 | 489 | 527 |

Sağlamlıq imkanları məhdud olan uşaqlar daim dövlət qayğısındadırlar. Belə ki, 2004-cü ilin dekabrından Heydər Əliyev Fondunun "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi çərçivəsində Azərbaycanda diabet xəstəliyinə düçar olmuş 14 yaşınadək uşaqlar 2004-2009-cu illər ərzində müntəzəm olaraq insulin preparatı və şpris-qələmlərlə təmin edilmişlər. "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 fevral 32 nömrəli Fərmanına uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 7 iyun tarixli 101 nömrəli Qərarı ilə "Şəkərli diabet üzrə Dövlət Proqramı" təsdiq edilmişdir.

Bundan əlavə, Azərbaycanda yayılan talassemiya xəstəliyinin qarşısının alınması məqsədilə 2005-ci ilin fevral ayından Heydər Əliyev Fondu talassemiya probleminə həsr olunmuş "Talassemiyasız həyat naminə" layihəsini həyata keçirməyə başlamışdır. Layihə çərçivəsində talassemiya xəstəliyinin müalicə və diaqnostikası məqsədilə Bakı şəhərində müasir avadanlıqla təchiz olunmuş Talassemiya Mərkəzi inşa edilmişdir.

## C. Maddə 24. Səhiyyə və səhiyyə xidmətləri

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, 18 yaşına çatmamış vətəndaşlara spirtli içkilər və tütün məhsulları satılmır. Narkotik və digər zərərli maddələrin satışı qadağandır. Həmçinin, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 iyun tarixli 2271 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram (2007-2012-ci illər)"ın həyata keçirilməsinə nəzarət edir. Uşaq dəri-zöhrəvi və psixonevroloji dispanserləri mövcuddur.

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi 2002-ci ildən BMT-nin Uşaq Fondu ilə birlikdə "Sağlamlıq və qidalanma proqramı"nı həyata keçirir.

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi BMT-nin Əhali Fondu ilə birlikdə "Cənubi Qafqazda Gənclər Üçün Reproduktiv sağlamlıq təşəbbüsü layihəsi"ni həyata keçirir. Bu layihə üç ildir ki, həyata keçirilir və Respublikanın 23 dən artıq rayon və şəhərini, 4000-ə yaxın əhalini əhatə edib. Layihənin sonunda Dövlət Komitəsinin rayonlarda və Bakıda on iki "Gənclərə dostluq" təlim və məsləhət mərkəzlərinin açılması planlaşdırılır. Artıq bu mərkəzlərin beşi fəaliyyət göstərməkdədir. Bunlardan üçü Universitetlərin tərkibində yaradılmışdır.

Erkən nikahlarla bağlı vəziyyətin araşdırılması məqsədi ilə Dövlət Komitəsi UNİCEF-lə birgə erkən nikahlarla bağlı tədqiqat işi aparmış, bundan əlavə Dövlət Komitəsinin təşəbbüsü ilə bu sorğu 495

nəfər arasında 10 regionda aparılmış və erkən nikaha olan münasibət araşdırılmış, erkən nikaha daha çox meylli olan regionlar analiz nəticəsində müəyyən olunmuşdur. Cənub regionu bu məsələ ilə bağlı daha həssas regionlar bölümünə aiddir.
Bundan əlavə Dövlət Komitəsi "Uşaq İli" çərçivəsində hemofiliyalı, talassemiyalı, şəkərli diabet və leykemiyalı uşaqlar üçün stomatoloji kabinetin açılmasını təmin etmişdir. Həmçinin, 17 aprel beynəlxalq hemofiliya günü münasibəti ilə hər il Dövlət Komitəsi tərəfindən Səhiyyə Nazirliyi ilə birgə qanvermə aksiyaları təşkil edilir.
Mütəmadi olaraq hər il Dövlət Komitəsinin təşəbbüsü ilə Səhiyyə və Təhsil nazirlikləri tərəfindən birgə əqli və fiziki qüsurlu uşaqların yaşadığı uşaq müəssisələrində uşaqların yenidən diaqnostikası aparılır və bu diaqnostika nəticəsində uşaqlar tipik uşaqlar üçün olan internat müəssisəsinə yerləşdirilir və maksimum inkluziv təhsilə cəlb edilirlər.
2009-cu il "Uşaq ili" çərçivəsində səhiyyə ilə bağlı tədbirlərə uyğun olaraq ucqar regionlarda mütəmadi olaraq uşaqların pulsuz tibbi müayinəsinin aparılması nəzərdə tutulmuşdur.

1. Adambaşına düşən səhiyyə xərcləri - 64.6 AZN.
2. HİV/AİDS-ə yoluxmuş uşaqların sayı, nisbəti: 0 -13 yaş - 3 HİV və 2 AİDS, 0-17 yaş - 13 HİV və 2 AİDS.
3. Erkən yaşda hamiləlik: 19 yaşa qədər - 15483 nəfər.
4. Narkotik maddələrdən istifadə edən uşaqlar: 0-17 yaş - 3 nəfər alkoqol – 0 toksiki maddələr.

"Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinə əsasən yetkinlik yaşına çatmayanların Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müəyyən etdiyi qaydada dövlət səhiyyə sisteminin uşaq və yeniyetmə tibb xidməti müəssisələrində pulsuz dispanser nəzarətində olmaq və müalicə olunmaq, sanitariya-gigiyena tələblərinə cavab verən şəraitdə təhsil almaq və əməklə məşğul olmaq, peşə yararlığı müəyyənləşdirilərkən pulsuz tibbi məsləhətlər almaq, büdcə vəsaitləri hesabına Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada güzəştli şərtlərlə qidalanmaq və tibbi sosial yardım almaq hüququ vardır. Fiziki və ya ruhi çatışmazlıqları olan yetkinlik yaşına çatmayanlar valideynlərinin və ya qanuni nümayəndələrinin müraciəti ilə sosial müdafiə sistemi müəssisələrində saxlanıla bilərlər.
Penitensiar müəssisələrə daxil olan bütün şəxslərin, o cümlədən yetkinlik yaşına çatmayanların tibbi müayinədən keçirilməsi, bu barədə müvafiq qeydlərin aparılması və saxlandıqları müddətdə zəruri tibbi yardım almaq hüququ təmin edilir. Həmçinin, pis rəftar barədə verilmiş şikayətlərə uyğun olaraq xəsarətlər qeydə alınır və müvafiq orqanlara çatdırılır. Bu qeydlərlə məhbusun özünün və onun müdafiəçisinin tanış olması üçün şərait yaradılmışdır.
Tibb ekspertlərinin müstəqilliyinin təmin olunması məqsədilə onların tabeçilik məsələsi yenidən nəzərdən keçirilmiş, ədliyyə nazirinin müvafiq əmrinə əsasən nazirliyin Səhiyyə idarəsi penitensiar sistemin tərkibindən çıxarılmış və onun bazasında birbaşa Ədliyyə Nazirliyinə tabe olan Tibb baş idarəsi yaradılmışdır. Ədliyyə Nazirinin əmri ilə bütün penitensiar müəssisələrdə psixoloq ştatı nəzərdə tutulmuşdur. Xəstə məhkumlar üçün yataq ləvazimatları tam təmin edilmiş, sanitariya-gigiyena şəraiti yaxşılaşdırılmışdır.

**Əhalinin hər 10 000 nəfərinə düşən həkimlərin sayı**

**(ilin əvvəlinə)**

| | 2004 | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|---|
| Əhalinin hər 10 000 nəfərinə düşən həkimlərin sayı | 36,1 | 36,2 | 36,3 | 36,0 | 37,4 |

**Dövlət büdcəsindən ayrılan səhiyyə xərcləri**

*(Qeyri-dövlət tibb müəssisələri üzrə məlumatlar da daxil olmaqla)*

| | *2003* | *2004* | *2005* | *2006* | *2007* |
|---|---|---|---|---|---|
| Səhiyyə xərcləri (milyon manat) | 55,3 | 73,5 | 115,3 | 162,0 | 257,2 |

**5 yaşadək ölən uşaqların cins üzrə bölgüsü**

| İllər | 5 yaşadək ölən uşaqların sayı, nəfər | | | Hər 1000 nəfər diri doğulana | | |
|---|---|---|---|---|---|---|
| | cəmi | *o cümlədən:* | | cəmi | *o cümlədən:* | |
| | | oğlanlar | qızlar | | oğlanlar | qızlar |
| 2003 | 2452 | 1351 | 1101 | 24,1 | 24,6 | 23,5 |
| 2004 | 2618 | 1511 | 1107 | 20,7 | 21,6 | 19,6 |
| 2005 | 2201 | 1229 | 972 | 17,6 | 18,6 | 16,5 |
| 2006 | 2501 | 1403 | 1098 | 16,2 | 16,8 | 15,4 |
| 2007 | 2351 | 1321 | 1030 | 16,1 | 16,8 | 15,3 |
| 2008 | 2178 | 1199 | 979 | 14,9 | 15,4 | 14,3 |

1 yaşa qədər ölən uşaqların sayı
(nəfər)

| | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|---|---|
| Cəmi | 1649 | 1892 | 1580 | 1882 | 1756 | 1715 |
| o cümlədən: | | | | | | |
| oğlanlar | 931 | 1113 | 893 | 1072 | 966 | 931 |
| qızlar | 718 | 779 | 687 | 810 | 790 | 784 |
| Şəhər yerlərində | 719 | 889 | 780 | 1082 | 1036 | 1047 |
| o cümlədən: | | | | | | |
| oğlanlar | 434 | 566 | 464 | 650 | 611 | 622 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| qızlar | 285 | 323 | 316 | 432 | 425 | 425 |
| Kənd yerlərində | 930 | 1003 | 800 | 800 | 720 | 668 |
| o cümlədən: | | | | | | |
| oğlanlar | 497 | 547 | 429 | 422 | 355 | 309 |
| qızlar | 433 | 456 | 371 | 378 | 365 | 359 |

**Aşağı çəkidə diri doğulan uşaqların sayı**

| | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|---|---|
| Çəkisi 2500 qramdan az olan diri doğulan uşaqların sayı, nəfər | 6478 | 8343 | 8517 | 8723 | 9283 | 9554 |
| Diri doğulan uşaqların ümumi sayına nisbətən, faizlə | 7,0 | 8,0 | 7,7 | 7,4 | 7,4 | 7,1 |

**2007-ci ildə profilaktik peyvəndlə əhatə olunmuş uşaqlar (faizlə)**

| | Vaksinasiya | | Revaksinasiya | |
|---|---|---|---|---|
| | Yaş | Peyvənd edilmiş uşaqların xüsusi çəkisi | Yaş | Peyvənd edilmiş uşaqların xüsusi çəkisi |
| Peyvənd edilmiş: | | | | |
| vərəmə qarşı | 1 yaşa qədər | 97,8 | - | - |
| difteriyaya göyöskürəyə tetanusa qarşı | 1 yaşa qədər | 94,8 | 18 ay | 94,6 |
| poliomielitə qarşı | 1 yaşa qədər | 97,0 | 18 ay | 96,5 |
| qızılcaya, məxmərəyə, epidemik parotitə qarşı | 1 yaş | 95,1 | 6 yaş | 97,4 |
| B hepatitinə qarşı | 1 yaşa qədər | 97,2 | - | - |

**Ana ölümü** [1)]

| İllər | Nəfər | Hər 100 000 nəfər diri doğulana |
|---|---|---|
| 2003 | 21 | 18,5 |
| 2004 | 34 | 25,8 |
| 2005 | 41 | 28,9 |
| 2006 | 51 | 34,2 |
| 2007 | 54 | 35,5 |
| 2008 | 40 | 26,3 |

**Yalnız döşlə qidalanma**

| **Uşaqların aylar üzrə yaşı** | **Yalnız döşlə qidalanan uşaqların faizi** |
|---|---|
| 0-1 | 22,6 |
| 2-3 | 10,2 |
| 4-5 | 2,4 |
| 6-8 | 2,7 |
| 9-17 | 0,7 |

**Səhiyyə Nazirliyi sistemi üzrə doğuşların sayı**

| İllər | Doğuşların sayı, hal | onlardan: | |
|---|---|---|---|
| | | xəstəxanalarda doğuşların sayı | bütün doğuşlara nisbətən , faizlə |
| 2003 | 95497 | 92044 | 96,4 |
| 2004 | 107144 | 103691 | 96,8 |
| 2005 | 115759 | 109770 | 94,8 |

| | | | |
|---|---|---|---|
| 2006 | 122113 | 118165 | 96,8 |
| 2007 | 129802 | 124611 | 96,0 |
| 2008 | 138465 | 134670 | 97,3 |

**İnsanın immunçatışmazlığı virusunun (İİÇV) törətdiyi xəstəliklə xəstələnənlərin sayı**

| | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|---|---|
| İnsanın immunçatışmazlığı virusunun (İİÇV) törətdiyi xəstəlik ilə ilk dəfə qeydə alınmış xəstələrin sayı - cəmi | 114 | 121 | 210 | 243 | 441 | 436 |
| o cümlədən: | | | | | | |
| Qazanılmış immunçatışmazlıq sindromu (QİÇV) qeydə alınmış xəstələrin sayı | 12 | 21 | 55 | 17 | 41 | 59 |
| 18 yaşa qədər uşaqlar | - | 1 | - | 1 | 3 | 5 |

**2008-ci ildə əqli və fiziki cəhətdən qüsurlu olan uşaqların sayı**

*(nəfər)*

| | Cəmi | o cümlədən yaşlar üzrə: | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | 1,5 yaşa qədər | 1,5-3 yaş | 4-6 yaş | 7 yaş | 8-10 yaş | 11-17 yaş |
| Kar uşaqlar | 1 014 | 11 | 51 | 170 | 86 | 232 | 464 |
| Zəif eşidən və sonradan kar olan uşaqlar | 2226 | 18 | 104 | 303 | 251 | 525 | 1 025 |
| Kor olan uşaqlar | 410 | 7 | 20 | 47 | 32 | 68 | 236 |
| Zəif görən uşaqlar | 12 330 | 44 | 270 | 1 024 | 1 089 | 2 640 | 7 263 |
| Əqli cəhətdən zəif inkişaf etmiş uşaqlar | 6 403 | 37 | 278 | 719 | 838 | 1 707 | 2 824 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Nitqi qüsurlu olan uşaqlar | 5 535 | 76 | 553 | 1 487 | 860 | 997 | 1 562 |
| Poliomielit və serebral iflic qalığı olan uşaqlar | 2 968 | 88 | 299 | 544 | 333 | 575 | 1 129 |
| Skoliozlu (onurğa sümüyünün əyilməsi xəstəliyi olan) uşaqlar | 2 901 | 14 | 79 | 177 | 237 | 661 | 1 733 |

**Qaçqın uşaqların səhiyyə vəziyyəti ilə bağlı məlumat.**
**Əlillər.**

| Rayon | Ümumi | 1 yaşa qədər | 1-4 yaş | 5-17 yaş |
|---|---|---|---|---|
| Ağdam | 328 | 0 | 38 | 290 |
| Cəbrayıl | 1152 | 22 | 512 | 618 |
| Kəlbəcər | 91 | 1 | 5 | 85 |
| Qubadlı | 21 | 0 | 0 | 21 |
| Laçın | 191 | 0 | 13 | 178 |
| Füzuli | 44 | 0 | 6 | 38 |
| Xocavənd | 38 | 6 | 10 | 22 |
| Şuşa | 22 | 0 | 0 | 22 |
| Xocalı | 192 | 0 | 28 | 164 |
| Cəmi | 2079 | 29 | 612 | 1438 |

**2008-ci ildə qeydiyyatdan keçmiş xəstələrin ümumi sayı. Uşaqlar (0-13 yaş).**

| Rayon | Ümumi | Qızlar |
|---|---|---|
| Ağdam | 5452 | 2867 |
| Cəbrayıl | 988 | 390 |
| Kəlbəcər | 661 | 273 |
| Laçın | 3556 | 1870 |
| Füzuli | 5049 | 2221 |
| Xocavənd | 2743 | 1420 |
| Şuşa | 460 | 207 |
| Xocalı | 542 | 232 |
| Cəmi | 19451 | 9480 |

**2008-ci ildə qeydiyyatdan keçmiş xəstələrin ümumi sayı.**
Yeniyetmələr (14-17 yaş daxil olmaqla).

| Rayon | Ümumi | Qızlar |
|---|---|---|
| Ağdam | 1290 | 391 |
| Cəbrayıl | 1216 | 459 |
| Kəlbəcər | 296 | 135 |
| Laçın | 503 | 289 |
| Füzuli | 1709 | 784 |
| Xocavənd | 731 | 421 |
| Şuşa | 588 | 210 |
| Xocalı | 293 | 135 |
| Cəmi | 6626 | 2824 |

**2008-ci il. Əlil uşaqlar.**

| **1. Kar uşaqlar** | **Şəhər** | **Kənd** | **Ümumi** |
|---|---|---|---|
| Ağdam | 0 | 0 | 0 |
| Cəbrayıl | 0 | 0 | 0 |
| Kəlbəcər | 0 | 5 | 5 |
| Laçın | 8 | 11 | 19 |
| Füzuli | 0 | 2 | 2 |
| Xocavənd | 0 | 0 | 0 |
| Şuşa | 0 | 0 | 0 |
| Xocalı | 0 | 4 | 4 |
| Cəmi | 8 | 22 | 30 |

| **2. Pis eşidən uşaqlar** | **Şəhər** | **Kənd** | **Ümumi** |
|---|---|---|---|
| Ağdam | 3 | 19 | 22 |
| Cəbrayıl | 0 | 2 | 2 |
| Kəlbəcər | 0 | 6 | 6 |
| Laçın | 13 | 16 | 29 |
| Füzuli | 2 | 7 | 9 |
| Xocavənd | 0 | 5 | 5 |
| Şuşa | 0 | 0 | 0 |
| Xocalı | 9 | 12 | 21 |
| Cəmi | 27 | 67 | 94 |

| **3. Kor uşaqlar** | **Şəhər** | **Kənd** | **Ümumi** |
|---|---|---|---|
| Ağdam | 0 | 0 | 0 |
| Cəbrayıl | 0 | 0 | 0 |
| Kəlbəcər | 0 | 4 | 4 |
| Laçın | 7 | 8 | 15 |
| Füzuli | 0 | 0 | 0 |
| Xocavənd | 0 | 0 | 0 |
| Şuşa | 0 | 0 | 0 |
| Xocalı | 1 | 0 | 1 |
| Cəmi | 8 | 12 | 20 |

| **4. Pis görən uşaqlar** | **Şəhər** | **Kənd** | **Ümumi** |
|---|---|---|---|
| Ağdam | 6 | 37 | 43 |
| Cəbrayıl | 0 | 7 | 7 |
| Kəlbəcər | 0 | 8 | 8 |
| Laçın | 19 | 26 | 45 |
| Füzuli | 2 | 3 | 5 |
| Xocavənd | 0 | 8 | 8 |
| Şuşa | 37 | 0 | 37 |
| Xocalı | 8 | 12 | 20 |
| Cəmi | 72 | 101 | 173 |

| **5.Əqli inkişafdan** | **Şəhər** | **Kənd** | **Ümumi** |
|---|---|---|---|

| qalmış, zəif olan uşaqlar | | | |
|---|---|---|---|
| Ağdam | 0 | 0 | 0 |
| Cəbrayıl | 0 | 8 | 8 |
| Kəlbəcər | 0 | 8 | 8 |
| Laçın | 24 | 54 | 78 |
| Füzuli | 8 | 1 | 9 |
| Xocavənd | 0 | 2 | 2 |
| Şuşa | 0 | 0 | 0 |
| Xocalı | 5 | 7 | 12 |
| Cəmi | 37 | 80 | 117 |

| **6. Nitq pozğunluğu olan uşaqlar** | **Şəhər** | **Kənd** | **Ümumi** |
|---|---|---|---|
| Ağdam | 4 | 29 | 33 |
| Cəbrayıl | 0 | 5 | 5 |
| Kəlbəcər | 0 | 9 | 9 |
| Laçın | 13 | 19 | 32 |
| Füzuli | 2 | 5 | 7 |
| Xocavənd | 0 | 0 | 0 |
| Şuşa | 0 | 0 | 0 |
| Xocalı | 8 | 11 | 19 |
| Cəmi | 27 | 78 | 105 |

| **7.Poliomielit və serebral iflicli uşaqlar** | **Şəhər** | **Kənd** | **Ümumi** |
|---|---|---|---|
| Ağdam | 0 | 0 | 0 |
| Cəbrayıl | 0 | 0 | 0 |
| Kəlbəcər | 0 | 2 | 2 |
| Laçın | 17 | 14 | 31 |
| Füzuli | 0 | 0 | 0 |
| Xocavənd | 0 | 0 | 0 |
| Şuşa | 1 | 0 | 1 |
| Xocalı | 0 | 0 | 0 |
| Cəmi | 18 | 16 | 34 |

| **8.Skoliozlu uşaqlar** | **Şəhər** | **Kənd** | **Ümumi** |
|---|---|---|---|
| Ağdam | 0 | 0 | 0 |
| Cəbrayıl | 0 | 0 | 0 |
| Kəlbəcər | 0 | 0 | 0 |
| Laçın | 35 | 42 | 0 |
| Füzuli | 0 | 0 | 77 |
| Xocavənd | 0 | 3 | 0 |
| Şuşa | 0 | 0 | 0 |
| Xocalı | 1 | 0 | 1 |
| Cəmi | 36 | 45 | 81 |

## D. Maddə 26. Sosial müdafiə və uşaqlara qayğı xidmətləri (maddə 18-in 3-cü bəndi)

Azərbaycan Respublikası Konstitusiyasının 38-ci maddəsi hər kəsin, o cümlədən uşaqların da sosial təminat hüququnu bəyan edir. İnsanların sosial müdafiəsində isə pensiya təminatı önəmli yer tutur. Ölkədə aparılan pensiya islahatı ilə əlaqədar 2006-cı ilin 7 fevral tarixində iki qanun - "Əmək pensiyaları haqqında" və "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının qanunları qəbul edilmişdir. Həmin qanunlarda uşaqların sosial müdafiəsinin, o cümlədən onların ailə başçısını itirməyə görə pensiya və ya sosial müavinət təminatının yaxşılaşdırılması istiqamətində bir sıra mühüm normalar müəyyən edilmişdir.

Eyni zamanda Azərbaycan Respublikasının 2007-ci il 6 noyabr tarixli Qanunu ilə "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanunun 18-ci maddəsinə dəyişiklik edilmişdir. Həmin dəyişikliklərə əsasən ailə başçısını itirməyə görə əmək pensiyasının baza hissəsinin məbləği hər iki valideynini itirmiş uşaqların və vəfat etmiş tənha ananın uşaqlarının hər biri üçün, habelə vəfat etmiş ailə başçısının bir ailə üzvü olduqda və ya bu qanunun 14.1-ci maddəsinə əsasən pensiya hüququ olan bir ailə üzvü qaldıqda həmin şəxs üçün yaşa görə əmək pensiyasının baza hissəsinin 100 faizi məbləğində, digər ailə üzvlərinin hər biri üçün isə yaşa görə əmək pensiyasının baza hissəsinin 50 faizi məbləğində hesablanır.

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 19-cu maddəsinə əsasən öhdəsində əmək qabiliyyəti olmayan ailə üzvləri olan işləməyən I və II qrup əlillərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərə ailənin əmək qabiliyyəti olmayan hər üzvü üçün yaşa görə əmək pensiyasının baza hissəsinin 5 faizi məbləğində əmək pensiyasının baza hissəsinin üzərinə əlavə hesablanır.

Yaşa görə əmək pensiyasının baza hissəsinin məbləği ildə bir dəfədən və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən müəyyən olunan istehlak qiymətləri indeksinin illik səviyyəsindən az olmamaqla artırılır. Həmin Qanunun 29.2-ci maddəsinə əsasən əmək pensiyasının sığorta hissəsi ildə bir dəfədən az olmamaqla və Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən müəyyən olunan istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq indeksləşdirilir. Həmin maddənin icrası olaraq əmək pensiyasının sığorta hissəsi 2007-ci ilin 1 yanvar tarixindən 8,3%, 2008-ci ilin 1 yanvar tarixindən isə 16,7% artırılmışdır. Bu da ailə başçısını itirməyə görə əmək pensiyası ilə təmin olunmuş uşaqların sosial müdafiəsinə öz müsbət təsirini göstərir.

"Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinə əsasən müavinətlərin məbləği Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir və ildə bir dəfədən az olmamaq şərti ilə indeksləşdirilir. Həmin Qanunun icrası olaraq sosial müavinətlərin məbləği "Sosial müavinətlərin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 avqust tarixli Fərmanı əsasında artırılmışdır.

2009-cu ilin 1 aprel tarixi vəziyyətinə ölkədə 11,7 min ailədə olan 22,8 min uşağa aylıq sosial müavinət təyin olunmuşdur.

Uşaqların sosial təminatının yaxşılaşdırılmasında Azərbaycan Respublikası Prezidentinin bir sıra fərmanları ilə müəyyən olunan Prezident təqaüdləri də xüsusi əhəmiyyətə malikdir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2005-ci il 14 iyul tarixli, "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2006-cı il 19 yanvar tarixli, "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2006-cı il 19 dekabr tarixli fərmanları ilə müvafiq olaraq 600 manat, 300 manat və 100 manat məbləğində Prezident təqaüdləri təsis edilmişdir. Bu təqaüdlər isə göstərilən kateqoriyadan olan ailələrin uşaqlarının sosial müdafiəsində mühüm əhəmiyyətə malikdir.

Məktəbəqədər təhsil sisteminin müasir tələblər səviyyəsində qurulması, məktəbəqədər yaşlı uşaqların intellektual, fiziki, və psixoloji inkişafı üçün lazımi şəraitin yaradılması, onların

şəxsiyyətinin formalaşması və məktəbə hazırlanması işinin qabaqcıl beynəlxalq standartlara uyğunlaşdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 12 aprel tarixli 2089 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007-2010-cu illər)" təsdiq edilmişdir.

Azərbaycanda 1,612 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. 1-5 yaş qrupuna daxil olan uşaqların məktəbəqədər təhsilə cəlb edilməsi 2007-ci ildə respublika üzrə 17,2 %, o cümlədən şəhərlərdə 27%, kənd yerlərində 9% olmuşdur.

Uşaqlar üçün qayğı xidmətlərinin yaradılması məqsədi ilə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi nəzdində fəaliyyət göstərən Uşaq və ailələrə dəstək mərkəzlərinin şəbəkəsinin genişləndirilməsi istiqamətində iş aparır. Belə ki, Dövlət Komitəsi yarandığı vaxtdan regionlarda mütəmadi olaraq görüşlər keçirir. Bu görüşlərdə müxtəlif istiqamətlərdə uşaqlarla bağlı həyata keçirilən tədbirlərin icrası monitorinq edilir.

Uşaqların müəssisələrə düşməsinin qarşısını almaq məqsədi ilə yerli səviyyələrdə icma qayğı xidmətlərinin təşkili istiqamətində Dövlət Komitəsi yerlərdə ictimai əsaslarla fəaliyyət göstərən "Valideyn birlikləri"nin yaradılmasına dəstək verir və onlarla mütəmadi iş aparır. Valideynlərin maarifləndirilməsi təşkil edilir. Dövlət Komitəsi mütəmadi olaraq valideynlərlə görüşlər təşkil edir və onları öz uşaqlarının vəkilləri olmağa həvəsləndirir, valideyn məsuliyyətini artıracaq proqram və layihələrin işlənməsinə daha çox üstünlük verir.

Dövlət Komitəsinin nümayəndələri xarici ölkələrdə keçirilən təcrübə mübadilələrində iştirak yolu ilə ölkədə yeni uşaq qayğı sisteminin formalaşması istiqamətində təcrübə toplayır və bu təcrübənin tətbiqini təmin edirlər.

Dövlət Komitəsi beynəlxalq əməkdaşlığa çox açıqdır və yarandığı gündən mütəmadi olaraq mötəbər beynəlxalq konfranslarda iştirak edir. Avropa Şurasının həyata keçirdiyi beynəlxalq layihə çərçivəsində həyata keçirilən konfranslarda və BMT-nin baş Assambleyasında minilliyin inkişaf istiqamətləri mövzusunda həyata keçirilən tədbirlərdə aktiv iştirak etmişdir.

İl ərzində işçilər yeni təlimlərlə təlimləndirilir və bu təlimlər beynəlxalq təcrübəli mütəxəssis və treynerlər tərəfindən hazırlanır. Artıq Dövlət Komitəsi özü master uşaq qayğı xidmətləri, Uşaq hüquqları, reproduktiv sağlamlıq, ailə planlanması və digər istiqamətlərdə master treynerlər hazırlamış və həmin təlimçilər bu istiqamətlərdə digər qurumların nümayəndələrinin mütəmadi olaraq təlimləndirilməsini həyata keçirirlər. Belə ki, "Uşaq ili" çərçivəsində bu təlimlərin ümumrespublika səviyyəsində daha geniş formada davam etdirilməsi və əhalinin bütün təbəqələrindən olan nümayəndələrin bu təlimlərdə iştirakının təmin olunması nəzərdə tutulmuşdur. Dövlət Komitəsində təşkil olunmuş Uşaq hüquqları məktəbi vasitəsi ilə həmyaşıdların həmyaşıdları təlimləndirməsi həyata keçirilməkdədir.

"Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikasının 2005-ci il 21 oktyabr tarixli Qanunu ünvanlı dövlət sosial yardımının göstərilməsinin məqsəd və prinsiplərini, təyin olunmasının hüquqi əsaslarını və bu sahədə yaranan digər münasibətləri tənzimləyir.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 114-116-cı maddələrində valideyn himayəsindən məhrum olan uşaqların hüquq və mənafelərinin müdafiəsi tədbirləri nəzərdə tutulmuşdur.

"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" 1999-cu il 22 iyun tarixli Azərbaycan Respublikası Qanununun 3-cü və 9-cu maddələrinə əsasən valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, habelə onların arasından olan şəxslərin sosial müdafiəsi mövcud qanunvericiliyə uyğun olaraq dövlət tərəfindən təmin olunur və qorunur. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, habelə onların arasından olan şəxslərin hüquqlarının və qanunla qorunan mənafelərinin müdafiəsini onların özləri, qanuni nümayəndələri, qəyyumları (himayəçiləri), müvafiq icra hakimiyyəti, məhkəmə və prokurorluq orqanları, bələdiyyələr, habelə ictimai birliklər və həmkarlar ittifaqı təşkilatları Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada həyata keçirirlər.

“Uşaq hüquqları haqqında” Azərbaycan Respublikası Qanununun 36-cı maddəsinə müvafiq olaraq yetkinlik yaşına çatmayan şəxs postvaksinal fəsadla əlaqədar xəstəliyə tutulduqda ona qanunvericilikdə müəyyən edilən qaydada sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilənədək onun valideynlərindən biri və ya qanuni nümayəndəsi faizsiz iş stajından asılı olmayaraq, orta əmək haqqının 100 faizi miqdarında müavinət almaq hüququna malikdir.

Həmin Qanunun 13-cü maddəsində uşağın Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş minimum dolanacaq xərclərindən az olmayan maddi təminat almaq hüququ nəzərdə tutulmuşdur.

Sosial yardımlar uşaqların mənafelərinə uyğun sərf olunmalıdır.

## E. Maddə 27. Həyat səviyyəsi

“Yaşayış minimumu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycan Respublikasında yaşayış minimumunun formalaşdırılması zamanı əhalinin yaş-cins əlamətlərinə, sosial vəziyyətlərinə görə fərqlənən əsas sosial-demoqrafik qrupları, o cümlədən 0-15 yaşlı uşaqlar üzrə yaşayış minimumunun dəyərinin hesablanması nəzərdə tutulmuşdur.

2009-cu il üçün yaşayış minimumu ölkə üzrə 84 manat, o cümlədən əməkqabiliyyətli əhali üçün 92 manat, pensiyaçılar üçün 65 manat, uşaqlar üçün 69 manat məbləğində müəyyən edilmişdir.

Məcburi köçkünlərin sosial müdafiəsini gücləndirmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 26 avqust tarixli Sərəncamı ilə məcburi köçkünlərə adambaşına yemək xərci üçün verilən aylıq müavinətin məbləği 50% artırılaraq 13.5 manata çatdırılmışdır.

Məlum olduğu kimi, uşaqlar yoxsulluğa ən həssas qruplardır. Aparılmış ev təsərrüfatlarının müayinəsinin nəticələrinə görə 2002-ci ildə ölkə üzrə yoxsulluq səviyyəsi 46,7% təşkil etdiyi halda, ölkədə aparılan uğurlu sosial-iqtisadi islahatların real nəticəsi olaraq 2007-ci ildə yoxsulluq səviyyəsi 2002-ci ilə nisbətən 3 dəfə azalaraq 15.8% təşkil etmişdir (yoxsulluq həddi 2002-ci ildə 24 manat, 2007-ci ildə isə 70 manat olmuşdur). Bu da öz növbəsində müvafiq olaraq uşaqlar arasında da yoxsulluq səviyyəsinin aşağı düşməsi ilə nəticələnmişdir.

BMT-nin Uşaq Hüquqları Komitəsinin Azərbaycan Hökumətinə 2006-cı ildə təqdim etdiyi tövsiyənin 17-ci maddəsində 4-cü maddə ilə bağlı tövsiyələri nəzərə alaraq uşaqların sosial rifah halının yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikasının İnsan hüquqları üzlə müvəkkilinin (Ombudsmanın) təşəbbüsünə əsasən Milli Məclisdə “Uşaqların dostu” büdcəsi müzakirə edilir. Uşaqların sosial təminatının yaxşılaşdırılması məqsədilə İnsan hüquqları üzlə müvəkkil (Ombudsmanın) müddətli xidmətdə olan hərbi qulluqçuların uşaqlarına, şəhid uşaqlarına və müharibə əlillərinin, 20 Yanvar hadisələri zamanı əlil olanların, Çernobıl qəzası nəticəsində I və II qrup əlil olmuş, yaxud vəfat etmiş valideynlərin uşaqlarına, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) ödənilən müavinətlərin məbləğlərinin artırılması ilə bağlı müraciət etmişdir.

Ailədə uşaqların sayı artdıqca yoxsulluq riski də artır. Bu səbəbdən Minilliyin İnkişaf Məqsədlərinə müvafiq olaraq Azərbaycan Respublikası ölkədə yoxsulluğun azaldılması istiqamətində tədbirləri davam etdirir. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 15 sentyabr tarixli Sərəncamı ilə “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı” təsdiq edilmişdir.

2003-cü ildə həmin məqsədlərə büdcədən cəmi 153,6 milyon manat həcmində vəsait xərclənmişdirsə, 2007-ci ildə bu xərclərin həcmi 578,4 milyon manat təşkil etmişdir. Bu müddətdə əhalinin real pul gəlirləri 2003-cü illə müqayisədə 2,5 dəfə artaraq, 2007-ci ildə 14305,6 milyon manat və ya adambaşına 1690,3 min manat təşkil etmişdir. Adambaşına düşən aylıq pul gəlirləri 2002-ci ildəki 43,4 manatdan 2007-ci ildə 140,9 manata çatmış və ya 3,3 dəfə artmışdır. İşləyənlərin orta aylıq əmək haqqı ilbəil artaraq 2002-ci ildəki 63,1 manatdan 2007-ci ildə 214 manata çatmış və

ya 3,4 dəfə yüksəlmiş, qeyri-dövlət sektorunda orta aylıq əmək haqqı 324,9 manat və ya dövlət sektoruna nisbətən 90 faiz çox olmuşdur. Son 5 ildə respublikanın hərbi qulluqçularının vəzifə maaşları 4 dəfə, səhiyyə, mədəniyyət, sosial təminat və digər büdcə təşkilatlarında əmək haqqı orta hesabla 4 dəfə, təhsil müəssisələrində aylıq əmək haqqı 5 dəfə artmışdır. Respublika üzrə minimum əmək haqqı 2003-cü ildəki 5,5 manatdan 75 manata qaldırılmışdır. Əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi məqsədilə regionlarda aparılan məqsədyönlü işlər nəticəsində 2003-cü ilin oktyabrından başlayaraq 643,4 min yeni iş yeri açılmışdır. Bu iş yerlərinin əksəriyyəti qeyri-neft sektorunu və 81,4 faizi ölkənin regionlarını əhatə etmişdir.

Uşaqların ibtidai və orta təhsil əldə etmək üçün bərabər imkanların genişləndirilməsi məqsədilə 2003/2004-cü tədris ilindən başlayaraq dövlət ümumtəhsil məktəblərinin bütün şagirdləri pulsuz dərsliklərlə təmin edilmişdir. Tədrisin keyfiyyətinin yaxşılaşdırılması üçün bir sıra tədris proqramları yenilənmiş, təhsil işçilərinin əmək haqları artırılmış, təhsilin maddi-texniki bazasının təkmilləşdirilməsi sahəsində tədbirlər həyata keçirilmişdir.

**Aztəminatlı ailələrə verilən ünvanlı dövlət sosial yardımı**

(Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatlarına əsasən, ilin əvvəlinə)

| | 2007 | 2008 |
|---|---|---|
| Ünvanlı dövlət sosial yardımı alan ailələrin sayı | 48705 | 78092 |
| Ünvanlı dövlət sosial yardımı alan ailə üzvlərinin sayı, nəfər | 218673 | 364059 |
| onlardan qadınlar | 83529 | 168007 |
| 1 nəfərə düşən orta aylıq ünvanlı dövlət sosial yardımının məbləği, manat | 8,36 | 17, 38 |

## VII. TƏHSİL, ASUDƏ VAXT VƏ MƏDƏNİ-KÜTLƏVİ FƏALİYYƏT

### A. Maddə 28. Təhsil və təlim

Azərbaycan Respublikasında 4.555 ümumtəhsil məktəbi, 42 ali təhsil müəssisəsi, 589 uşaq poliklinikası və ambulatoriyası, 4 körpələr evi, 6 uşaq evi, valideyn himayəsindən məhrum olan uşaqlar üçün 2 internat məktəbi, sağlamlıq imkanları məhdud olan uşaqlar üçün 14 xüsusi internat məktəbi, əqli cəhətdən geri qalan uşaqlar üçün 2 internat evi, 34 ümumi tipli internat evi, 15 uşaq sanatoriyası, 234 uşaq musiqi və incəsənət məktəbi, 8 uşaq teatrı, 103 uşaq kitabxanası, 9.308 idman müəssisəsi fəaliyyət göstərir.

Orta təhsil əhatə dairəsi və miqyasına görə təhsil sisteminin ən böyük pilləsidir. 2007/2008-ci tədris ilində respublikada 4538 dövlət və 17 qeyri-dövlət gündüz ümumtəhsil məktəblərində 1,5 mln şagird təhsil almışdır. Hazırda ümumtəhsil məktəblərinin 45,5%-də bir növbədə, 54,5%-də isə iki və ya üç növbədə dərslər aparılır. Yəni şagirdlərin 74,3%-i birinci növbədə, 25,7%-i isə ikinci və üçüncü növbələrdə təhsil alırlar. Dövlət vəsaitləri və digər mənbələr hesabına respublikada son illərdə 300.000 yerlik 1360 yeni məktəb binası tikilmiş, 300-dək məktəb əsaslı təmir edilmişdir.

Texniki peşə təhsili, ənənəvi olaraq. əsas təhsil pilləsində nailiyyət göstəriciləri aşağı olan şagirdlər üçün seçim imkanı olmaqla, əsasən orta və aşağı gəlirli ailələrdən olan şagirdləri cəlb etməyə meyllidir. 2008-ci ilin dövlət büdcəsində ümumi təhsil xərclərinin yalnız 5,2%-i texniki peşə təhsili və liseylər üçün nəzərdə tutulmuşdur. Azərbaycanda orta məktəb məzunlarının 4,2%-i texniki peşə təhsili ilə əhatə olunmuşdur. Azərbaycanın ümumilikdə və müxtəlif sahələr üzrə sosial iqtisadi inkişaf templəri göstərir ki, yaxın gələcəkdə ilkin peşə təhsili mütəxəssislərə böyük tələbat olacaqdır.

Texniki peşə təhsilinin əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 3 iyul tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər) təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən təhsil sisteminin müxtəlif sahələrinin inkişafı istiqamətində bir sıra dövlət proqramları təsdiq edilmişdir.

Azərbaycan Respublikası üzrə dövlət ümumtəhsil müəssisələrində təhsil alan şagirdlərin sayı:

2004-2005-ci dərs ilində -1.629831 nəfər

I-IV hazırlıq və I-IV siniflərdə 563149 nəfər

V-IX siniflərdə 806711 nəfər

X-XI siniflərdə 250511 nəfər;

2005-2006-cı dərs ilində -1.581173 nəfər

V-IX siniflərdə 793110 nəfər

X-XI siniflərdə 244782 nəfər;

2006-2007-ci dərs ilində - 1.531226 nəfər:

I-IV hazırlıq və I-IV siniflərdə - 508304 nəfər

V-IX siniflərdə 764573 nəfər

X-XI siniflərdə 248667 nəfər.

Təhsilin müasir standartlara cavab verməsi üçün təhsilin bütün pillələrində informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi aparıcı amildir. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 21 avqust tarixli 355 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005-2007-ci illər)" çərçivəsində məktəblərin kompüter və digər informasiya kommunikasiya texnologiyaları avadanlığı ilə təmin edilməsi çox mühüm əhəmiyyətə malik olmuşdur. 2007-ci ilin göstəricilərinə əsasən, ölkədə orta məktəblərin 65%-i müasir kompüterlərlə təmin olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 10 iyun tarixli 2856 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı"nda təhsil sisteminin bütün pillələrində şəbəkə infrastrukturunun inkişafı və sürətli internetə çıxışın təmin olunması, məlumat və resurs mərkəzlərinin yaradılması nəzərdə tutulmuşdur.

Azərbaycanın birinci xanımı, Milli Məclisin deputatı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Yeniləşən Azərbaycan üçün yeni məktəb" layihəsi çərçivəsində son illərdə Azərbaycanın 62 bölgəsində 75.000-dən artıq şagird üçün nəzərdə tutulmuş 283 məktəb binası inşa olunmuş və yenidən təmir olunmuşdur. Bu məktəblərin hər birində laboratoriya, kitabxana, yeməkxana, kompüter otaqları, emalatxana, idman zalları, geniş meydançalar və ayrıca istilik sistemi vardır.

Ötən il bir çox təhsil müəssisələrinin yeni korpuslarının inşasına, əsaslı təmirinə və qəza vəziyyətində olan məktəblərin bərpasına Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 34.000.000.manat vəsait ayrılmışdır. Son iyirmi ildə Bakıda ilk dəfə olaraq 11 müasir tipli yeni uşaq bağçası istifadəyə verilmişdir.
Milli Məclisin 19 iyun 2009-cu il tarixində iclasında " Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Qanun çərçivə xarakteri daşıyır və bu sahədə digər qanunların qəbulu üçün əsasların müəyyən edir.

Bundan əvvəlki "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu 7 oktyabr 1992-ci ildə qəbul olunmuşdu və dövrün tələblərinə cavab verilmişdir.

**2008/2009-cu dərs ilinin əvvəlinə respublika üzrə ümumtəhsil məktəbləri haqqında məlumat:**

| | | Məktəblərin sayı | | Şagirdlərin sayı | | O cümlədən qızların sayı | | Müəllim həyəti | | O cümlədən qadınların sayı | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Dövlət | Qeyri dövlət | Dövlət | Qeyri dövlət | Dövlət | Qeyri dövlət | Dövlət | Qeyri dövlət | Dövlət | Qəyri dövlət |
| 1 | **Ümumtəhsil məktəbləri** | **4540** | **17** | **1424353** | **7162** | **669200** | **1660** | **173226** | **1151** | **126360** | **686** |
| | o cümlədən | | | | | | | | | | |
| a | **Yetim və valideyn himayəsindən məhrum olan uşaqlar üçün internat məktəbləri** | **2** | | **415** | | **103** | | **56** | | **40** | |
| b | **Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün xüsusi internat məktəbləri** | **19** | | **6448** | | **2445** | | **1526** | | **1301** | |

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 aprel tarixli Sərəncamı ilə "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramının (2006-2010-cu illər)" təsdiq edilmiş və həyata keçirilməyə başlamışdır ki, bu Dövlət Proqramının həyata keçirilməsində əsas məqsəd istedadlı uşaqların aşkara çıxarılması, onların potensial imkanlarının inkişaf etdirilməsi və səmərəli təhsil almaları üçün lazımi şəraitin yaradılmasıdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 3 fevral tarixli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı (2005-2009-cu illər)"nda bu qəbildən olan uşaqlar üçün xüsusi təhsil müəssisələrinin açılması, mövcud internat və xüsusi məktəblərin maddi-texniki təchizatının gücləndirilməsi, xüsusi tədris proqramlarının və tədris vəsaitlərinin yaradılması istiqamətində konkret tədbirlər müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yerli qayğı mərkəzlərində uşaqların təhsilə hazırlığı və onların inkişafı baxımından müxtəlif proqramlar həyata keçirir. Həmin proqramlara əsasən müxtəlif səbəblərdən təhsildən geri qalan, müəssisədən ailəyə qayıdan və müəssisəyə düşmə ehtimalı olan uşaqlarla iş aparılaraq onların yenidən təhsilə cəlb edilməsi həyata keçirilir. Ötən illərdə bir neçə uşaq müəssisədən ailəyə qaytarılaraq ümumi təhsilə cəlb edilmişlər. Bu isə onların cəmiyyətə inteqrasiyası baxımından çox uğurlu addımdır.

"AQUPDK yerli qayğı mərkəzlərində uşaqların təhsilə hazırlığı və onların inkişafı baxımından müxtəlif proqramlar həyata keçirilir. Belə ki, bu proqramlara müxtəlif səbəblərdən təhsildən geri qalan, müəssisədən ailəyə qayıdan və müəssisəyə düşmə ehtimalı olan uşaqlarla iş aparılaraq onların

yenidən təhsilə cəlb edilməsini həyata keçirir. Ötən illərdə bir neçə uşağın müəssisədən ailəyə qayıdaraq onlar ümumi təhsilə cəlb edilmişlər. Bu isə onların cəmiyyətə inteqrasiyası baxımından çox uğurlu addımdır." abzasına əlavə olaraq bildiririk ki, bu fəaliyyət Təhsil Nazirliyi tərəfindən də həyata keçirilir. Belə ki,6 uşaq bağçasında məktəbəqədər inklusiv təhsil təşkil olunmuşdur, bu da uşaqların məktəbdə inklusiv təhsilə cəlb edilməsinə şərait yaradır. Təhsil Nazirliyinin tabeliyində olan Mingəçevir şəhər Uşaq və Ailələrə dəstək mərkəzində də inklusiv təhsilə cəlb edilmək üçün uşaqlarda müvafiq bilik və bacarıqlar aşılanır. Uşaqların məktəbəqədər yaş dövründən inklusiv təhsilə cəlb olunması, onların sağlamlıq imkanları məhdud olan uşaqlar üçün xüsusi internat məktəblərinə düşməsinin qarşısının alınmasına və inklusiv təhsilin təşkil olunduğu məktəblərdə təhsil alınmasına kömək edir. Azərbaycan Respublikasında 1 xüsusi internat, 9 orta ümumtəhsil məktəbində, Mingəçevir şəhəri Texniki humanitar fənlər təmayüllü lisey və 200 N-li Məktəb-bağça-lisey kompleksində inklusiv təhsil təşkil edilmişdir.

## B. Maddə 29. Təhsilin məqsədləri

Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsində hər bir vətəndaşın təhsil almaq hüququ təsbit olunmuşdur. Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir. Maddi vəziyyətindən asılı olmayaraq istedadlı şəxslərin təhsili davam etdirməsinə dövlət zəmanət verir. Dövlət minimum təhsil standartlarını müəyyən edir.

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 22-ci maddəsinə görə hər bir uşağın Azərbaycan Respublikasının təhsil qanunvericiliyinə uyğun olaraq təhsil almaq hüququ var. Dövlətin təhsil sistemi uşağın şəxsiyyətinin inkişafına, zəruri bilik və bacarıqları tam həcmdə əldə etməsinə şərait yaratmalıdır.

Heydər Əliyev Fondu hər il "Təhsilə dəstək" layihəsi çərçivəsində Ermənistanın Azərbaycana təcavüzü nəticəsində daimi yaşayış yerlərini tərk etmiş qaçqın, məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərinə çanta və məktəb ləvazimatı hədiyyə edir. Həmin layihə tək Azərbaycanda deyil, bir sıra xarici ölkələrdə də həyata keçirilir. Heydər Əliyev Fondu təhsil müəssisələrinin dərs vəsaiti və müxtəlif ədəbiyyatla təchizatına da xüsusi önəm verir.

2007-2008-ci illərdə "Təhsilə dəstək" layihəsi çərçivəsində Heydər Əliyev Fondu tərəfindən əyani vəsait kimi 140 adda plakat hazırlanaraq respublikanın ümumtəhsil məktəblərinə paylanılmışdır. Tədrisin keyfiyyətini yüksəltmək məqsədi ilə ilk dəfə olaraq Azərbaycan dilində müxtəlif fənlər üzrə hazırlanan plakatların hər birindən 10 min nüsxə olmaqla 1 milyon 400 min ədəd plakat çap edilmişdir.

"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının 2006-cı il 10 oktyabr tarixli Qanununun 14-cü maddəsinin tələbinə əsasən dərsliklər gender bərabərliyi prinsipinə əsaslanmalıdır.

Azərbaycan Respublikası Təhsil Nazirinin 2006-cı il 8 fevral tarixli 87 nömrəli əmri ilə "Kurrikulum islahatı" alt-komponenti üzrə icra planına uyğun olaraq, respublikanın ümumtəhsil məktəbləri üçün fənn kurrikulumlarının hazırlanmasının təmin edilməsi məqsədilə İşçi qrupları yaradılmışdır. Həmin işçi qrupları bütün fənlər üzrə Milli kurrikulum layihəsini hazırlamışdır. Azərbaycan Respublikasında milli təhsilin Milli Kurrikulumu ümumi təhsil üzrə təlim nəticələrini və məzmun standartlarını, ümumi təhsilin hər bir pilləsində təyin olunan fənləri, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, təlim nailiyyətlərinin qiymətləndirilməsi və monitorinqi üzrə əsas prinsipləri, fənn kurrikulumlarının strukturunu əhatə edir.

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nda YUNESKO-nun "Təhsil hamı üçün" prinsipinin təbliği, hüquqi maarifləndirmə işinin genişləndirilməsi və insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi məqsədilə insan

hüquqlarının müxtəlif kateqoriyaları üzrə (mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquqlar) əhalinin müxtəlif qrupları (qadınlar, uşaqlar, gənclər, əlillər, ahıllar, qaçqın və məcburi köçkünlər, məhkumlar, hərbi qulluqçular, narkomaniya və HİV/AİDS-ə yoluxmuş insanlar) üçün həmin qrup və yerli icmaların köməyindən istifadə etməklə hüquqi maarifləndirmə sahəsində müəllimlərin, məruzəçilərin, təlimatçıların hazırlanması, əhalinin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, ayrı-seçkiliyin qadağan edilməsi, sülh və dözümlülük mədəniyyətinin təbliği məqsədilə Azərbaycan Respublikasının şəhər və rayonlarında maarifləndirmə tədbirlərinin keçirilməsi ölkədə insan hüquqlarının qorunması sahəsində vacib istiqamətlər kimi müəyyən olunmuşdur.

Eyni zamanda:

- təhsilin humanistləşdirilməsi çərçivəsində BMT-nin "Uşaq hüquqlarına dair" Konvensiyası və digər sənədlər Azərbaycan dilinə tərcümə edilərək məktəblərə paylanılmış və öyrənilməsi təşkil edilmişdir;
- Azərbaycan Respublikasında uşaqlara verilən təhsilin bütün formaları onların şəxsiyyətlərini, istedadlarını, əqli qabiliyyətlərini tam həcmdə inkişaf etdirmək məqsədi daşıyır, təhsil qanunvericiliyində bu tələblər nəzərə alınmışdır;
- təhsil müəssisələri və kurrikulumları uşaqlara onların öz dəyərlərinə və fərqli dəyərlərə hörməti aşılayır;
- orta və ali təhsil müəssisələrinin proqramları təkmilləşdirilmiş, dərsliklərdə insan hüquqları mövzularına geniş yer verilmişdir;
- bu istiqamətdə digər məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

**Uşaqlara əlavə təhsil verən tədris müəssisələri**

| | 2003 | | 2004 | | 2005 | | 2006 | | 2007 | | 2008 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Müəssisələrin sayı | Onlarda iştirak edənlər, nəfər | Müəssisələrin sayı | Onlarda iştirak edənlər, nəfər | Müəssisələrin sayı | Onlarda iştirak edənlər, nəfər | Müəssisələrin sayı | Onlarda iştirak edənlər, nəfər | Müəssisələrin sayı | Onlarda iştirak edənlər, nəfər | Müəssisələrin sayı | Onlarda iştirak edənlər, nəfər |
| Cəmi | 376 | 329<br>459 | 379 | 322<br>850 | 384 | 331<br>878 | 384 | 330<br>457 | 384 | 336<br>740 | 384 | 336<br>885 |
| *O cümlədən:*<br>Gənc turistlər və diyarşünaslıq mərkəzləri | 10 | 1080<br>4 | 10 | 1079<br>8 | 10 | 1066<br>9 | 10 | 1073<br>5 | 10 | 1157<br>9 | 10 | 1148<br>5 |
| Şahmat məktəbləri | 60 | 3304<br>1 | 61 | 3282<br>0 | 62 | 3369<br>3 | 62 | 3327<br>7 | 63 | 3457<br>0 | 63 | 3428<br>2 |
| Məktəbdənkən ar tərbiyə müəssisələri | 6 | 7355 | 7 | 9009 | 6 | 8104 | 6 | 8594 | 5 | 7519 | 5 | 7367 |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Uşaq yaradıcılıq mərkəzləri | 82 | 90629 | 82 | 90925 | 84 | 901268 | 84 | 89355 | 84 | 91805 | 85 | 90417 |
| Texniki yaradıcılıq mərkəzləri | 66 | 64358 | 66 | 64471 | 66 | 63035 | 66 | 65966 | 66 | 66114 | 66 | 65898 |
| Ekoloji tərbiyə və təcrübəçilik mərkəzləri | 59 | 55458 | 60 | 57264 | 61 | 56819 | 61 | 57022 | 61 | 57061 | 61 | 57874 |
| Uşaq idman məktəbləri | 86 | 61219 | 87 | 61356 | 89 | 63203 | 88 | 59920 | 89 | 62512 | 87 | 63513 |
| Uşaq və məktəblilər parkı | 2 | 995 | 1 | 455 | 1 | 315 | | | 1 | 315 | 1 | 230 |
| Uşaq-gənclər fiziki hazırlıq kursları | 2 | 1800 | 2 | 1900 | 2 | 1590 | 3 | 2081 | 2 | 1840 | 3 | 2273 |
| Estetik tərbiyə mərkəzləri | 3 | 3800 | 3 | 3852 | 3 | 3182 | 3 | 3192 | 3 | 3425 | 3 | 3546 |
| Digər profilli məktəbdənkənar müəssisələr | | | | | | | 1 | 315 | | | | |

## C. Maddə 31. İstirahət üçün asudə vaxt və mədəni həyat

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə müvafiq olaraq dövlət uşaqların yaradıcılıq qabiliyyətinin, estetik tərbiyəsinin inkişafı üçün müxtəlif müəssisələr yaradır, habelə belə müəssislərin yaradılmasında ictimai təşkilatlara köməklik göstərir.

Tərbiyə müəssisəsində məhkumların asudə vaxtının səmərəli təşkili, onların hərtərəfli inkişafı məqsədilə futbol meydançası, kitabxana, kompüter otağı fəaliyyət göstərir.

Uşaqlar beynəlxalq və milli səviyyədə mütəmadi olaraq hər il yay düşərgələrinə istirahətlərə ezam olunurlar.

Uşaq və yeniyetmələrin incəsənətə cəlb olunmasında, onların bədii-estetik zövqünün formalaşmasında əhəmiyyətli rol oynayan uşaq musiqi və incəsənət məktəbləri şəbəkəsi ildən-ilə artır. Son 5 il ərzində Xızı rayonunda (2003), Goranboy rayonunun Borsunlu kəndində (2003), Quba rayonunda (2004) yeni uşaq musiqi məktəbləri açılmışdır. Hazırda Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi sistemində 235 uşaq musiqi, incəsənət və rəssamlıq məktəbi fəaliyyət göstərir ki, bu təhsil ocaqlarında 70 000-dən çox uşaq və yeniyetmə musiqi, rəqs, təsviri incəsənət sahəsində ilkin təhsil alırlar.

İstedadlı uşaq və gənclərin aşkara çıxarılması, onların potensial imkanlarının inkişaf etdirilməsi və səmərəli təhsil almaları üçün lazımi şəraitin yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 aprel tarixli 1414 nömrəli Sərəncamı ilə "Xüsusi istedada malik olan

uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)" təsdiq edilmişdir.

Son illər ərzində Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə incəsənət sahəsində xüsusi istedadı olan onlarla uşaq və yeniyetmənin adı Azərbaycanın gənc istedadlarının “Qızıl kitabı”na yazılmış və onlar Azərbaycan Respublikası Prezidentinin xüsusi aylıq təqaüdünə layiq görülmüşlər.

Qeyd etmək lazımdır ki, respublikada hər bir istedadlı uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərində heç bir ödəniş olmadan təhsil ala bilər. Bu məktəblərə şagird qəbul edilərkən irqi, cinsi, dini, milli, ictimai mənşə üzrə ayrı-seçkiliyə yol verilmir.

Respublikanın kəndlərində uşaqların incəsənətə cəlb edilməsi məsələsinə böyük önəm verilir. Uşaq musiqi və incəsənət məktəblərinin 70-dən çoxu kəndlərdə fəaliyyət göstərir.

Qaçqın və məcburi köçkün ailələrindən olan uşaqların incəsənət sahəsinə cəlb olunmalarına, təhsil almalarına xüsusi diqqət yetirilir. Erməni işğalına məruz qalmış rayonların musiqi və incəsənət məktəbləri məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı yerlərdə öz fəaliyyətlərini davam etdirirlər. Hazırda Ağdam, Cəbrayıl, Füzuli, Xocalı, Xocavənd, Kəlbəcər, Laçın, Şuşa, Zəngilan rayonlarının 41 uşaq musiqi və incəsənət məktəbi respublikanın müxtəlif bölgələrində - Bakı, Gəncə, Mingəçevir, Naftalan, Sumqayıt, Yevlax şəhərlərində, Ağcabədi, Bərdə, Beyləqan, Biləsuvar, Saatlı rayonlarında fəaliyyətlərini bərpa etmişlər.

Respublikada xoreoqrafiya sahəsində ixtisaslı artist kadrları hazırlayan yeganə tədris ocağı Bakı Xoreoqrafiya Məktəbidir. Hazırda Xoreoqrafiya Məktəbində 400-dən çox şagird və tələbə təhsil alır ki, onların arasında ölkəmizin müxtəlif guşələrindən - Lənkəran, Mingəçevir, Sumqayıt, Şəki, Şirvan şəhərlərindən, Biləsuvar, Qax, Qobustan rayonlarından uşaqlar var. Burada onların qalması və təhsil alması üçün hər cür şərait yaradılır, şagirdlər yataqxana və yeməklə təmin olunurlar. Məktəbdə həmçinin valideyn himayəsindən məhrum olmuş uşaqların tərbiyə aldığı "Ümid yeri" Cəmiyyətindən, "SOS" uşaq kəndindən uşaqlar təhsil alır. Onlar məktəbdə hərtərəfli qayğı ilə əhatə olunmuşlar.

Respublikada zəngin xor mədəniyyətinin qorunub saxlanılması və inkişaf etdirilməsi, uşaq musiqi və incəsənət məktəblərində xor fənninin tədrisinin səviyyəsinin yüksəldilməsi, uşaqlarda kiçik yaşlarından xor sənətinə maraq oyadılması məqsədilə 2003-cü ildən başlayaraq hər il uşaq xor kollektivlərinin baxış, festival və müsabiqələri keçirilir. Qeyd etmək lazımdır ki, bu müsabiqə və festivalların iştirakçılarının sayı ildən-ilə artır, xor kollektivlərinin ifaçılıq səviyyəsi getdikcə yüksəlir. 2004 və 2005-ci illərdə uşaq musiqi və incəsənət məktəbləri xor kollektivlərinin müsabiqələrində 9-10 min uşaq və yeniyetmə iştirak etmişdisə, 2006 və 2007-ci ildə keçirilmiş müsabiqələrdə iştirakçıların sayı 12 000-dən çox olmuşdur. Respublikanın şəhər və rayonlarından uşaq xor kollektivlərinin iştirak etdiyi müsabiqələr yüksək səviyyədə keçərək əsl musiqi bayramına çevrilirlər. Münsiflər heyətinin qərarına əsasən müsabiqədə fərqlənən məktəblər, xormeyster və konsertmeysterlər pul mükafatlarına, diplom və fəxri fərmanlara layiq görülürlər. 2008-ci ilin aprel ayında zonalar üzrə Bakı, Şirvan, Gəncə, Lənkəran, Naxçıvan, Sumqayıt, Şəki şəhərlərində keçirilmiş Uşaq musiqi və incəsənət məktəbləri xor kollektivlərinin respublika baxışında 158 uşaq xor kollektivi iştirak etmişdir.

2007-ci ilin aprel ayında Uşaq musiqi və incəsənət məktəbləri şagirdlərinin simli, nəfəsli və zərb alətləri üzrə respublika müsabiqələri keçirilmişdir. Müsabiqələrdə Naxçıvan Muxtar Respublikasından, Abşeron, Astara, Goranboy, Hacıqabul, Xanlar, Xaçmaz, Qax, Quba, Qusar, Qazax, Qusar, Salyan, Samux, Şuşa, Zaqatala rayonlarından, Bakı, Şirvan, Gəncə, Lənkəran, Sumqayıt, Şəki şəhərlərindən 170-dən çox şagird iştirak etmişdir. Müsabiqələrin nəticələri üzrə şagird, müəllim və konsertmeysterlər pul mükafatlarına, fəxri fərman və tərifnamələrə layiq görülmüşlər. 2008-ci ilin aprel ayında Uşaq musiqi və incəsənət məktəbləri şagirdlərinin xalq çalğı alətləri üzrə müsabiqəsi, Beynəlxalq rəqs gününə həsr olunmuş rəqs kollektivlərinin I respublika festivalı keçirilmişdir.

Azərbaycanın mədəni və tarixi abidələrinə, müxtəlif xalqların mədəniyyətlərinə həsr olunmuş respublika sərgilərinin keçirilməsi artıq ənənəvi şəkil almışdır. "Azərbaycanın abidələri uşaqların gözü ilə" (2002, iyun və 2004, fevral), "İrsimiz bizim sərvətimizdir" (2004, oktyabr və 2005, noyabr), "Azərbaycan - doğma yurdum" (2006, dekabr) "Çin uşaqların gözü ilə" (2007, mart) mövzularında uşaq incəsənət və rəssamlıq məktəbləri şagirdlərinin rəsm əsərləri və əl işlərindən ibarət respublika sərgi və müsabiqələrində ölkənin müxtəlif regionlarından yüzlərlə uşaq iştirak edir.

Son illər ərzində azərbaycanlı uşaq və gənclərin xarici ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə əldə etdikləri uğurlar təqdirəlayiqdir.

**Uşaq musiqi, incəsənət və rəssamlıq məktəbləri**

| | *2000* | *2001* | *2002* |
|---|---|---|---|
| Uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin sayı (ilin əvvəlinə) | 231 | 234 | 232 |
| Şagirdlərin sayı, nəfər | 69099 | 71533 | 71935 |

| | *2003* | *2004* | *2005* | *2006* | *2007* | *2008* |
|---|---|---|---|---|---|---|
| Uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin sayı (ilin əvvəlinə) | 232 | 232 | 232 | 236 | 234 | 234 |
| Şagirdlərin sayı, nəfər | 71935 | 72987 | 72979 | 72005 | 70188 | 70182 |

**Uşaq teatrları**

| | *2000* | *2001* | *2002* |
|---|---|---|---|
| Teatrların sayı (ilin əvvəlinə) | 6 | 6 | 6 |
| Tamaşaların sayı | 1626 | 1642 | 1774 |
| Tamaşaçıların sayı, min nəfər | 211 | 224 | 223 |

| | *2003* | *2004* | *2005* | *2006* | *2007* | *2008* |
|---|---|---|---|---|---|---|
| Teatrların sayı (ilin əvvəlinə) | 6 | 6 | 8 | 8 | 8 | 8 |
| Tamaşaların sayı | 1774 | 1596 | 1422 | 1339 | 1211 | 1104 |
| Tamaşaçıların sayı, min nəfər | 223 | 190 | 130 | 121 | 110 | 121 |

**Uşaq kitabxanaları**

| | *2000* | *2001* | *2002* |
|---|---|---|---|
| Kitabxanaların sayı (ilin əvvəlinə) | 112 | 105 | 106 |
| Oxucuların sayı, min nəfər | 338 | 232 | 296 |

| | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|---|---|
| Kitabxanaların sayı (ilin əvvəlinə) | 106 | 105 | 106 | 103 | 103 | 103 |
| Oxucuların sayı, min nəfər | 296 | 291 | 302 | 293 | 286 | 264 |

Yay mövsümündə dövlət uşaq müəssisələrində yay düşərgələri yaradılır. Bir qisim dövlət uşaq müəssisələrinin Azərbaycanın səfalı rayonlarında yay düşərgələri vardır. Yay mövsümündə müəssisələrdə qalan uşaqlar həmin istirahət düşərgələrinə köçürülür. Ayrıca düşərgəsi olmayan müəssisələr də yay düşərgəsi rejiminə keçir və hər yay ay üçün tədbirlər planı hazırlanır. Plana uyğun olaraq uşaqların istirahətinin səmərəli təşkil edilməsi üçün gündəlik tədbirlər həyata keçirilir. Yaya tətili müddətində uşaqların respublikanın digər səfalı guşələrinə də 1 və 3 günlük səfəri təşkil edilir.

Bununla yanaşı, yay müddəti ərzində dövlət uşaq müəssisələrində olan uşaqlar xəstəliklərin müalicəsi ilə bağlı Səhiyyə Nazirliyinin senator tipli müəssisələrinə göndərilirlər.

Suraxanı rayonu 7 N-li internat məktəbi və Qaradağ rayonu 14 N-li internat məktəbində həmin ərazidə yaşayan aztəminatlı ailələrin sağlamlıq imkanları məhdud uşaqları da cəlb edilməklə yay düşərgəsi təşkil edilir.

## VIII. XÜSUSİ MÜDAFİƏ METODLARI

### A. Fövqəladə vəziyyətdə olan uşaqlar

### 1.Maddə 22. Qaçqın uşaqlar

Azərbaycan Respublikası 1992-ci ilin dekabrında BMT-nin 1951-ci il "Qaçqınların statusu haqqında" Konvensiyasına və onun 1967-ci il Protokoluna qoşulmuş, qaçqınlar, məcburi köçkünlər və sığınacaq axtaran şəxslərlə bağlı beynəlxalq normalara tam uyğun hüquqi baza yaradılmış və bir sıra qanunlar qəbul edilmişdir.

Azərbaycan Respublikası əhalinin bu həssas təbəqəsinin ehtiyaclarını ödəmək üçün həm hüquqi, həm də sosial-iqtisadi sahədə böyük işlər görmüş və görməkdə davam edir. Belə ki, 1994-cü ildə "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında", 1997-ci ildə "Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin xüsusi sənədləri haqqında Əsasnaməsinin təsdiq edilməsi barədə", 1998-ci ildə "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında", "İmmiqrasiya haqqında", 1999-cu ildə "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", 2000-ci ildə "Azərbaycan Respublikası hökuməti və Beynəlxalq Miqrasiya Təşkilatı arasında Əməkdaşlıq Sazişinin təsdiq edilməsi barədə", 2002-ci ildə "Azərbaycan Respublikasında immiqrant statusunu təsdiq edən sənədin formasının təsdiq edilməsi haqqında", "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası ərazisindən tranzit keçidi qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" qanunlar və s. qəbul edilmişdir.

"Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan

Respublikasının qanunlarına görə qaçqınlar, məcburi köçkünlər və sığınacaq axtaran şəxslər üçün bir çox hüquqlar, vəzifələr və sosial müdafiə tədbirləri nəzərdə tutulmuşdur.

BMT-nin 1951-ci il Konvensiyasının müddəalarına hörmətlə yanaşan dövlətimiz tərəfindən Ermənistandan qovulmuş 250 min azərbaycanlıya, həmçinin 1990-cı ildə Orta Asiyadan ölkəmizə pənah gətirmiş 50 minə qədər Məhsəti türklərinə vətəndaşlıq statusu verilmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin hakimiyyətləri dövründə qaçqın və məcburi köçkünlərin statusu və onların sosial-məişət problemlərinin həlli ilə bağlı hüquqi bazanın yaradılması üçün 25 qanun, Azərbaycan Respublikası Prezidenti tərəfindən 61 fərman və sərəncam, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən 256 qərar və sərəncam qəbul edilmişdir.

Qeyd olunmalıdır ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində 20 000 nəfərdən çox Azərbaycan vətəndaşı həlak olmuş, 100 000 nəfər yaralanmış, 50 000 nəfər isə əlil olmuşdur. Azərbaycanın işğal olunmuş ərazilərindən uşaqlar da daxil olmaqla, 1 milyona qədər əhali misilsiz işgəncələrə və qeyri-insani rəftara məruz qalaraq yurd-yuvalarından zorakılıqla qovularaq öz torpağında qaçqın vəziyyətinə düşmüşdür.

**Qaçqın və məcburi köçkünlərin hüquqlarının həyata keçirilməsi:**

Neft strategiyası öz bəhrəsini verməyə başlayan andan ilk vəsait məhz qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldildi, bu məqsədlə Dövlət Neft Fondundan ayrılmış vəsait hesabına 2001-2008 ci illərdə 12 çadır düşərgəsi ləğv edildi, 18 şəhər və rayonda 56 qəsəbə, 879.4 min kvadrat metr mənzil sahəsi olan 15821 fərdi yaşayış evi, 20505 yerlik 108 məktəb, 34 uşaq bağçası, 4 xəstəxana, 38 tibb məntəqəsi tikildi, 463.95 km uzunluğunda asfalt yol, 5538.48 km su xətti, 826.6 km elektrikötürmə xətti, 140.8 km drenaj şəbəkəsi, 10125 ha irriqasiya sistemləri və s. sosial obyektlər istifadəyə verildi.

**Qaçqınlar:**

- “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə əsasən 1988-ci il yanvarın 1-dən 1992-ci il yanvarın 1-dək Azərbaycan Respublikasının ərazisində məskunlaşmış qaçqınlar Azərbaycan Respublikasının vətəndaşları hesab edilirlər, lakin onlar siyasi mənada “qaçqın” statusunu və öz ölkələrinə qayıtmaq hüququnu saxlayırlar;
- mənzil və ya ev alqı-satqısı zamanı notarial rüsumlardan azaddırlar;
- Təhsil Nazirliyinin 2004-cü il kollegiya qərarına əsasən Ermənistandan olan, 1988-1992-ci illərdə anadan olmuş qaçqınlar dövlət ali və orta ixtisas təhsili müəssisələrində təhsil haqqını ödəməkdən azaddırlar.

**Məcburi köçkünlər:**

- Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli 298 nömrəli “Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Sərəncamının 2-ci bəndinə əsasən məcburi köçkünlərin 1992-1998-ci illərdə mülkiyyət formasından asılı olmayaraq müvəqqəti məskunlaşdıqları ictimai binalardan, mənzillərdən, torpaq sahələrindən və digər obyektlərdən çıxarılması onlar öz doğma yurdlarına qayıdana, həmçinin müvəqqəti yaşamaq məqsədilə yeni qəsəbələrə və evlərə köçürülənədək dayandırılmışdır;

- Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli 298 saylı Sərəncamının 3-cü bəndinə əsasən özəl müəssisələrin ali və orta ixtisas təhsili məktəblərinin rəhbərlərinə tövsiyə olunmuşdur ki, qaçqın və məcburi köçkünlərin işlə təmin olunması və təhsil haqqının ödənilməsində güzəştlərin verilməsi məsələlərində onlara lazımi kömək etsinlər;
- "Dövlət ali və orta ixtisas təhsil müəssisələrində ödənişli formada təhsil alan məcburi köçkünlərin təhsil haqqını ödəməkdən azad edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli Sərəncamına əsasən dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli formada təhsil alan məcburi köçkünlər təhsil haqqını ödəməkdən azad edilmişdirlər;
- orta ümumtəhsil məktəblərində təhsil alan məcburi köçkün şagirdlər dərsliklərlə pulsuz təmin olunurlar;
- 534 min məcburi köçkünə 13,5 manat məbləğində aylıq yemək xərci üçün müavinət ödənilir;
- məcburi köçkünlər kommunal və digər xidmət haqları (elektrik enerjisi, təbii qaz, içməli su, telefon abunə haqqı) ödəməkdən azaddırlar;
- təbii qazla təmin olunmayan şəhər və rayonlarda müvəqqəti məskunlaşmış 90 min məcburi köçkün ailəsinə payız-qış mövsümündə hər ailəyə 40 litr miqdarında ağ neft aylıq yanacaq norması müəyyən edilmişdir;
- büdcədən maliyyələşdirilən müəssisələrdə, təşkilatlarda çalışmış, özlərindən asılı olmayan səbəblərə görə iş yerlərindən məhrum olmuş və işlə təmin olunmamış 14 min nəfərədək məcburi köçkünlərə orta aylıq əmək haqqı ödənilməsi bu günədək təmin edilmişdir;
- 2001-2002-ci illərdə büdcədən ayrılmış vəsait hesabına 1000-dən çox məcburi köçkünə kənd təsərrüfatı ilə məşğul olmaq üçün güzəştli kredit verilmişdir;
- Respublikanın şəhər və rayonlarında məskunlaşmış 270 min məcburi köçkün dövlət büdcəsində nəzərdə tutulmuş vəsait hesabına Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin xətti ilə aylıq humanitar ərzaq yardımı ilə təmin olunur;
- pulsuz tibbi müayinə və müalicə ilə təmin olunurlar;
- şəxsiyyət vəsiqələrin verilməsinə görə dövlət rüsumundan azaddırlar;
- məhkəmələrə iddia ərizəsi ilə müraciətə görə dövlət rüsumundan azaddırlar;
- hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəlirləri 55 manat məbləğində azaldılır;
- 1991-ci il iyunun 1-dək mülkiyyət hüququ əsasında əldə etdikləri şəxsi minik avtomobillərinin texniki baxışı, texniki pasportlarının, dövlət nömrə nişanlarının, sürücülük vəsiqələrinin dəyişdirilməsi zamanı rüsumlardan azaddırlar.
- Biləsuvar rayonunda məskunlaşmış məcburi köçkünlər üçün olan Cəbrayıl rayonu Texniki Peşə Məktəbi yenidən bərpa edilmiş, kənd təsərrüfatına aid yeni ixtisaslar açılmış və bu il ilk məzun buraxılışı olmuşdur.

**Məlumatlar**

Uşaqların sayı:

Qaçqın uşaqlar – 108700 nəfər;

Məcburi köçkün uşaqlar – 200380 nəfər.

Məktəb yaşında olan uşaqların sayı:

Qaçqın uşaqlar – 94000 nəfər;

Məcburi köçkün uşaqlar – 175000 nəfər.

Azərbaycan Respublikası BMT-nin qaçqınların statusuna dair Konvensiyasına və Protokoluna Azərbaycan Respublikası Milli Məclisinin 1992-ci il 8 dekabr tarixli 402 saylı Qərarı ilə qoşulmuşdur.

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 39-cu maddəsinə əsasən qaçqın və ya məcburi köçkün olan uşaqların müvafiq status almaq hüququ vardır. Dövlət onları lazımi müdafiə və humanitar yardımla təmin etmək üçün təcili müvafiq tədbirlər görür, belə uşaqların valideynlərinin axtarılmasını təşkil edir, bu məqsədlə beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, qeyri-dövlət təşkilatlarının fəaliyyətinə zəruri köməklik göstərir.

Ermənistanın Azərbaycan Respublikasına hərbi təcavüzü nəticəsində öz doğma torpaqlarından qovulmuş və didərgin salınmış insanların taleyi, onların mənzil-məişət vəziyyətinin yaxşılaşdırılması və sosial müdafiəsinin təmin edilməsi daim dövlətin diqqət mərkəzindədir. Son illər bu istiqamətdə bir sıra ciddi addımlar atılmış, Azərbaycan Respublikası Dövlət Neft Fondunun, dövlət büdcəsinin, donor dövlətlərin və beynəlxalq humanitar təşkilatların vəsaiti hesabına on minlərlə ailə üçün yeni qəsəbələr salınmış, ayrı-ayrı şəhər və rayonlarda müasir tipli evlər və mənzillər tikilib qaçqınların və məcburi köçkünlərin istifadəsinə verilmiş, onların sosial müdafiəsi ilə bağlı çoxsaylı humanitar layihələr və digər tədbirlər həyata keçirilmişdir.

Azərbaycanın işğal altında olan torpaqları azad edilənə və didərgin düşmüş vətəndaşlar öz doğma yurdlarına qayıdana qədər çadır düşərgələrində, dəmir yolu üzərindəki yük vaqonlarında və yaşayış üçün yararsız yerlərdə məskunlaşmış soydaşlarımızın mənzil-məişət şəraitinin yaxşılaşdırılmasını, onlar üçün iş yerlərinin yaradılmasını və digər sosial problemlərin həllini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" təsdiq edilmişdir.

Bu sahədə həyata keçirilən tədbirlər nəticəsində ölkəmizin ayrı-ayrı şəhər və rayonlarında qaçqın və məcburi köçkün ailələri üçün 47 qəsəbə salınmış, həmin qəsəbələrdə 100-dən artıq məktəb, onlarla xəstəxana, mədəniyyət ocaqları tikilmiş, müvafiq infrastruktur yaradılmışdır. Əvvəllər çadır düşərgələrində məskunlaşmış bütün qaçqın və məcburi köçkünlər yeni tikilmiş qəsəbələrə köçürülmüş, bununla da Azərbaycanda çadır düşərgəsi qalmamışdır. Belə ki, ötən ilin 29 dekabr tarixində Sabirabad və Saatlı rayonlarında yerləşən son 3 çadır düşərgəsi ləğv olunaraq 19 min insan öz evlərinə sahib olmuşdur.

Ayrı-seçkiliyin qarşısını alınması və əlverişsiz şəraitdə olan uşaq, yeniyetmə və gənclərin hüquqlarının təmin edilməsinə diqqətin cəlb olunması məqsədilə Avropa məkanında 2007-ci ildə keçirilən "Hər kəs fərqli - hər kəs bərabər" kampaniyasına qoşularaq, ölkədə il ərzində geniş fəaliyyətlər həyata keçirilmişdir (konfranslar, sərgilər, kütləvi aksiyalar, regionlarda görüşlər və s). Digər icra strukturlarının və çox sayda qeyri-hökumət təşkilatlarının qatıldığı bu kampaniyanın məqsədi zəif qrupların imkanlarının üzə çıxarılmasını və hər kəsin bərabər hüquqlarının olmasını nümayiş etdirmək olmuşdur.

Əməkdaşlıq nəticəsində 2003-2005-ci illərdə 3 minədək yetim, kimsəsiz, sağlamlıq imkanları məhdud, qaçqın, köçkün, minalardan zərər çəkmiş, xroniki xəstə uşaqlar istirahət və reabilitasiya-inteqrasiya düşərgələrində iştirak etmişdir. Sərgilərə, konfranslara, dinləmələrə, treninqlərə daha çox sayda uşaqlar, onların nümayəndələri və bu sahədə çalışan insanlar cəlb edilmişdir.

Qaçqın və məcburi köçkün uşaqlar və onların problemləri Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əhatə etdiyi əsas qrup uşaqlardır və bu kateqoriyadan olan uşaq və onların ailələri ilə iş əsas işin bir hissəsidir. Belə ki, Dövlət Komitəsinin nəzdində qaçqın və məcburi köçkün uşaqlar üçün ingilis dili və kompüter kursları fəaliyyət göstərir. Bu uşaqların kursları bitirdikdən sonra işlə təmin olunmasına köməklik göstərilir. Mütəmadi olaraq qaçqın düşərgələrində onların tibbi müayinəsi və müalicəsi həyata keçirilir. İxtisaslaşmış müxtəlif kurslar təşkil edilir (saç ustası, dərzilik, dülgərlik, təkəlduz və. s) kurslar məşğulluq idarələri və yerli icra orqanları ilə birlikdə təşkil edilir.

Dövlət Komitəsinin yerli uşaq və ailələrə dəstək mərkəzlərinin xidmətlərindən bəhrələnən uşaq və ailələrin 50%-ni həmin icmalarda yaşayan qaçqın və məcburi köçkün uşaqlar təşkil edir.

Qaçqın və məcburi köçkün ailələrindən olan uşaqların incəsənət sahəsinə cəlb olunmalarına, təhsil almalarına xüsusi diqqət yetirilir. Erməni işğalına məruz qalmış rayonların musiqi və incəsənət məktəbləri məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı yerlərdə öz fəaliyyətlərini davam etdirirlər. Hazırda Ağdam, Cəbrayıl, Füzuli, Xocalı, Xocavənd, Kəlbəcər, Laçın, Şuşa, Zəngilan rayonlarının 41 uşaq musiqi və incəsənət məktəbi respublikamızın müxtəlif bölgələrində - Bakı, Gəncə, Mingəçevir, Naftalan, Sumqayıt, Yevlax şəhərlərində, Ağcabədi, Bərdə, Beyləqan, Biləsuvar, Saatlı rayonlarında fəaliyyətlərini bərpa etmişlər.

## 2.**<u>Maddə 38. Uşaqlar silahlı münaqişələrdə</u>**

Ermənistanın başladığı hərbi münaqişədə atəşkəs rejiminin elan edilməsindən 13 il keçməsinə baxmayaraq, uşaqlar yenə də müharibədən əziyyət çəkir. Müharibənin təsiri altında olan uşaqları aşağıdakı kimi qruplaşdırmaq olar:

qaçqın şəhərciklərində və ya digər müvəqqəti yaşayış yerlərində yaşayanlar;

hərbi sursatlardan (minalardan) əziyyət çəkənlər.

Hər iki qrupdan olan uşaqların fiziki və ya psixoloji reabilitasiyaya ehtiyacları var.

2005-ci ildən başlayaraq xüsusi olaraq minalarda sağlamlığını itirmiş və hazırda cəbhə bölgəsində yaşayan uşaq və gəncin psixoloji reabilitasiyasını həyata keçirmək məqsədilə 20 günlük düşərgə təşkil edilir.

Elan edilməmiş müharibə nəticəsində 200 mindən artıq uşaq köçkün və qaçqın həyatı ilə üzləşmişdir. Keçid dövründə yaşanan stress, ailədə və məişətdə zorakılıq halları, digər səbəblərdən yaranmış risk vəziyyətində olan uşaq və gənclərin sayı yüksəkdir. Bunlarla əlaqədar yeniyetmə və gənclər arasında son illər intihar və ya intihara cəhd hallarının sayı artır. Digər tərəfdən vəziyyətə müsbət təsir göstərə biləcək psixososial dəstək xidmətlər demək olar ki, yoxdur, müvafiq ixtisasda mütəxəssislərin sayı isə aşağıdır. Bunu nəzərə alaraq 2006-cı ildə ölkədə ilk 24 saat ərzində fəaliyyət göstərən anonim "Qaynar telefon xətti" layihəsi dəstəklənmişdir. Layihə çərçivəsində xəttə 6 mindən artıq zəng daxil olmuş, onlardan 72 nəfəri intihar fikirlərini yaşayan və bundan əvvəl intihar cəhdləri etmiş uşaq və gənclər olmuşdur. Bütün daxil olan zənglər xüsusi klassifikator üzrə qeyd edilmiş və risk/intihar hallarının əsas səbəbləri təhlil olunmuşdur. Pilot layihəsinin gələcəkdə ölkənin digər bölgələrində inkişaf etdirilməsi və telefon xidmətinin eyni zamanda əyani psixososial xidmətlərin yaradılması ilə gücləndirilməsi nəzərdə tutulur.

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 37-ci maddəsinə müvafiq olaraq 15 yaşına çatmamış uşaqların hərbi əməliyyatlarda birbaşa iştirakı qadağan edilir.

Azərbaycan dövləti onun hərbi münaqişələrə cəlb edildiyi ərazidə olan uşaqların müdafiəsini beynəlxalq hüquq normalarına uyğun olaraq təmin etməyi öz öhdəsinə götürür.

"Hərbi xidmət haqqında" 1992-ci il 3 noyabr tarixli Azərbaycan Respublikasının Qanununa görə çağırışçılar - ehtiyata keçirilənədək hərbi uçotda duran və ya durmalı olan və ehtiyatda olmayan, 18 yaşından 35 yaşınadək kişi vətəndaşlardır.

"Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" 1992-ci il 10 iyun tarixli Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinə əsasən müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət ailə vəziyyətinə, sağlamlıq vəziyyətinə görə, təhsili davam etdirmək üçün, deputatlıq fəaliyyəti ilə əlaqədar olaraq verilir.

Möhlət almaq üçün əsasları itirmiş çağırışçılar, habelə möhlət hüququ olmayan və ya çağırışdan azad edilmək üçün bu Qanunda nəzərdə tutulmuş əsasları olmayan, müxtəlif səbəblərə görə müəyyən

edilmiş müddətlərdə müddətli həqiqi hərbi xidmətə çağırılmamış şəxslər 35 yaşına çatanadək növbəti çağırış keçirilərkən xidmətə çağırılmalıdırlar.

Eyni zamanda qeyd olunmalıdır ki, Azərbaycan Respublikası "Uşaq hüquqları haqqında" BMT Konvensiyasının Uşaqların silahlı münaqişələrə cəlb edilməsinə dair Fakultativ Protokoluna müvafiq bəyanat ilə qoşulmuşdur.

Burada Azərbaycan Respublikası Protokolun 3-cü maddəsinə uyğun olaraq bəyan edir ki, Azərbaycan Respublikasının "Hərbi xidmət haqqında" 1992-ci il 3 noyabr tarixli Qanununa əsasən, hərbi xidmətin müəyyən edilmiş tələblərinə cavab verən Azərbaycan Respublikasının vətəndaşları və digər şəxslər hərbi məktəb kursantlarının həqiqi hərbi xidmətinə 17 yaşından könüllü daxil ola və qəbul edilə bilərlər. Azərbaycan Respublikasının qanunvericiliyi bu cür xidmətin zorakı və ya məcburi xarakter daşımamasına, həmin şəxslərin valideynlərinin və ya qanuni nümayəndələrinin şüurlu razılığı əsasında həyata keçirilməsinə, göstərilən şəxslərə bu cür hərbi xidmətlə bağlı vəzifələr barəsində tam məlumat verilməsinə və milli silahlı qüvvələrdə xidmətə qəbul edilənədək onlardan yaşlarını təsdiq edən sənədlərin tələb edilməsinə təminat verir.

Mütəmadi olaraq uşaqlarla müxtəlif mövzularda inşa, rəsm və digər tədbirlər həyata keçirilir.

**<u>Maddə 39. Reabilitasiya xidmətləri</u>**

2003-2005-ci illərdə 3 minədək valideyn himayəsindən məhrum olan, kimsəsiz, sağlamlıq imkanları məhdud, qaçqın, köçkün, minalardan zərər çəkmiş, xroniki xəstə uşaqlar istirahət və reabilitasiya-inteqrasiya düşərgələrində iştirak etmişdir. Sərgilərə, konfranslara, dinləmələrə, treninqlərə daha çox sayda uşaqlar, onların nümayəndələri və bu sahədə çalışan insanlar cəlb edilmişdir.

Zorakılığa məruz qalmış uşaqlar üçün fiziki və psixoloji reabilitasiya tədbirləri və sosial inteqrasiya məqsədilə qayğının və yardımın təmin edilməsi haqqında qanunvericilik müddəaları "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü fəslində nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 7 mart tarixli 66 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yetkinlik yaşına çatmayanlar üçün ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisələrində yetkinlik yaşına çatmayanlara xidmət göstərilməsi Qaydası" "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli, 274 nömrəli Fərmanına əsasən qəbul edilmişdir və yetkinlik yaşına çatmayanların çətin həyat şəraitinin aradan qaldırılmasında, onların yaşayış yerində, təhsil müəssisələrində, iş yerlərində sosial statuslarının bərpa edilməsində yetkinlik yaşına çatmayanlara, onların valideynlərinə və digər qanuni nümayəndələrinə sosial, psixoloji və digər köməklik göstərilməsi, yetkinlik yaşına çatmayanların ailələrinə qayıtması üçün ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisələri tərəfindən tədbirlərin görülməsi qaydalarını müəyyən edir. Müəssisələrə sosial sığınacaqlar və sosial reabilitasiya mərkəzləri aiddir. Bu Qaydaların II bölməsində həyatda çətin vəziyyətə düşmüş və təcili dövlət yardımına ehtiyacı olan yetkinlik yaşına çatmayanlara göstərilən xidmətlər nəzərdə tutulmuşdur.

**B. Qanunla ziddiyyətdə olan uşaqlar**

**1. <u>Maddə 40. Hüquq pozuntusu törədən yetkinlik yaşına çatmayanlar barədə ədalət mühakiməsinin həyata keçirilməsi</u>**

Azərbaycan Respublikasının Baş Prokurorluğu, Daxili İşlər və Ədliyyə nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, İnsan hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) aparatı və digər aidiyyəti qurumların iştirakı ilə 2008-ci ildə yaradılmış Yuvenal Ədliyyə üzrə İşçi Qrupunun fəaliyyəti davam etdirilir. İşçi qrupunun ötən il ərzində keçirilmiş iclaslarda yuvenal ədliyyə

sahəsində həyata keçirilməsi vacib olan ardıcıl tədbirlərin hazırlanması istiqamətində zəruri işlərin görülməsi planlaşdırılmışdır.

Respublikada Yuvenal Ədliyyə sisteminin inkişafı proqramına uyğun olaraq Daxili İşlər Nazirliyi ilə birlikdə UNİSEF-in Azərbaycandakı nümayəndəliyi, ATƏT-in Bakı Ofisi və Uşaq hüquqları üzrə Qeyri-Hökümət Təşkilatları Alyansı ilə əməkdaşlıq çərçivəsində 2005-ci ildən başlayaraq müxtəlif layihələr üzrə ardıcıl tədbirlər həyata keçirmiş və hazırda bu yönümdə əlaqəli iş davam etməkdədir. Yuvenal Ədliyyə sisteminin islahatları çərçivəsində, habelə BMT-nin Uşaq hüquqları Komitəsinin sonuncu sessiyalarının tövsiyələrinə uyğun olaraq Daxili İşlər Nazirliyinin uşaqlarla iş üzrə polis xidmət əməkdaşları üçün xüsusi kurslar təşkil edilmiş, BMT-nin və ATƏT-in qeyd olunan sahə üzrə ekspert və mütəxəssislərinin iştirakı ilə keçirilən mərhələli seminar məşğələlərə və treninqlərə 400-ə yaxın polis zabiti cəlb edilmiş, hazırlıq keçmiş polis əməkdaşlarına beynəlxalq sertifikatlar verilmişdir.

Ötən dövrdə xüsusi qayğıya ehtiyacı olan uşaqlara, o cümlədən küçə uşaqları, qanunla ziddiyyətdə olan, zorakılığa məruz qalan, əməyi istismar olunan azyaşlı və yeniyetmələrin hüquqlarının inkişaf etmiş ölkələr səviyyəsində müdafiəsi məsələləri ilə əlaqədar UNİCEF-in ölkə nümayəndəliyi, ATƏT-in Baki Ofisi, BMT-nin digər qurumlar ilə 11, o cümlədən 5 beynəlxalq konfrans keçirilmiş, 7 ölkədə (Böyük Britaniya, İsveçrə, Rusiya, Belorusiya, Yunanıstan Türkiyə, Sloveniya) beynəlxalq təcrübə mübadiləsi aparılmış, qeyd olunan təşkilatların region üzrə ekspertlərinin və proqram rəhbərlərinin cəlb olunduğu 19 seminar, 9 təlim kürsü, 6 dəyirmi masa, 2 brifinq və 1 monitorinq keçirilməsi təmin edilmişdir.

Birgə əməkdaşlığın daha da genişləndirilməsi və səmərəli olması diqqət mərkəzində saxlanılmış, vaxtaşırı olaraq BMT-nin Uşaq hüquqları Komitəsinin sədri, UNİCEF-in Cenevrə Ofisinin koordinatoru və proqram rəhbərləri ATƏT-in region üzrə ekspert-məsləhətçiləri qəbul edilmiş, keçirilən 15 görüşdə uşaq hüquqlarının ölkədəki vəziyyəti, aparılan islahatların perspektivləri və mövcud problemlərin həlli yolları müzakirə obyekti olmuşdur.

Tərəflər arasında əldə edilmiş razılığa əsasən 2007-ci ilin avqust ayında Daxili İşlər Nazirliyi UNİCEF-in Azərbaycandakı Nümayəndəliyi, ATƏT-in Bakı Ofisi və QHT Alyansı ilə Yuvenal Ədliyyə sahəsində islahatların yeni və daha səmərəli mərhələsi olaraq birgə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmışdır.

Həmin Anlaşma Memorandumunun şərtlərinə müvafiq olaraq Bakıı şəhərinin Nərimanov rayonunda qanunla ziddiyyətdə olan uşaqlara, onların ailələrinə və valideynlərinə hüquqi yardım göstərilməsi və reabilitasiyası ilə əlaqədar Pilot layihənin icrasına başlanılmış, adıgedən rayonda uşaqlar üçün "Hüquqi yardım klinikası" və "Sosial reabilitasiya mərkəzləri" fəaliyyətə başlamış, fərdi profilaktika tədbirlərinə artıq 50-yə yaxın azyaşlı cəlb edilməklə, onlara adekvat yardım göstərilməsi təmin edilmişdir. Pilot layihənin müsbət nəticələri nəzərə alınaraq paytaxtın Nizami və Xətai rayonlarında tətbiq olunması qərara alınmış, adları çəkilən polis idarələrində "uşaq polisi" otaqları təşkil edilmişdir.

Cari ilin yanvar ayında Daxili İşlər Nazirliyində Yuvenal Ədliyyə sahəsində aparılan islahatların mövcud durumunun qiymətləndirilməsi və inkişaf etdirilməsinə nəzarət məqsədilə yaradılmış Sektorlararası işçi qrupunun ilk yığıncağı keçirilmiş, əsas tərəfdaşların, habelə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Azərbaycan Respublikasının Ədliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin və İnsan hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) aparatının məsul işçilərinin iştirakı ilə keçirilən tədbirdə 2009-cu il üçün birgə fəaliyyət planı və onun icra mexanizmləri müəyyənləşdirilmişdir. Birgə səylərlə Daxili İşlər Nazirliyinin Polis Akademiyasının tədris proqramına daxil edilməsi məqsədilə hazırlanmış "Uşaq hüquqları və Yuvenal Ədliyyə" başlıqlı nəzəri kursun (kurrikulum) layihəsi ilə bağlı müzakirələr aparılmış, qeyd olunan sahədə beynəlxalq təcrübənin, bilik və vərdişlərin dinləyicilər, müdavimlər və polisin aidiyyəti xidmət sahəsi əməkdaşları tərəfindən öyrənilməsi qərara alınmış, layihənin əsas müddəalarının Akademiyanın təlim məşğələlərinin proqramına salınması təmin edilmişdir.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi və UNİCEF arasında əməkdaşlığa dair 2009-cu il üçün İllik Fəaliyyət Planında məhkəmələrdə uşaqlar üçün əlverişli şəraitin yaradılması sahəsində təcrübənin öyrənilməsi və gələcəkdə bununla bağlı müvafiq tövsiyələrin hazırlanması nəzərdə tutulur. Həmin Fəaliyyət Planının əsas hədəfi yuvenal ədliyyənin inkişafı üzrə təkliflərin hazırlanması, ədliyyə sahəsində çalışan mütəxəssislərin uşaq hüquqları və yuvenal ədliyyə sahəsində biliklərinin artırılması, bu məsələlərin Məhkəmə-Hüquq Şurasının və Polis Akademiyalarının daimi təlim proqramlarına daxil edilməsidir.

BMT-nin Uşaq Hüquqları üzrə Komitəsinin Azərbaycan Respublikasının dövri hesabatına dair tövsiyələrinə əsasən UNİCEF-in ölkəmizdəki nümayəndəliyi tərəfindən "Azərbaycanda yuvenal ədliyyə sisteminin islahatı Proqramı" layihəsi hazırlanmışdır. UNİCEF tərəfindən maliyyələşdiriləcək bu layihənin icra müddəti 3 ildir.

Layihə çərçivəsində icraçı qurum tərəfindən seçilmiş bir rayonda (Bakı şəhərinin Nərimanov rayonu) alternativ yuvenal ədliyyə sisteminin yaradılması, yetkinlik yaşına çatmayanların işlərinə baxan hakimin müəyyən olunması, onun bu sahədə ixtisaslaşması üçün təlim kurslarına cəlb edilməsi nəzərdə tutulmuşdur. Həmçinin, məhkəmə zallarının müasir standartlara uyğun təchiz olunması, digər hüquq mühafizə orqanlarında, habelə Mərdəkan və Quba rayonlarında yerləşən qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələrində islahatların aparılması və digər tədbirlərin həyata keçirilməsi planlaşdırılır.

2006-cı ildə UNİCEF, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Ədliyyə Nazirliyi arasında yuvenal ədliyyə sisteminin islahatı üzrə illik fəaliyyət planı hazırlanmışdır. Plana əsasən 2006-cı il ərzində ölkəmizdə qanunla ziddiyyətdə olan uşaqların vəziyyətinin təhlili aparılmış, onlar üçün təlim kursları təşkil edilmiş, yuvenal ədliyyə sisteminin perspektivlərinin müzakirəsinə həsr olunmuş bir sıra seminar və konfranslar keçirilmiş, bu sahəyə aid olan təbliğat yönümlü materiallar azərbaycan dilinə tərcümə olunaraq nəşr olunmuşdur.

Bununla yanaşı Plana uyğun olaraq Böyük Britaniyanın yuvenal ədliyyə sistemi ilə tanışlıq məqsədlə bir sıra dövlət qurumlarının (Nazirlər Kabineti, Ədliyyə Nazirliyi, Baş Prokurorluq, Ailə, Qadın, Uşaq məsələləri üzrə Dövlət Komitəsi və c.) əməkdaşlarından və qeyri-hökumət təşkilatlarının üzvlərindən ibarət nümayəndə heyətinin bu ölkəyə səfəri təşkil olunmuşdur.

Bu planın davamı olaraq 2008-ci ildə həmin qurumlar arasında eyni adlı illik fəaliyyət planı imzalanmışdır. Sənədə əsasən il ərzində yuvenal ədliyyə islahatı üzrə işçi qrupun yaradılması, bu sahə üzrə normativ aktın hazırlanması, hüquq mühafizə orqanları nümayəndələrinin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə seminar və konfransların keçirilməsi nəzərdə tutulmuşdur.

Həmçinin Məhkəmə-Hüquq Şurası tərəfindən hakim və dövlət ittihamçılarının uşaq hüquqları üzrə bacarıqlarının artırılması məqsədilə müvafiq tədris kursları təşkil olunmuşdur.

Yetkinlik yaşına çatmayanların cinayət məsuliyyətinə cəlb edilməsi və cəzalandırılması ilə bağlı müvafiq müddəalar cinayət qanunvericiliyində təsbit olunmuşdur. Belə ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 20-ci maddəsinə görə cinayət törədənədək on altı yaşı tamam olmuş şəxs cinayət məsuliyyətinə cəlb edilir.

On dörd yaşı tamam olmuş şəxs yalnız qəsdən adam öldürməyə, qəsdən sağlamlığa az ağır və ya ağır zərər vurmağa, adam oğurlamağa, zorlamağa, seksual xarakterli zorakılıq hərəkətlərinə, oğurluğa, soyğunçuluğa, quldurluğa, hədə-qorxu ilə tələb etməyə, talama məqsədi olmadan qanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsi ələ keçirməyə, ağırlaşdırıcı hallarda əmlakı qəsdən məhv etməyə və ya zədələməyə, terrorçuluğa, adamları girov götürməyə ağırlaşdırıcı hallarda xuliqanlığa, odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talamağa və ya hədə-qorxu ilə tələb etməyə, narkotik vasitələri və ya psixotrop maddələri talamağa və ya hədə-qorxu ilə tələb etməyə, nəqliyyat vasitələrini və ya yolları yararsız vəziyyətə salmağa görə cinayət məsuliyyətinə cəlb edilir.

Bu hesabata əlavə olunmuş cədvəldə illər üzrə (2003-2008) barələrində müəyyən müddətə azadlıqdan məhrumetmə cəzası və azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzalar təyin olunmuş yetkinlik yaşına çatmayanların sayı göstərilmişdir. Cədvəldən də göründüyü kimi

barələrində müəyyən müddətə azadlıqdan məhrum etmə cəzası təyin olunmuş şəxslərin sayında azalma müşahidə edilir.

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 42-ci maddəsinə 2004-cü il 5 mart tarixli Qanunla edilmiş əlavəyə müvafiq olaraq uşaqların azadlıqdan məhrum edilməsi ilə bağlı olan cəza tədbirləri məhkəmələr tərəfindən yalnız həmin məsələnin mükəmməl baxılmasından sonra tətbiq edilməli və imkan daxilində aşağı həddə təyin edilməlidir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 58.3-cü maddəsinə əsasən cəza təyin edilərkən törədilmiş cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, təqsirkarın şəxsiyyəti, o cümlədən cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar, habelə təyin olunmuş cəzanın şəxsin islah olunmasına və onun ailəsinin həyat şəraitinə təsiri nəzərə alınır. Həmin Məcəllənin 86-cı maddəsinə əsasən yetkinlik yaşına çatmayana cəza təyin edərkən məhkəmə bu Məcəllənin 58-ci maddədə müəyyən olunan hallardan başqa, həmçinin həmin şəxsin həyat və tərbiyə şəraitini, psixi inkişaf səviyyəsini, onun şəxsiyyətinin digər xüsusiyyətlərini və kənar şəxslərin ona təsirini nəzərə alır. Cəza təyin edilərkən yetkinlik yaşına çatmama yüngülləşdirici hal kimi**,** cəzanı yüngülləşdirən və ağırlaşdıran digər hallarla birgə nəzərə alınır. Yetkinlik yaşına çatmayanlara digərlərindən fərqli olaraq cərimə, ictimai işlər, islah işləri, müəyyən müddətə azadlıqdan məhrum etmə cəzası növləri tətbiq edilir.

"Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun 9.0.6-cı, 9.0.7-ci, 13.1.2-ci, 13.3.1-ci və 13.3.2-ci maddələrində yetkinlik yaşına çatmayanların azadlıqdan məhrumetmə üzrə alternativ cəzaların səmərəli şəkildə istifadə edilməsinin hüquqi əsasları öz əksini tapmışdır.

18 yaşınadək uşaqların adətən yetkinlik yaşına çatmış şəxslərlə saxlanılması iddiasına cavab olaraq bildirilir ki, barəsində həbs qətimkan tədbiri seçilmiş yetkinlik yaşına çatmayanların müvəqqəti saxlanma yerlərində saxlanma müddəti məhkəmənin qərarı ilə müəyyən edilir və onlar digər şəxslərdən ayrı saxlanılırlar.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 434-cü maddəsinə əsasən yetkinlik yaşına çatmayan şübhəli və təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbirinin tətbiq edilməsinə yalnız ona az ağır zorakı cinayətin, habelə ağır və ya xüsusilə ağır cinayətin törədilməsi istinad edildikdə yol verilir.

Həbsdə saxlanılan yetkinlik yaşına çatmayan şəxslər digər şəxslərdən ayrı saxlanılmalıdırlar. Onlar yaşının, cinsinin və şəxsiyyətinin xüsusiyyətlərinə görə tələb olunan qulluq, müdafiə və digər fərdi yardımla təmin edilməlidirlər.

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin 72.1-ci maddəsinin müddəalarına uyğun olaraq yetkinlik yaşına çatmayan şəxslərin yetkinlik yaşına çatmış şəxslərlə birgə saxlanılmaması tələbi təmin edilir və onlar tərbiyə müəssisəsində saxlanılırlar.

2008-ci ilin aprel ayında Naxçıvan Muxtar Respublikasında inşası başa çatdırılmış qarışıq rejimli cəzaçəkmə müəssisəsi artıq istifadəyə verilmişdir. 410 nəfər məhkumun saxlanılması nəzərdə tutulan müəssisə 13 tikilidən və bir İstintaq təcridxanasından ibarətdir. Burada ümumi rejimli və ciddi rejimli müəssisə ilə yanaşı, həmçinin həbsxana, qadın məhkumlar üçün cəzaçəkmə müəssisəsi və yetkinlik yaşına çatmayanlar üçün tərbiyə müəssisəsi də tikilmişdir.

Həmçinin Lənkəran və Şəki şəhərlərində də qarışıq rejimli cəzaçəkmə müəssisələri komplekslərinin inşası davam etdirilir.

Bundan başqa 2009-2012-ci illər ərzində dövlət büdcəsi vəsaiti hesabına tikilməsi nəzərdə tutulan cəzaçəkmə müəssisələrinin siyahısına respublikanın Kürdəmir və Dəvəçi rayonlarında 1000 nəfərlik qarışıq rejimli cəzaçəkmə müəssisələri komplekslərinin tikintisi də daxil edilmişdir.

2003-cü ildən etibarən 2008-ci ilin birinci yarım ilinin sonunadək cinayət törətdiyinə görə məhkəmələr tərəfindən təqsirli bilinmiş və məhkum edilmiş yetkinlik yaşına çatmayan şəxslərin sayı, onların bütün cəzaçəkmə müəssisələrində saxlanılan məhkumların ümumi sayına olan faiz nisbəti, müəyyən müddətə azadlıqdan məhrumetmə və azadlıqdan məhrumetmə cəzasına məhkum

olunmuş yetkinlik yaşına çatmayanların sayı və bu rəqəmlərin cəmi yetkinlik yaşına çatmayanların sayına faiz nisbəti və s. məlumatlar əlavədə göstərilmişdir.

Bu illər ərzində istintaq təcridxanalarında saxlanılmış yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxslərin sayı və onların təcridxanada orta saxlanma müddəti müvafiq ardıcıllığa uyğun olaraq aşağıdakı kimi olmuşdur:

2003-cü ildə: 64 nəfər/ 2-4 ay

2004-cü ildə: 108 nəfər/ 3-4 ay

2005-ci ildə : 91 nəfər/ 2-6 ay

2006-cı ildə: 121 nəfər/ 3-8 ay

2007-ci ildə: 95 nəfər/ 2-7 ay

01.07.2008-ci ildə: 44 nəfər/ 2-5 ay

Mayın 29-da Ədliyyə Nazirliyinin Penitensiar Xidməti Bakı istintaq təcridxanasının yeni binası istifadəyə verilmişdir. Təcridxanasının binası beynəlxalq standartlara tam cavab verir. 120 il əvvəl inşa edilən və dövrün tələblərinə cavab verməyən 1 saylı Bayıl və 3 saylı Şüvəlan istintaq təcridxanalarının əvəzinə Zabrat qəsəbəsində inşa olunan Bakı istintaq təcridxanası nüfuzlu beynəlxalq təşkilatların tövsiyələrinə əsasən, habelə qabaqcıl dövlətlərin təcrübəsindən bəhrələnərək tikilmişdir. Gələcəkdə burada yetkinlik yaşına çatmayanların da saxlanılması üçün bir korpusun ayrılması nəzərdə tutulub.

Humanist cəza siyasətinin nəticəsi kimi Azərbaycanda azadlıqdan məhrumetmə yerlərində saxlanılan şəxslərin sayı MDB- nın digər ölkələri ilə müqayisədə daha azdır. Digər tərəfdən, qəbul edilmiş əfv və amnistiya aktlarının nəticəsində minlərlə insan azadlığa buraxılmışdır. 1995-ci ildən hazırki dövrə qədər Azərbaycan Prezidentinin 45 Fərmanı əsasında 4858 nəfər əfv olunmuşdur.

Ölkəmizdə indiyədək qəbul olunmuş amnistiya aktları isə 100. 000 - ə yaxın şəxsə şamil edilmişdir. Yalnız cari ilin mart ayında elan olunmuş sonuncu amnistiya aktı bütövlükdə 9.000 nəfəri əhatə edilmişdir.

Bununla yanaşı, Gəncə (limiti 1500 nəfər) və Kürdəmir şəhərlərində (limiti 1000 nəfər) yeni qarışıq rejimli cəzaçəkmə müəssisələrinin, habelə Bakı şəhərinin Sabunçu rayonunda qadınlar və yetkinlik yaşına çatmayan şəxslər üçün yeni cəzaçəkmə müəssisələrinin, eləcə də müalicə müəssisəsinin tikintisi nəzərdə tutulur.

Məlumdur ki, Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 18 fevral tarixli 163 nömrəli Sərəncamı ilə 2009-cu il "Uşaq ili" elan edilmişdir. Uşaq ili çərçivəsində cəzaçəkmə müəssisəsində, həmçinin tərbiyə müəssisəsində tərbiyə işinin təşkili məqsədilə 2009-cu il üçün Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Olimpiya Komitəsi, Bakı şəhər Gənclər və İdman Baş İdarəsi, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikası Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi ilə Penitensiar Xidmətin Baş İdarəsinin birgə tədbirlər planı imzalanmış və bu tədbirlərin səmərəli həyata keçirilməsi istiqamətində müvafiq iş aparılır

**Yetkinlik yaşına çatmayan məhkumlar haqqında statistik məlumat**

<table>
<tr><td colspan="3">İllər</td><td>2007 6 ay</td><td>2008 6 ay</td><td>Müqayisə<br>Artma +<br>Azalma -</td></tr>
<tr><td colspan="3">Cəmi məhkum olunmuşdur</td><td>6.823</td><td>6.663</td><td>-160<br>2,3%</td></tr>
<tr><td colspan="3">Cəmi: yetkinlik yaşına çatmayanlar məhkum edilmişdir (faiz cəmi məhkum olunmuşların sayına nisbətdə)</td><td>149<br>2,2%</td><td>120<br>1,8%</td><td>-29<br>19,5%</td></tr>
<tr><td rowspan="6">Cəza tədbirləri</td><td colspan="2">Müəyyən müddətə azadlıqdan məhrumetmə (faiz cəmi yetkinlik yaşına çatmayan məhkumların sayına nisbətdə)</td><td>35<br>23,5%</td><td>23<br>19,2%</td><td>-12<br>34,3%</td></tr>
<tr><td colspan="2">Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzalar (faiz cəmi yetkinlik yaşına çatmayan məhkumların sayına nisbətdə)</td><td>114<br>76,5%</td><td>97<br>80,8%</td><td>-17<br>14,9%</td></tr>
<tr><td rowspan="4">O cümlədən</td><td>Cərimə</td><td>24</td><td>28</td><td>+4<br>16,7%</td></tr>
<tr><td>İslah işləri</td><td>5</td><td>13</td><td>+8<br>2,6 dəfə</td></tr>
<tr><td>İctimai işlər</td><td>8</td><td>4</td><td>-4<br>50%</td></tr>
<tr><td>Şərti məhkum etmə</td><td>77</td><td>52</td><td>-25<br>32,5%</td></tr>
<tr><td rowspan="5">Yetkinlik yaşına çatmayan məhkumlar</td><td colspan="2">Qızlar</td><td>5</td><td>2</td><td>-3<br>60%</td></tr>
<tr><td colspan="2">14 yaşdan 16 yaşadək</td><td>13</td><td>24</td><td>+11<br>1,8 dəfə</td></tr>
<tr><td colspan="2">16 yaşdan 18 yaşadək</td><td>136</td><td>96</td><td>-40<br>29,4%</td></tr>
<tr><td colspan="2">Şagird, tələbə (faiz cəmi yetkinlik yaşına çatmayan məhkumların sayına nisbətdə)</td><td>55<br>36,9%</td><td>49<br>40,8%</td><td>-6<br>10,9%</td></tr>
<tr><td colspan="2">Sərxoş halda<br>(faiz cəmi yetkinlik yaşına çatmayan məhkumların sayına nisbətdə)</td><td>2<br>1,3%</td><td>4<br>3,3%</td><td>+2<br>2 dəfə</td></tr>
</table>

## 2. Maddə 37. Bənd b, c, d. İşgəncələr və azadlıqdan məhrumetmə

2000-ci ildə qüvvəyə minmiş Azərbaycan Respublikasının Cinayət Məcəlləsində işgəncə və digər amansız, qeyri-insani və ya alçaldıcı rəftarın qadağan olunması nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Konstitusiyasının 46-cı maddəsinin III hissəsinə görə heç kəsə işgəncə və əzab verilə bilməz. Heç kəs insan ləyaqətini alçaldan rəftara və cəzaya məruz qala bilməz. Özünün razılığı olmadan heç kəsin üzərində tibbi, elmi və başqa təcrübələr aparıla bilməz.

Uşağın alçaldılmasının qadağan edilməsi milli qanunvericilikdə birmənalı şəkildə öz əksini tapmışdır. Belə ki, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci maddəsində göstərilir ki, uşaqların təhqir edilməsi, şəxsiyyətlərinin alçaldılması yolverilməzdir.

Saxlama, həbs və təcridxanalarda yerləşdirmənin istənilən forması daxil olmaqla, azadlıqdan məhrum edilmiş uşaqlar:

a) polisə məlumat verilmiş cinayəti törətməsi ilə əlaqədar təqsirləndirildikdən sonra polis məntəqəsi və ya istintaq təcridxanalarında saxlanmış 18 yaşadək şəxslərin sayı - 402 şəxs, onların saxlanma müddəti 1 aydan 3 ayadək olmuşdur;

b) 18 yaşadək şəxslərin saxlanılması və həbsi zamanı zorakılıq və pis rəftar halları ilə bağlı məlumat verilmiş işlərin sayı qeydə alınmamışdır.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 113-cü maddəsinə əsasən tutulmuş və ya azadlığı başqa cür məhdudlaşdırılmış şəxslərə fiziki ağrılar və psixi iztirablar verilməsinə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

Həmin Məcəllənin 133-cü maddəsinə əsasən mütəmadi olaraq döyməklə və ya s. zorakılıq hərəkətlərlə güclü fiziki ağrı və psixi iztirablar verməyə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 15.2-ci maddəsinə əsasən cinayət təqibi gedişində işgəncələr vermək, fiziki və psixi zorakılıqdan, o cümlədən tibbi preparatlardan istifadə etmək, aclığa, hipnoza məruz qoymaq, tibbi yardımdan məhrum etmək, digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və cəzalar tətbiq etmək, uzun sürən və ya kəskin fiziki iztirabla və yaxud səhhətin müvəqqəti pozulması ilə müşayiət olunan eksperimentlərdə və ya digər prosessual hərəkətlərdə iştiraka cəlb etmək, habelə buna bənzər hər hansı digər sınaqlar keçirmək qadağandır. Həmin Məcəllədə yetkinlik yaşına çatmayanlar barəsində icraatın xüsusiyyətləri adlı ayrıca fəsil vardır.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin yetkinlik yaşına çatmayanlara cinayət məsuliyyətinə münasibətdə müəyyən etdiyi qaydalar BMT Baş Assambleyası tərəfindən 9 noyabr 1985-ci il tarixdə qəbul olunmuş Yetkinlik yaşına çatmayanlara münasibətdə ədalət mühakiməsinin həyata keçirilməsi qaydalarının minimal standartlarına tam cavab verir.

Bütün cinayətlər üzrə vahid uçot Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən aparılır.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 84.2-ci maddəsinə əsasən yetkinlik yaşına çatmayanlar cinayət törətdikdə onlara cəza təyin edilə bilər və ya tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilə bilər.

Qeyd etmək lazımdır ki, yetkinlik yaşına çatmayanlara tətbiq edilən cəzaların hədləri də digər şəxslərə tətbiq edilən cəzalarla müqayisədə məhduddur. Bu mənada cərimə 600 manatadək miqdarda, ictimai işlər 40 saatdan 160 saatadək, islah işləri 2 aydan 1 ilədək, azadlıqdan məhrum etmə 10 ildən çox olmayan müddətə tətbiq olunur.

Azərbaycan Respublikasının "İşgəncələrlə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiya"ya qoşulması ilə əlaqədar "Prokurorluq orqanlarının qarşısında duran vəzifələr barədə" Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən 2003-cü il

14 fevral tarixli 09/10 nömrəli əmr verilmişdir. Əmrə uyğun olaraq prokurorluq əməkdaşlarının ixtisasartırma kurslarında müvafiq proqramlara işgəncələr və onların təzahürləri ilə mübarizə sahəsində konkret mövzuların daxil edilməsi, bu mövzu ətrafında prokurorluq əməkdaşlarının kütləvi informasiya vasitələrində çıxışlar etməsi, bütün əməkdaşlar tərəfindən bu sahənin öyrənilməsi və bu məqsədlə zona müşavirələrinin keçirilməsi nəzərdə tutulmuşdur. Baş Prokurorun qeyd olunan əmrinə uyğun olaraq işgəncələrlə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı sənədlər toplusu da tərtib edilərək hər bir prokurorluq əməkdaşının istifadəsinə verilmişdir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 20.1-ci maddəsinə əsasən cinayəti törədənədək 16 yaşı tamam olmuş şəxs cinayət məsuliyyətinə cəlb edilir.

14 yaşı tamam olmuş şəxs yalnız ağır və xüsusilə ağır (qəsdən adam öldürmə, quldurluq və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş digər əməlləri törətdikdə) cinayət törətdikdə cinayət məsuliyyətinə cəlb edilir, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 434.1-ci maddəsinə əsasən yetkinlik yaşına çatmayanlar barəsində həbsə alma qətimkan tədbirinin tətbiq edilməsinə yalnız ona az ağır zorakı cinayətin, habelə ağır və ya xüsusilə ağır cinayətin törədilməsi istinad edildikdə yol verilir.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 434.2-ci maddəsinə əsasən yetkinlik yaşına çatmayan şəxs barəsində həbs qətimkan tədbirinin müstəsna tədbir kimi və mümkün qədər qısa müddət ərzində tətbiq edilməsinə yol verilir.

Həbs qətimkan tədbirinin seçilməsinə qərar yalnız məhkəmə tərəfindən verilir.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 383-cü maddəsinə uyğun olaraq hər bir cinayət məsuliyyətinə cəlb edilmiş şəxsin apelyasiya şikayəti vermək hüququ vardır. Tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinə və ya qapalı tipli xüsusi təlim tərbiyə müəssisəsinə göndərilməsinə dair yetkinlik yaşına çatmamış şəxsin özü, onun qanuni nümayəndəsi və ya müdafiəçisi apellyasiya şikayəti verə bilər.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 434.3-cü maddəsinə əsasən həbsdə saxlanılan yetkinlik yaşına çatmayan şəxslər digər şəxslərdən ayrı saxlanılmalıdır. Onlar yaşının, cinsinin və şəxsiyyətinin xüsusiyyətlərinə görə tələb olunan qulluq, müdafiə və digər fərdi yardımla təmin edilməlidir.

Həmin Məcəllənin 92.3.5-ci maddəsinə əsasən şübhəli və ya təqsirləndirilən şəxs cinayəti törədərkən yetkinlik yaşına çatmadıqda bu Məcəllədə nəzərdə tutulan andan cinayət prosesində müdafiəçinin iştirakı məcburidir.

### 3. Maddə 37. Bənd a. Yetkinlik yaşına çatmayan şəxslərin məhkum edilməsi, xüsusilə ölüm cəzası və ömürlük azadlıqdan məhrumetmə cəzasının ləğv edilməsi

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 20.1-ci maddəsinə əsasən cinayəti törədənədək 16 yaşı tamam olmuş şəxs cinayət məsuliyyətinə cəlb edilir.

On dörd yaşı tamam olmuş şəxs yalnız qəsdən adam öldürməyə, qəsdən sağlamlığa az ağır və ya ağır zərər vurmağa, adam oğurlamağa, zorlamağa, seksual xarakterli zorakılıq hərəkətlərinə, oğurluğa, soyğunçuluğa, quldurluğa, hədə-qorxu ilə tələb etməyə, talama məqsədi olmadan qanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsi ələ keçirməyə, ağırlaşdırıcı hallarda əmlakı qəsdən məhv etməyə və ya zədələməyə, terrorçuluğa, adamları girov götürməyə ağırlaşdırıcı hallarda xuliqanlığa, odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talamağa və ya hədə-qorxu ilə tələb etməyə, narkotik vasitələri və ya psixotrop maddələri talamağa və ya hədə-qorxu ilə tələb etməyə, nəqliyyat vasitələrini və ya yolları yararsız vəziyyətə salmağa görə cinayət məsuliyyətinə cəlb edilir.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 434.1-ci maddəsinə əsasən yetkinlik yaşına çatmayan şübhəli və təqsirləndirilən şəxs barəsində həbsə alma qətimkan tədbirinin tətbiq

edilməsinə yalnız ona az ağır zorakı cinayətin, habelə ağır və ya xüsusilə ağır cinayətin törədilməsi istinad edildikdə yol verilir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 88-ci maddəsinə əsasən yetkinlik yaşına çatmayanlara tərbiyəvi xarakterli aşağıdakı məcburi tədbirlər tətbiq edilə bilər: xəbərdarlıq, valideynləri və ya onları əvəz edən şəxslərin və yaxud müvafiq dövlət orqanının nəzarətinə vermək, vurulmuş ziyanın aradan qaldırılmasının vəzifəsini həvalə etmək, yetkinlik yaşına çatmayanın asudə vaxtını məhdudlaşdırmaq və onun davranışı ilə bağlı xüsusi tələblər müəyyən etmək. Yetkinlik yaşına çatmayana eyni vaxtda bir neçə tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilə bilər.

Azərbaycan Respublikası Cinayət-Prosesual Məcəlləsində cinayət törətməkdə təqsirləndirilən yetkinlik yaşına çatmayan şəxslərin barəsində qətimkan tədbirinin seçilməsi üçün həbs qətimkan tədbiri istisna olmaqla məhdudiyyətlər nəzərdə tutulmamışdır. Yetkinlik yaşına çatmayan şəxslərin barəsində həbs qətimkan tədbirinin seçilməsində olan məhdudiyyətlər isə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 434.1ci maddəsi nəzərdə tutulmuşdur. Belə ki, həmin maddənin tələblərinə əsasən yetkinlik yaşına çatmayan şəxsin barəsində həbs qətimkan tədbirinin tətbiq edilməsinə yalnız ona az ağır zorakı cinayətin, habelə ağır və xüsusilə ağır cinayətin törədilməsi istinad edildikdə yol verilir. Həmin Məcəllənin 434.2-ci maddəsinin tələblərinə görə, yetkinlik yaşına çatmayan şəxs barəsində həbs qətimkan tədbiri müstəsna tədbir kimi və mümkün qədər qısa müddət ərzində tətbiq edilməlidir.

Artıq göstərildiyi kimi Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsi ilə nəzərdə tutulan ev dustaqlığı, girov, başqa yerə getməmək haqqında iltizam, şəxsi zaminlik, təşkilatın zaminliyi və polisin nəzarəti altına vermə qətimkan tədbirlərinin seçilməsi zamanı yetkinlik yaşına çatmayan şəxslərə aid hər hansı bir məhdudiyyətlər nəzərdə tutulmamışdır.

Bundan fərqli olaraq, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 170-ci maddəsi ilə nəzərdə tutulan nəzarət altına vermə qətimkan tədbiri yalnız yetkinlik yaşına çatmayan şübhəli və ya təqsirləndirilən şəxs barəsində seçilə bilən yeganə qətimkan tədbiridir.

Həmin qətimkan tədbiri yetkinlik yaşına çatmayan şəxsin valideynlərinin, qəyyumlarının, himayəçilərinin, yaxud onun saxlandığı qapalı uşaq müəssisəsi müdiriyyətinin üzərinə yetkinlik yaşına çatmamış şübhəli və ya təqsirləndirilən şəxsin ictimai qaydaya riayət etməsi, cinayət prosesinin həyata keçirən orqanın çağırışına gəlməsi və digər prosessual vəzifələri icra etməsi də daxil olan davranışını təmin etmə vəzifəsinin qoyulmasından ibarətdir.

Bundan başqa qeyd edilməlidir ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 85-ci maddəsinin tələblərinə əsasən yetkinlik yaşına çatmayan şəxslərə həmin Məcəllə ilə nəzərdə tutulmuş cəzalardan yalnız cərimə, ictimai işlər, islah işləri və müəyyən müddətə azadlıqdan məhrum etmə cəzalarının tətbiq edilməsinə yol verilir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 85.2-ci maddəsinin tələblərinə əsasən cərimə yalnız müstəqil əmək haqqı və ya bu cəzanın icrasına yönəldilə bilən əmlakı olan yetkinlik yaşına çatmayan məhkum barəsində 600 manatadək miqdarda təyin edilir.

Həmin Məcəllənin 85.3-cü maddəsinin tələblərinə görə, ictimai işlər 40 saatdan 160 saatadək müddətə təyin edilməklə yetkinlik yaşına çatmayan məhkumun bacardığı, onun təhsildən və əsas işindən asudə vaxtlarında yerinə yetirdiyi işlərdən ibarətdir. Bu cəza növünün icra müddəti 15 yaşınadək şəxslər üçün gündə 2 saatdan, 15 yaşından 16 yaşınadək şəxslər üçün isə gündə 3 saatdan çox ola bilməz.

Həmin Məcəllənin 85.4-cü maddəsinin tələblərinə müvafiq olaraq, yetkinlik yaşına çatmayan məhkumlara islah işləri 2 aydan 1 ilədək müddətə təyin edilir.

Həmin Məcəllənin 85.5-ci maddəsinin tələblərinə əsasən azadlıqdan məhrum etmə yetkinlik yaşına çatmayan məhkumlara 10 ildən çox olmayan müddətə təyin edilir.

Yetkinlik yaşına çatmayan məhkumlara cəza təyin edilərkən onların həyat və tərbiyə şəraiti, psixi inkişaf səviyyəsi, şəxsiyyətlərinin digər xüsusiyyətləri və kənar şəxslərin onlara olan təsiri nəzərə alınır.

Həmin Məcəllənin 88-ci maddəsi ilə ilk dəfə böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş yetkinlik yaşına çatmayan şəxsin cinayət məsuliyyətindən azad edilməklə barəsində xəbərdarlıq, valideynlərinin və ya onları əvəz edən şəxslərin və yaxud müvafiq dövlət orqanın nəzarətinə verilməsi, vurulmuş ziyanın aradan qaldırılması vəzifəsinin həvalə edilməsi, habelə yetkinlik yaşına çatmayan şəxsin asudə vaxtının məhdudlaşdırılmaqla onun davranışı ilə bağlı xüsusi tələblərin müəyyən edilməsi kimi tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 39.1.4-cü maddəsinə əsasən, cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin baş verdiyi anda onu törətmiş şəxs cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmadıqda (həmin şəxsə qarşı tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi zəruri olan hallar istisna edilməklə) onun barəsində cinayət təqibi başlanıla bilməz, başlanmış cinayət təqibinə isə xitam verilməlidir.

"Yetkinlik yaşına çatmayanların baxımsızlığın və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun 5.1.6-cı və 5.1.7-ci maddələrinin tələblərinə əsasən cinayət əlamətləri olan ictimai təhlükəli əməl törətmiş, lakin cinayət məsuliyyətinə cəlb olunması üçün tələb olunan yaş həddinə çatmayan, habelə tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilməklə islah olunması mümkün hesab olunan cinayət məsuliyyətindən və ya cəzadan azad olunmuş şəxslər barəsində onların 18 yaşına çatanadək fərdi profilaktik işlərin aparılması nəzərdə tutulur.

Həmin Qanunun 9-cu maddəsinə əsasən yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar öz səlahiyyətləri daxilində böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayətləri törətmiş, lakin cinayət məsuliyyətinə cəlb olunması üçün tələb olunan yaş həddinə çatmamış şəxslərin açıq tipli xüsusi təlim-tərbiyə müəssisələrinə göndərilməsini təmin edir, ağır və xüsusilə ağır cinayətləri törətmiş, lakin cinayət məsuliyyətinə cəlb olunması üçün tələb olunan yaş həddinə çatmamış şəxslərin qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələrinə göndərilməsi barədə isə məhkəmə qarşısında vəsatət qaldırır.

Həmin Qanunun 13-cü maddəsinə görə, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın qərarı ilə açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilmiş yetkinlik yaşına çatmayan şəxslərin barəsində psixoloji-tibbi-pedaqoji reabilitasiya tədbirləri təşkil edilir, təhsil və tibbi yardım almaları təmin edilir. Qanunla həmin müəssisələrdə idman seksiyalarının, texniki və digər dərnəklərin, klubların yaradılması, yetkinlik yaşına çatmayanlarda cəmiyyətə və qanunlara hörmət ruhunda davranışın formalaşdırılmasına yönəldilmiş proqram və metodikaların həyata keçirilməsi üzrə tədbirlərin görülməsi nəzərdə tutulur.

Həmin Qanunun 13.3.1-ci, 13.4-cü, 20-22-ci maddələrinin tələblərinə əsasən ağır və xüsusilə ağır cinayəti törətmiş, lakin cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxs barəsində cinayət işinin icraatına xitam verildikdə və ya cinayət işinin başlanılması rədd edildikdə, onun barəsində intizam təsir tədbirlərinin tətbiq edilməsi məsələsinə baxılması və onların qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələrinə göndərilməsi məqsədilə materiallar cinayət prosesini həyata keçirən orqan tərəfindən yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaya göndərilir.

Komissiya qanunla nəzərdə tutulmuş müvafiq hərəkətləri həyata keçirdikdən sonra, şəxsin sözügedən müəssisəyə yerləşdirilib-yerləşdirilməməsi məsələsinə baxır və müsbət halda müvafiq sənədlərin cinayət prosesini həyata keçirən orqandan ona daxil olduğu gündən 1 ay müddətində yetkinlik yaşına çatmayanın yaşayış və ya olduğu yer üzrə birinci instansiya məhkəməsi qarşısında müvafiq vəsatət qaldırır.

Məhkəmə göstərilən məsələyə 10 gün müddətində baxaraq qərar çıxarır. Həmin qərar ilə məhkəmə ya vəsatəti təmin edir, ya şəxsin barəsində digər intizam xarakterli tədbirlərin görülməsi üçün materialları komissiyaya qaytarır, ya da materiallar üzrə icraata xitam verir.

Məhkəmənin qərarına əsasən qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə yerləşdirilmiş şəxs orada 18 yaşınadək, lakin 3 ildən artıq olmamaq şərti ilə saxlanılır.

Həmin Qanunun 13.12-ci maddəsinin tələblərinə əsasən sözügedən müəssisədə yetkinlik yaşına çatmayana qarşı fiziki qüvvə yalnız digər vasitələr nəticə vermədikdə, müstəsna hallarda tətbiq edilə bilər. Fiziki və ya psixi qüsurları olan şəxslərə qarşı (silahlı müqavimət göstərilməsi və ya həyat və sağlamlıq üçün təhlükəli hücumların edilməsi halları istisna olmaqla) fiziki qüvvənin tətbiqi qadağandır. Fiziki qüvvənin tətbiq edildiyi hər bir hal barədə müəssisə tərəfdən 24 saat ərzində müvafiq ərazi prokuroruna məlumat verilməli, habelə xidməti yoxlama aparılmaqla rəy tərtib edilməlidir.

2008-ci il ərzində təhqiqat və istintaqı tamamlanmış işlər və materiallar üzrə 76 cinayət 14-15 yetkinlik yaşına çatmayanlar tərəfindən törədilmişdir.

Onlardan beşi xüsusilə ağır, on üçü ağır, qırx biri az ağır, on yeddisi böyük ictimai təhlükə törətməyən cinayətlər olmuşdur. Belə ki, biri adam öldürməyə cəhd, altısı qəsdən sağlamlığa ağır zərər vurma, dördü qəsdən sağlamlığa az ağır zərər vurma, ikisi qəsdən sağlamlığa yüngül zərər vurma, üçü döymə, biri zorlama, qırx biri oğurluq, üçü avtonəqliyyatın qaçırılması, beşi xuliqanlıq, onu digər cinayətlər olmuşdur.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində ölüm cəza növü kimi nəzərdə tutulmamışdır.

**4.Maddə 39. Fiziki və psixoloji reabilitasiya və sosial reinteqrasiya**

Fəaliyyət göstərən 16 reabilitasiya mərkəzlərində və uşaq müəssisələrində yaradılmış reabilitasiya otaqlarında icmalarda yaşayan xüsusi kateqoriyadan olan inteqrasiya və reabilitasiyaya ehtiyacı olan uşaqlara fiziki və psixoloji yardım göstərilir. Bu yardımlar pulsuz olaraq həyata keçirilir. Daun sindromlu uşaqların Türkiyədə keçirilmiş II Beynəlxalq Uşaq Festivalında iştirakına köməklik göstərilmişdir.

Mütəmadi olaraq hər il sosial müdafiəyə ehtiyacı olan uşaqlar üçün inteqrasiya əhəmiyyətli əlamətdar günlərə və bayramlara həsr edilmiş tədbirlər və şənliklər keçirilir.

**C. Maddə 39. İstismara məruz qalmış uşaqlar, fiziki və sosial reabilitasiya və reinteqrasiya**

Küçə həyatına məruz qalan uşaqlar üçün reabilitasiya mərkəzi “Ümid yeri” mərkəzində fəaliyyət göstərir ki, bu mərkəz dövlət strukturları ilə sıx işləyir və reabilitasiyanın təşkili üçün onlara köməklik göstərilir. Ümumilikdə isə istismara məruz qalmış uşaqlar üçün sosial re-inteqrasiya və reabilitasiya sahəsində hələ də problemlər mövcuddur.

**1. Maddə 32. Uşaq əməyi**

Azərbaycan Respublikası 1992-ci ildə Beynəlxalq Əmək Təşkilatının “İşə qəbul etmək üçün minimum yaş haqqında” 138 saylı Konvensiyasını ratifikasiya etmiş və bununla da uşaq əməyinin aradan qaldırılmasını və yeniyetmələrin işə qəbul edilmələri üçün minimum yaş həddinin onların fiziki və əqli inkişafına uyğun gələn səviyyəyədək tədricən artırılmasını öhdəlik kimi qəbul etmişdir.

2004-cü il 13 yanvar tarixində Azərbaycan Respublikasının Beynəlxalq Əmək Təşkilatının “Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə

dair” 182 nömrəli Konvensiyasına qoşulması uşaq əməyinin, xüsusi ilə onun ən pis formalarının ləğv olunması sahəsində həyata keçiriləcək vacib və zəruri tədbirlərdən biri olmuşdur.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 46-cı maddəsinin 4-cü hissəsinə əsasən yaşı 15-dən 18-dək olan şəxslərlə əmək müqaviləsi bağlanarkən onların valideynlərindən və ya övladlığa götürənlərdən, qəyyumların birindən və yaxud qanunla onları əvəz edən şəxslərdən yazılı razılıq alınmalıdır.

Yaşı 18-dən az olan şəxslərin işləməsi üçün əlverişli şərait yaratmaq məqsədi ilə əmək qanunvericiliyində onlar üçün bir sıra güzəştlər müəyyən edilmişdir. Yaşı 16-dan az olan işçilərə əmək məzuniyyəti 42 təqvim günündən, 16 yaşından 18 yaşınadək işçilərə isə 35 təqvim günündən az olmayaraq verilir. Yaşı 18-dən az olan işçilərə əmək məzuniyyəti onların arzusu ilə əlverişli vaxtda verilir.

Əmək şəraiti ağır, zərərli olan iş yerlərində, yeraltı tunellərdə, şaxtalarda və digər yeraltı işlərdə, habelə əxlaqi kamilliyinin inkişafına mənfi təsir göstərən gecə klublarında, barlarda, kazinolarda, o cümlədən spirtli içkilərin və toksik preparatların istehsalı, daşınması, satışı və saxlanılması işlərində həmçinin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ilə bağlı işlərdə yaşı 18-dən az olan şəxslərin əməyinin tətbiq edilməsi qadağandır.
Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 mart tarixli 58 nömrəli Qərarı ilə “Yaşı 18-dən az olan işçilərin əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin siyahısı” təsdiq edilmişdir. Yaşı 18-dən az olan işçilərin qanunvericilikdə müəyyən edilmiş normalardan artıq ağır əşyaların qaldırılması və bir yerdən başqa yerə daşınması işlərinə cəlb edilməsi qadağandır. Yaşı 18-dən az olan şəxslər yalnız tibbi müayinədən keçirildikdən sonra işə qəbul edilirlər və onlar 18 yaşına çatanadək hər il işəgötürənin vəsaiti hesabına hökmən tibbi müayinədən keçirilməlidirlər.
Yaşı 18-dən az olan işçilərin gecə vaxtı işlərə, iş vaxtından artıq işlərə, istirahət, iş günü hesab edilməyən bayram və digər günlərdə işə cəlb edilməsi, habelə onların ezamiyyətə göndərilməsi qadağandır.

Peşəkarlıq səviyyəsinin, ixtisasının (peşəsinin) kifayət dərəcədə olmaması səbəbindən tutduğu vəzifəyə uyğun gəlmədiyinə görə yaşı 18-dən az olan işçinin əmək müqaviləsi ləğv edilə bilməz. Əmək qanunvericiliyi yaşı 18-dək olan şəxslərə güzəştlərin tətbiq edilməsi ilə yanaşı, onların əmək haqlarının azaldılmaması sahəsində təminatları da nəzərdə tutur. Belə ki, 18 yaşına çatmamış işçilərin qısaldılmış iş vaxtı şəraitində əmək haqları müvafiq vəzifələr, peşələr üzrə işləyən yaşlı işçilər üçün müəyyən edilmiş tam məbləğdə ödənilir.

“Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda uşaqların sosial müdafiəsi üzrə müəyyən tədbirlər nəzərdə tutulmuşdur. İşəgötürənlər (onların hüquqi varisləri) iş yerlərinin ixtisarı ilə əlaqədar işdən azad olunmuş valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqları sonradan həmin müəssisədə və ya digər müəssisədə işə düzəltmək üçün öz vəsaitləri hesabına zəruri yeni peşə hazırlığına cəlb etməlidirlər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 17 yanvar tarixli 15 nömrəli Qərarı ilə müəyyən edilmiş normativlər əsasında bu kateqoriyadan olan uşaqlar ilk dəfə işə düzəldikləri halda paltar, ayaqqabı, yumşaq inventar və avadanlıqla, habelə respublika üzrə orta aylıq əmək haqqının beş mislindən az olmayan miqdarda birdəfəlik müavinətlə təmin olunurlar.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 42-ci maddəsinin 3-cü hissəsinə əsasən on beş yaşına çatmış hər bir şəxs işçi kimi əmək müqaviləsinin tərəfi ola bilər. Qanunvericiliklə müəyyən edilmiş qaydada fəaliyyət qabiliyyəti olmayan şəxs hesab edilmiş şəxslə əmək müqaviləsi bağlanıla bilməz.

Həmin Məcəllənin 38-ci fəslində əmək, peşə vərdişlərinin və əmək stajının az olması və fizioloji vəziyyəti ilə bağlı olan amillər nəzərə alınaraq yaşı 18-dən az olan işçilərin əməyindən istifadə olunmasının xüsusiyyətləri və onlar üçün müvafiq təminatlar nəzərdə tutulmuşdur. İşəgötürən

tərəfindən bu Məcəllə ilə yaşı 18-dən az olan işçilər üçün müəyyən edilmiş təminatlara əməl olunması məcburidir. Yaşı 18-dən az olan işçilərlə əmək müqaviləsi bağlayarkən onların əmək və peşə vərdişlərinin artırılması üçün işəgötürən tərəfindən təmin edilməli olan əlavə şərtlər, öhdəliklər nəzərdə tutulmalıdır.

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə müvafiq olaraq əmək şəraiti ağır, zərərli olan iş yerlərində, o cümlədən yeraltı tunellərdə, şaxtalarda və digər yeraltı işlərdə, habelə onların əxlaqi kamilliyinə mənfi təsir göstərən gecə klublarında, barlarda, eləcə də spirtli içkilərin, tütün məmulatlarının istehsalı, daşınması, satışı və saxlanılması işlərində, həmçinin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ilə bağlı işlərdə uşaq əməyinin tətbiq edilməsi qadağandır.

2009-cu il 18 mart tarixində Azərbaycan Respublikasının Konstitusiyasına ümumxalq səsverməsi (referendum) yolu ilə edilmiş əlavə və dəyişikliklərə görə 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər.

## 2. Maddə 33. Narkotik vasitələrdən qanunsuz istifadə edilməsi

Penitensiar sistemdə olan yetkinlik yaşına çatmamış məhkumlar arasında narkotik maddələrdən sui-istifadə edən və ya narkomaniyaya görə məcburi müalicə təyin olunan şəxs yoxdur.

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 iyun tarixli 2271 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram (2007 - 2012-ci illər)"ın icrası ilə əlaqədar Penitensiar xidmətdə hazırlanmış əlavə tədbirlər planına müvafiq olaraq bütün cəzaçəkmə müəssisələrində o cümlədən Tərbiyə müəssisəsində "Ağ ölüm və ona qarşı mübarizə", "Narkotik maddələr və onların insan orqanizminə təsiri", "Narkomanlığın cəmiyyətə ziyanı və sağlam həyat tərzi", "Yetkinlik yaşına çatmayanların həyat tərzinə narkomanlığın təsiri və narkomanlığa qarşı mübarizə" mövzularında mühazirələr təşkil olunmuşdur.

Tütün və tütün məmulatlarının reklamı qadağan edilir. Habelə tərkibində narkotik vasitələr və psixotrop maddələr olan preparatların reklamına yol verilmir.

Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 26 avqust tarixli Fərmanı ilə Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Dövlət Komissiyası yaradılmış, həmin Fərmanın 3-cü bəndinə əsasən Azərbaycan Respublikasında 2000-ci ilədək və 2006-cı ildən sonrakı dövrlərdə narkomanlığın yayılmasına, narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə üzrə Proqram qəbul edilmişdir. Qeyd olunan proqramın və "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi prinsipial əhəmiyyət kəsb edən tədbirlərdən olmaqla əlaqədar dövlət orqanları, o cümlədən Daxili İşlər Nazirliyi tərəfindən bu istiqamətdə ardıcıl tədbirlər uğurla həyata keçirilməkdədir.

Beynəlxalq hüquqi normalara uyğun hazırlanmış və 2000-ci il 1 sentyabr tarixindən qüvvəyə minmiş Azərbaycan Respublikasının Cinayət Məcəlləsi narkotiklərlə bağlı mübarizədə cəza qanununun yeni və müasir dövrün tələblərinə uyğun gələn mexanizminin həyata vəsiqə alması da bu istiqamətdə həyata keçirilən əməli tədbirlərdən biri olmuşdur. Əvvəlki məcəllədən fərqli olaraq yeni cinayət qanununda narkotiklə bağlı cinayətlərin anlayışı və belə əməllərə görə məsuliyyətin təsnifatı ayrıca fəsildə verilmiş, 234-241-ci maddələri əhatə etməklə 8 maddədə 54 bənddə öz əksini tapmışdır. Yeni məcəllədə narkotiklə bağlı cinayətlərə görə məsuliyyət cinayətlərin xarakteri, mütəşəkkilliyi, residiv olması, vurulmuş ziyanın miqdarı, zor tətbiq etməklə və digər formada törədilməsi nəzərə alınmaqla 3 aydan 15 ilədək azadlıqdan məhrum etmə, 1 ildən 3 ilədək müddətə azadlığın məhdudlaşdırılması, 2 aydan 2 ilədək müddətə islah işləri, 1 ildən 5 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilmə, müvafiq cərimə və əlavə cəza olaraq əmlak müsadirəsi cəzası təyin edilməklə həyata keçirilir.

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ATƏT-in Bakı Ofisi ilə birgə Cənubi Qafqazda Narkotiklərə Nəzarət Proqramı çərçivəsində 2003-cü ildə orta məktəblərdə şagirdlər arasında narkotiklərə aludəçiliyin profilaktikası məqsədilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə "Polis Təhsil Protokolu" imzalamış və protokola uyğun olaraq Bakı, Sumqayıt, və digər əhalisi çox olan şəhərlərin aidiyyəti polis xidməti əməkdaşları ilə seminarlar və təlim kursları keçirilməkdədir və bu kursların təşkilində və aparılmasında Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin ekspert və təlimçiləri yaxından iştirak edirlər.

2008-ci ilin ötən dövründə narkomanlığa və toksikomanlığa görə Bakı şəhər narkoloji Dispanserində 5 azyaşlı qeydiyyatda olmaqla, onlarla bağlı müvafiq tədbirlər görülmüşdür.

Spirtli içkilərdən və tütün məmulatlardan istifadəsinin yolverilməzliyi Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 236-cı, 307-ci maddələrinə müvafiq olaraq yetkinlik yaşına çatmayanlara bu növ məmulatların satılması və yetkinlik yaşına çatmayanların sərxoşluq vəziyyətinə gətirilməsi inzibati məsuliyyətə səbəb olur.

İlin əvvəlindən daxili işlər orqanları tərəfindən spirtli içkilərin istifadəsinə görə 28 azyaşlı müəyyən edilmiş, onların hər biri ilə fərdi izahat aparılmış, aidiyyəti təşkilatlarla birqə müvafiq ölçülər götürülmüş, 7 nəfəri isə polisdə profilaktiki qeydiyyata alınmışdır.

Spirtli içkilərin, narkotik maddələrin və bu növ başdumanlandırıcı vasitələrdən istifadənin yolverilməzliyi, zərəri ilə bağlı respublikanın 50-dən artıq orta ümumtəhsil məktəblərində 200-dən artıq məruzələr edilmiş, yerli və respublika əhəmiyyətli qəzetlərdə məqalələr dərc olunmuşdur.

Uşaqlarının tərbiyəsi və təlimi ilə bağlı vəzifələrini yerinə yetirmədikləri və ya lazımınca yerinə yetirmədikləri səbəbindən onların baxımsız vəziyyətə düşməsinə şərait yaradan 120-dən artıq valideyn haqqında müvafiq tədbir görülməsi məqsədilə aidiyyəti dövlət təşkilatlarına və hüquq mühafizə orqanlarına müraciətlər göndərilmiş, zəruri ölçü götürülməsi təmin olunmuşdur. "Küçə uşaqlarının vəziyyəti: mövcud durum və qiymətləndirmə" "Xüsusi qayğıya ehtiyacı olan uşaqlarla iş", "Orta məktəblərdə narkotiklərdən istifadənin qarşısının alınması istiqamətində maarifləndirmə və təbliğat işi", "Qanunla ziddiyyətdə olan uşaqlarla iş üsullarının təkmilləşdirilməsində birgə səylər", "Azərbaycanda yuvenal ədliyyənin vəziyyəti və inkişafı perspektivləri" adlı layihələrin həyata keçirilməsi təmin edilmişdir. Bu layihələrin həyata keçirilməsində polisin aidiyyəti xidmət sahəsinin 400-ə yaxın əməkdaşı, o cümlədən BMT-nin, ATƏT-in 10-a yaxın ekspert və mütəxəssisləri, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin ekspertləri, 20 qeyri-hökumət uşaq təşkilatlarının nümayəndələri və müşahidəçiləri iştirak etmişlər. Layihələrin yekunu və nəticələri ilə əlaqədar məlumat kitabçaları, broşura, plakat, bukletlər və BMT-nin uşaq hüquqları ilə bağlı aparıcı sənədləri nəşr edilərək yerli orqanlara göndərilmişdir.

### 3. Maddə 34. Cinsi istismar

Azərbaycan Respublikasının 1992-ci il 21 iyul tarixində qoşulduğu BMT-nin "Uşaq hüquqlarına dair" Konvensiyanın 34-cü maddəsinə əsasən iştirakçı dövlətlər, o cümlədən Azərbaycan Respublikası uşaqları seksual istismarın və seksual yola çəkmənin bütün formalarından müdafiə etməyi və bu məqsədlə uşaqların hər hansı qanunsuz seksual fəaliyyətə sövq və ya məcbur edilməsinin, istismar məqsədilə uşaqlardan fahişəlikdə və digər qanunsuz praktikada istifadə edilməsinin, istismar məqsədilə uşaqlardan pornoqrafiyada və pornoqrafik materiallarda istifadə edilməsinin qarşısını almaq üçün milli, ikitərəfli və çoxtərəfli səviyyələrdə bütün lazımi tədbirlər görməyi öz öhdələrinə götürmüşdür. Qeyd olunan Konvensiyaya qoşulduqdan sonra Azərbaycan Respublikası üzərinə götürdüyü öhdəliklərin icrası istiqamətində, o cümlədən milli qanunvericiliyin müvafiq standartlara uyğunlaşdırılması məqsədi ilə müvafiq tədbirlər görmüş, 1998-ci il 19 may tarixli "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu, 2000-ci il iyunun 1-dən qüvvəyə minmiş Azərbaycan Respublikasının Ailə Məcəlləsi, 2000-ci il sentyabrın 1-dən qüvvəyə

minmiş Azərbaycan Respublikasının Cinayət Məcəlləsi və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, 2005-ci il 24 may tarixli “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında” Azərbaycan Respublikasının Qanunu və s. normativ aktlar qəbul olunmuşdur. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 151-ci maddəsində seksual xarakterli hərəkətlərə məcbur etməyə, 152-ci maddəsində on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olmağa və ya seksual xarakterli digər hərəkətlər etməyə, 153-cü maddəsində əxlaqsız hərəkətlərə, 170-ci maddəsində yetkinlik yaşına çatmayanı cinayətkar fəaliyyətə cəlb etməyə, 171-ci maddəsində yetkinlik yaşına çatmayanları fahişəliyə və ya əxlaqsız əməllərə cəlb etməyə, 174-cü maddəsində qanunsuz olaraq övladlığa götürməyə, 242-ci maddəsində pornoqrafik materialları və ya əşyaları qanunsuz yaymağa, 243-cü maddəsində fahişəliliyə cəlb etməyə, 244-cü maddəsində isə əxlaqsız yuvaları saxlamağa görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Bundan başqa Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 307-ci maddəsi yetkinlik yaşına çatmayanların sərxoşluq vəziyyətinə gətirilməsinə, 308-ci maddəsi fahişəliliklə məşğul olmağa və 307-1-ci maddəsi avaralıqla məşğul olmağa, o cümlədən yetkinlik yaşına çatmayanların avaralığa cəlb edilməsinə görə inzibati məsuliyyət müəyyən etmişdir.

Fahişəlik, pornoqrafiya və insan alveri daxil olmaqla, cinsi istismara cəlb edilmiş uşaqların sayı 69 nəfərdir.

Məsələn: Şəmkir rayonu Seyfəli kəndində yaşayan Süleymanova Fəridə Şirin qızı 1990-cı il 10 avqust tarixində anadan olmuş Fərəcova Məleykə Xudayar qızını 2008-ci il 13 mart tarixində fahişəliyə cəlb edərək 2008-ci il 17 mart tarixinədək Şəmkir rayonu ərazisində müxtəlif kişilərlə görüşdürüb, buna müvafiq olaraq qazanc əldə etməsi faktına görə toplanmış materiallar əsasında 2000-ci il 20 mart tarixində Şəmkir rayon polis şöbəsinin istintaq bölməsində Fəridə Süleymanova barəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 171.1-ci maddəsi ilə cinayət işi başlanmışdır.

İstintaqla müəyyən olunmuşdur ki, Süleymanova Fəridə Şirin qızı 1991-ci il 30 mart tarixində Şəmkir rayonu Seyfəli kəndində anadan olmuş, yetkinlik yaşına çatmayan Nağdıyeva Tamam Qurban qızını 2000-ci il yanvar ayının əvvəllərində fahişəliyə cəlb edərək 2008-ci il 17 mart tarixinədək olan müddət ərzində onu mütəmadi olaraq razılığa gəldiyi kişi müştərilərlə cinsi əlaqədə olması üçün görüşdürüb, bunun müqabilində hər bir görüşdən pul almaqla qazanc əldə etmişdir.

Bundan əlavə Süleymanova Fəridə, təkrarən Şəmkir rayonu Çinarlı qəsəbəsində yaşayan, 1990-cı il 10 avqust təvəllüdlü Fərəcova Məleykə Xudayar qızını 2008-ci il 13 mart tarixində fahişəliyə cəlb edərək 2008-ci il 17 mart tarixinədək olan müddət ərzində onu mütəmadi olaraq razılığa gəldiyi kişi müştərilərlə cinsi əlaqədə olması üçün görüşdürüb, bunun müqabilində hər bir görüşdən pul almaqla qazanc əldə etmişdir.

Qeyd olunanlara əsasən Süleymanova Fəridə Şirin qızına Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 171.1-ci maddəsində nəzərdə tutulmuş ittiham elan olunmuş, barəsində həbs qətimkan tədbiri seçilmiş və cinayət işi 2008-ci il 4 iyun tarixli ittiham aktı ilə birlikdə baxılması üçün məhkəməyə göndərilmiş, iş üzrə hökm çıxarılmışdır.

Qəbələ rayonu Dızaxlı kənd sakini Soltanov Teymur Cəfər oğlu 2007-ci ilin yay aylarında 2008-ci ilin mart ayınadək olan dövr ərzində həmkəndlisi Dadaşova Afət İsgəndər qızını şantajla və aldatmaqla gəlir əldə etmək məqsədi ilə fahişəliyə cəlb etmiş və dəfələrlə müxtəlif müştərilərdən A. Dadaşova ilə cinsi əlaqədə olduqlarına görə müxtəlif məbləğlərdə pul almışdır.

Faktla bağlı 2008-ci il 13 mart tarixində Qəbələ Rayon Polis Şöbəsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 243.1-ci maddəsi ilə cinayət işi başlanaraq istintaq aparılmış və T.Soltanov təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilərək 2008-ci il 29 mart tarixində barəsində həbs qətimkan tədbiri seçilmişdir.

Cinayət işinin istintaqı tamamlanaraq 2008-ci il 30 aprel tarixində baxılması üçün Qəbələ rayon məhkəməsinə göndərilmişdir.

Məhkəmənin 2008-ci il 4 iyun tarixli hökmü ilə Soltanov Teymur Cəfər oğlu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 243.1-ci maddəsi ilə təqsirli bilinib 550 manat miqdarında cərimə cəzasına məhkum edilmişdir.

Zaqatala rayonu Mosul kənd sakini Allahverdiyev Nəsib Veysulla oğlu 2007-ci ilin iyun ayının əvvəllərində yaşadığı Zaqatala rayonu Mosul kəndində yerləşən evində Azayeva Könül Atakişi qızının 1992-ci il 21 fevral tarixində anadan olmuş, aşkar surətdə yetkinlik yaşına çatmadığını bilə-bilə onunla cinsi əlaqədə olmuşdur. 2008-ci il 25 mart tarixində N. Allahverdiyev barəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 152-ci maddəsi ilə cinayət işi başlanılaraq istintaq aparılmış və baxılması üçün rayon məhkəməsinə göndərilmişdir.

Uşaq alverinin qarşısının alınması və onların şərəf və ləyaqətinə hörmət göstərmək baxımından təlim keçirilmiş sərhəd xidməti və hüquq mühafizə orqanları əməkdaşlarının sayı 41 nəfərdir.

"Uşaq hüquqları haqqında" BMT Konvensiyasının Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair Fakültativ Protokolunun tələblərinə uyğun olaraq yetkinlik yaşına çatmayanların pornoqrafik təsviri olan materialların və ya əşyaların yayılması və hazırlanmasına görə cinayət məsuliyyəti müəyyən edən yeni 171-1-ci maddənin Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əlavə edilməsini nəzərdə tutan müvafiq qanun layihəsi Ədliyyə Nazirliyi tərəfindən hazırlanmış və aidiyyəti orqanlarla razılaşdırıldıqdan sonra baxılması üçün Nazirlər Kabinetinə göndərilmişdir.

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə zorakılığı və qəddarlığı, milli, irqi, sosial ədavəti yaxud dözülməzliyi təbliğ etmək, mötəbər mənbə adı altında vətəndaşların şərəf və ləyaqətini alçaldan şaiyələr, pornoqrafik materiallar çap etdirmək yaxud digər qanunazidd əməllər törətmək məqsədilə kütləvi informasiya vasitələrindən istifadə olunmasına yol verilmir. Həmçinin reklam fəaliyyətində pornoqrafiyadan istifadə qadağandır.

"Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq Milli Televiziya və Radio Yayım Şurası terrorizmin, zorakılığın, qəddarlığın, milli, dini və irqi ayrı-seçkiliyi təbliğinə yol verilməməsinə, uşaqların və yetkinlik yaşına çatmayanların fiziki, əqli və mənəvi inkişafına ziyan vuran proqramların onların baxa biləcəyi vaxtda verilməməsinə nəzarət edir və həmin qanunun 32.0-ci maddəsində qeyd olunur ki, proqramlar yayım üçün hazırlanarkən terrorizm, zorakılıq, qəddarlıq, milli, dini və irqi ayrı-seçkilik təbliğ olunmamalıdır.

"Televiziya və radio yayımı haqqında" qanunun 35.10-cu maddəsinə əsasən narkotik vasitələrin, psixotrop maddələrin, silahların, pornoqrafiyanın, , tütün məmulatlarının, Azərbaycan Respublikasının qanunvericiliyi ilə reklamı qadağan olunan digər məhsulların, habelə saat 7.00-dan saat 23.00-dək spirtli içkilərin televiziya və radio ilə reklamına yol verilmir. Həmin Qanunun 40.2.2-ci maddəsinə görə pornoqrafik materialları yaymamaq teleradio yayımçılarının vəzifələrindən biri kimi müəyyən edilmişdir.

| İllər/Cinayətlərin növü | **2003** | **2004** | **2005** | **2006** | **2007** | **2008 6 ay** |
|---|---|---|---|---|---|---|
| Zorlama | 10 | 6 | 4 | 2 | 5 | 1 |
| Seksual xarakterli zorakılıq hərəkətləri | 22 | 18 | 13 | 3 | 10/20 | 13 |
| 16 yaşına çatmayanlarla cinsi əlaqədə olma | 67 | 105 | 109 | 30 | 130 | 62 |
| Əxlaqsız hərəkətlər | 10 | 3 | 5 | - | 7 | 2 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Uşaqların fahişəliyə cəlb olunması | 3 | 6 | 3 | 37 | 8 | 9 |
| Uşaqların cinayət törətməyə təhrik edilməsi | 35 | 36 | 39 | 31 | 34 | 17 |

2005-ci ildən Azərbaycan Respublikasının Səhiyyə və Təhsil nazirlikləri arasında BMT-nin Qlobal Fondunun "Azərbaycanda HİV/AİDS-ə qarşı cavab tədbirlərinin gücləndirilməsi" layihəsinin həyata keçirilməsinə dair Əməkdaşlıq Sazişinə uyğun olaraq gənclər arasında cinsi tərbiyənin formalaşdırılması və gənclərin sağlamlığının qorunması məqsədilə məktəblərdə "Həyati bacarıqlara əsaslanan təhsil" üzrə fakültativ kursun tədrisi ilə əlaqədar I-IV, V-IX və X-XI siniflər üçün "Həyati bacarıqlara əsaslanan təhsil" kursunun proqramları və müəllimlər üçün "Həyati bacarıqlara əsaslanan təhsil" tədris vəsaiti - hər cilddən 50 min olmaqla hazırlanmış və məktəblərə pulsuz paylanılmışdır. Hazırda 846 məktəbdə bu proqram tətbiq olunur, 3254 müəllim treninqlər vasitəsilə təlimatlandırılmış, 351929 şagird HİV/AİDS üzrə təhsil almışlar.

### 4. <u>Maddə 36. İstismarın digər formaları</u>

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 28-ci maddəsində göstərilir ki, dövlət sosial, hüquqi, iqtisadi, tibbi və tərbiyəvi vasitələrlə uşaqları istismarın bütün növlərindən, ağır, zərərli və təhlükəli əməkdən və təsirlərdən mühafizə edir.

Azərbaycan Respublikası tərəfindən qadınlara və uşaqlara qarşı zorakılığın qarşısının alınması istiqamətində həyata keçirilən kompleks tədbirlərə dəstək məqsədilə Heydər Əliyev Fondu, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və BMT-nin Əhali Fondu arasında 2008-ci ilin 16 yanvar tarixində imzalanmış "XXI əsrdə qadınlara qarşı zorakılıq əleyhinə" layihəsi üç önəmli elementi əhatə edir:

- zorakılıq qurbanları üçün mühafizə xidmətlərinin təkmilləşdirilməsi və zorakılıq törədənlər üçün zorakılıqsız davranış üzrə təlim-tədris proqramlarının işlənib hazırlanması;
- cəmiyyətin məişət zorakılığına münasibətinin dəyişdirilməsi üçün milli maarifləndirmə kampaniyalarının həyata keçirilməsi;
- zorakılıq qurbanları üçün profilaktika, mühafizəedici və reabilitasiya xidmətlərinin göstərilməsi üçün müvafiq dövlət strukturlarının imkanlarının inkişaf etdirilməsi.

Layihə çərçivəsində respublikanın regionlarında seminar-təlimlər həyata keçirilmiş, bukletlər və video çarxlar hazırlanmışdır.

Uşaq istismarının digər formaları ilə bağlı müxtəlif cinayət faktları aşkar edilmişdir:

Məsələn: 1988-ci il 29 mart tarixində anadan olmuş Oğuz şəhəri M. F. Axundov küçəsi ev 40 ünvanında yaşayan Hətəmov Dağlar Fərrux oğlu cinsi ehtirasını pozğun formada təmin etmək, yəni homoseksual cinsi əlaqədə olmaq məqsədi ilə 2003-cü il 25 iyun tarixində saat 16-00 radələrində "oliqofreniya" ruhi xəstəliyindən əzab çəkən 1985-ci il 20 noyabr təvəllüdlü Sadıqov Famil Ələddin oğluna qarşı zor tətbiq etmiş, köməksiz vəziyyətindən istifadə etməklə seksual xarakterli zorakılıq hərəkətləri törətmişdir.

Həmin fakta görə Oğuz Rayon Polis Şöbəsində cinayət işi başlamış, D. Hətəmova Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 150.1-ci maddəsi ilə ittiham elan edilməklə, barəsində 04 iyul 2003-cü il tarixidə həbs qətimkan tədbiri seçilmişdir.

Oğuz rayon məhkəməsinin 26 sentyabr 2003-cü il tarixli hökmünə əsasən D. Hətəmov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 150.1-ci maddəsi ilə təqsirli bilinib 3 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir.

2005-ci il 18 sentyabr tarixində Salyan rayonunun Dayikənd kəndində yaşayan yetkinlik yaşına çatmayan 1988-ci il 15 fevral tarixində anadan olmuş Abbasov Nurlan Ağapaşa oğlu 2000-ci il 12 avqust tarixində anadan olmuş azyaşlı Cəbrayilov Elxan Vurğun oğluna qarşı uşaqbazlıq etmişdir.

Həmin fakta görə Salyan Rayon Polis Şöbəsində 2005-ci il 21 sentyabr tarixində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 150.3.3-cü maddəsi ilə cinayət işi başlanılmış, 2005-ci il 23 sentyabr tarixində N. Abbasov təqsirləndirilən şəxs qismində həbs edilmişdir.

2005-ci ildə 17 dekabr tarixində iş üzrə ittiham aktı təsdiq edilib baxılması üçün Ağır Cinayətlərə Dair İşlər Üzrə Azərbaycan Respublikasının Məhkəməsinə göndərilmiş və iş üzrə hökm çıxarılmışdır.

## 5. Maddə 35. Satılma, insan alveri və oğurluq

Azərbaycan Respublikasında uşaq hüquqlarının vəziyyətinə dair BMT-nin Uşaq hüquqları Komitəsinin tövsiyə və tələblərinə müvafiq olaraq Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən dövrü olaraq zəruri tədbirlər görülmüş, uşaqlarla işəyən polis əməkdaşlarına BMT-nin "Uşaq hüquqlarına dair" Konvensiyasının və həmin Konvensiyaya dair əlavə Protokolların öyrədilməsi və xidməti fəaliyyətdə tətbiq olunması diqqət mərkəzində saxlanılmışdır. BMT-nin Uşaq hüquqları Komitəsinin tövsiyələri ilə əlaqədar BMT-nin "Uşaq hüquqlarına dair" Konvensiyası Daxili İşlər Nazirliyinin göstərişi ilə bütün şəhər-rayon, xətt polis orqanlarına göndərilmiş, həmin Konvensiya mərhələlərlə təlim və peşə hazırlığı məşğələlərində öyrənilmiş, nəticələri ilə əlaqədar əməkdaşlarla hazırlıq dərsləri keçirilmişdir. Həmin Konvensiyanın 35, 37 və 40-cı bəndələrinə müvafiq olaraq, cinayət törədərək haqqında qətimkan tədbiri həbs seçilməyən, habelə müvəqqəti saxlama təcridxanalarında yerləşdirilən yeniyetmələrə hüquqi və mənəvi yardım göstərilməsi tədbirinə xüsusi diqqət yetirilməsi tələb edilmiş və görülən işlər bu gün də nəzarətdə saxlanılmaqdadır.

Hesabat dövründə müəyyən edilmiş iqtisadi xarakterli cinsi istismar, cinsi sui-istifadə, uşaq alveri, uşaq oğurluğu və uşaqlara qarşı zorakılıq hallarının sayı 26 olmuşdur.

Azərbaycan Respublikası 2002-ci il 2 aprel tarixli Azərbaycan Respublikasının Qanunu ılə "Uşaq hüquqları haqqında" BMT Konvensiyasının Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair Fakültativ Protokoluna qoşulmuşdur. Həmin Protokolun 1-ci maddəsinə əsasən iştirakçı dövlətlər uşaq alveri, uşaq fahişəliyi və uşaq pornoqrafiyasını bu Protokolda nəzərdə tutulduğu kimi qadağan etməyi öz öhdələrinə götürmüşdürlər. Bu mənada yuxarıda qeyd olunan əməllərə dair Fakültativ Protokolun müddəaları ilə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müddəalarının müqayisəli təhlilinə əsasən belə qənaətə gəlmək olar ki, uşaqlarla ticarət, uşaq fahişəliyi və uşaq pornoqrafiyasına dair müəyyən edilmiş tərkib elementləri Azərbaycan Respublikasının cinayət qanunvericiliyi ilə tam şəkildə əhatə olunur. Belə ki, Fakültativ Protokola əsasən uşaqlarla ticarət uşağın cinsi istismarı, uşaq orqanlarının mükafat müqabilində daşınması, uşağın məcburi əməyə cəlb edilməsi məqsədləri üçün istənilən vasitələrlə təklif edilməsi, verilməsi və ya qəbulunu, habelə vasitəçilik qismində, övladlığa götürməyə tətbiq olunan beynəlxalq-hüquqi aktları pozaraq uşağın övladlığa götürülməsi üçün razılıq verilməsinə qeyri-qanuni vadar etməni

nəzərdə tutur. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində isə əvvəllər yetkinlik yaşına çatmayanın alqı-satqısı adlanan ayrıca 173-cü maddə nəzərdə tutulsa da, 2005-ci il 30 sentyabr tarixli Qanunla həmin maddə çıxarılmış və "insan alveri" adlanan 144-1-ci maddə əlavə edilmişdir. Həmin maddəyə əsasən insan alverinin yetkinlik yaşına çatmayan şəxsə qarşı törədilməsi ağırlaşdırıcı hal kimi nəzərdə tutulmuşdur. Beləliklə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 144-1-ci maddəsinə əsasən insan alveri şəxsin alqı-satqısı və ya ona sahibliklə əlaqədar digər əqdlərin bağlanması, yaxud onun istismar edilməsi məqsədilə Azərbaycan Respublikasının dövlət sərhədindən keçirilməsi üçün və ya eyni məqsədlə digər şəxslərə verilməsi üçün cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsidir.

Həmin maddənin qeydinə əsasən "insanın istismarı" dedikdə məcburi əmək (xidmət), cinsi istismar, köləlik, köləliyə bənzər adətlər və onlardan irəli gələn asılılıq vəziyyəti, insan orqanlarının və toxumalarının qanunsuz çıxarılması, şəxs üzərində qanunsuz biotibbi tədqiqatlar aparılması, qadınının surroqat ana kimi istifadə edilməsi, qanunsuz, o cümlədən cinayətkar fəaliyyətə cəlb etmə başa düşülür. Göründüyü kimi Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 144-1-ci maddəsi Fakültativ Protokolun uşaqlarla ticarətə dair müəyyən etdiyi bütün tərkib elementlərini, habelə müəyyən mənada uşaqlarla qaçaqmalçılığı da əhatə edir. Bundan başqa Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 174-cü maddəsi uşaqların övladlığa götürülməsi, qəyyumluğa (himayəyə) və ya himayədar ailəyə tərbiyə olunmaq üçün verilməsi ilə bağlı tamah məqsədilə törədilən qanunsuz hərəkətlərə görə məsuliyyət müəyyən etməklə Fakültativ Protokolun 3-cü maddəsində uşaqlarla ticarətin müvafiq əlamətlərini ehtiva etmiş olur.

Bundan əlavə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 171-ci maddəsi yetkinlik yaşına çatmayanları fahişəliyə və ya əxlaqsız əməllərə cəlb etməyə, 242-ci maddəsi isə pornoqrafik materialları və ya əşyaları qanunsuz yaymağa görə cinayət məsuliyyəti müəyyən edir ki, bu da Fakültativ Protokolun tələblərinə tam cavab verir. BMT-nin "Uşaq hüquqlarına dair" Konvensiyasının 35-ci maddəsinə əsasən iştirakçı dövlətlər uşaqların hər hansı məqsədlərlə və hər hansı formada oğurlanmasının, uşaqlarla ticarətin və ya qaçaqmalçılığın qarşısını almaq üçün milli, ikitərəfli və çoxtərəfli səviyyələrdə bütün lazımi tədbirləri görürlər. Bu mənada Azərbaycan Respublikasının cinayət qanunvericiliyinin təhlili göstərir ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 144-cü maddəsi adam oğurluğuna görə cinayət məsuliyyəti müəyyən etmişdir. Həmin maddəyə əsasən adam oğurluğunun yetkinlik yaşına çatmayan şəxs barəsində törədilməsi isə xüsusilə ağırlaşdırıcı hal kimi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası uşaq alverinin qarşısının alınması və transsərhəd uşaq alveri yollarının müəyyən olunması məqsədilə beynəlxalq əməkdaşlıq sahəsində də müəyyən tədbirlər görmüş, Azərbaycan Respublikasının 2003-cü il 13 may tarixli Qanunu ilə BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiya"sına və onu tamamlayan "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" Protokola qoşulmuşdur.

Uşaq alverinin qurbanlarının hüquqlarının müdafiəsi sahəsində xüsusi müdafiə tədbirlərinə gəldikdə isə qeyd etmək lazımdır ki, "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının 2005-ci il 24 may tarixli Qanununa əsasən həyatda çətin vəziyyətə düşmüş və təcili dövlət yardımına ehtiyacı olan yetkinlik yaşına çatmayanların sosial reabilitasiyasını və müvəqqəti yaşayışını təmin edən sosial sığınacaqların yaradılması nəzərdə tutulmuşdur ki, həmin sığınacaqlar uşaq alverinin qurbanlarının

da sosial reabilitasiyasına xidmət edir. Bundan başqa Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 9 noyabr tarixli Qərarı ilə təsdiq edilmiş "İnsan alveri quranları üçün xüsusi müəssisələrin yaradılması, maliyyələşdirilməsi, fəaliyyəti, habelə onların fəaliyyətinə nəzarət Qaydaları"nın 3.4-cü və 3.5-ci bəndlərinə əsasən insan alverinin qurbanı olmuş uşaqlar barədə sığınacaqlar və yardım mərkəzləri tərəfindən dərhal qəyyumluq və himayə orqanına və Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyaya məlumat verilir. Uşaqlar sığınacaqlara 60 gün müddətinə yerləşdirilir. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, qəyyumluq və himayə orqanını və ya Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyanın vəsatəti ilə bu müddət uzadıla bilər. Bütün hallarda 10 yaşından böyük uşaqların məsələyə dair münasibəti öyrənilir və nəzərə alınır. Sığınacaqlarda uşaqlar bir qayda olaraq ayrı yerləşdirilir, uşağın mənafeyi nəzər alınaraq, o valideynləri ilə (uşağın insan alverinin qurbanı olmasına valideynlərinin səbəb olması güman edilən hallar istisna olmaqla) və ya uşağın psixoloji durumuna müsbət təsir göstərən digər şəxslərlə də yerləşdirilə bilər. Burada uşaqlara təhsillərini davam etdirmək, valideynləri ilə (uşağın insan alverinin qurbanı olmasına valideynlərinin səbəb olması güman edilən hallar istisna olmaqla) əlaqə və ünsiyyət saxlamaq imkanı yaradılır.

İnsan alverinə, o cümlədən uşaq alverinə qarşı mübarizə üzrə milli səviyyədə görülmüş tədbirlər sırasında Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 6 may tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı"nı xüsusi qeyd etmək lazımdır.

2005-ci il 28 iyun tarixində Azərbaycan Respublikasının "İnsan alverinə qarşı mübarizə haqqında" Qanunu qəbul edilmişdir.

**Uşaq alverinin (alqı-satqısının) vəziyyətinə dair**

| Cinayətlərin növü/illər | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008<br>6 ay |
|---|---|---|---|---|---|---|
| Uşaqların alqı-satqısı<br>(mad. 173) | 1 | 3 | 1 | | | |
| Uşaqların alveri<br>(mad. 144.1.2.3) | | | | 1 | - | 4 |

### D. Maddə 30. Milli azlıqlara və yerli əhaliyə mənsub olan uşaqlar

"Deportasiya olunmuş şəxslərin, milli azlıqların və xalqların hüquqlarının bərpası ilə bağlı məsələlərə dair Saziş" Azərbaycan Respublikasının 1996-cı il 8 oktyabr tarixli Qanunu ilə təsdiq edilmişdir.

"Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyasına qoşulmaq barədə" Azərbaycan Respublikasının 2000-ci il 16 iyun tarixli Qanununda qeyd-şərt qismində göstərilir ki, "Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası"nın ratifikasiyası və onun müddəalarının həyata keçirilməsi Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə, onun daxili və xarici təhlükəsizliyinə xələl gətirə bilən hər hansı hərəkətləri istisna edir.

Azərbaycan Respublikasının Konstitusiyasının 44-cü maddəsində hər kəsin öz milli mənsubiyyətini qoruyub saxlamaq hüququ təsbit olunmuşdur. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz. Azərbaycan Respublikasının Konstitusiyasının 45-ci maddəsində isə göstərilir ki, hər kəsin ana dilindən istifadə etmək hüququ vardır. Heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz.

Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nda etnik azlıqların mədəni irsinin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi ölkədə insan hüquqlarının qorunması sahəsində vacib istiqamətlərdən biri kimi müəyyən olunmuşdur.

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 16-cı maddəsində uşağın digər vəzifələrindən biri kimi öz xalqının və başqa xalqların ənənələrinə və mədəni sərvətlərinə hörmətlə yanaşmaq, tarix və mədəniyyət abidələrini qorumaq vəzifəsi də nəzərdə tutulmuşdur.

### E. Küçələrdə yaşayan və ya işləyən uşaqlar

Küçə uşaqları problemi ölkədə uşaq problemləri sahəsində mövcud olan başlıca problemlərdəndir. Bu uşaqların dəqiq statistikası müəyyənləşdirilməmişdir. Lakin son illərdə 1998-99-cu illərlə müqayisədə küçədə işləyən və yaşayan uşaqlar daha azlıq təşkil edir. Buna səbəb uğurlu iqtisadi inkişaf və yoxsulluq səviyyəsinin azalmasıdır. Lakin valideyn məsuliyyətsizliyi daha çox qabarıq şəkildə özünü büruzə verir. Müharibə şəraitində yaşayan bir ölkə olaraq, Ermənistana sərhəd olan rayonlardan və digər rayonlardan ailələr şəhərə axın edir və asan iş və qazanc yolu əldə edərək uşaqlarını işləməyə sövq edirlər.

2006-cı ildə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Beynəlxalq Əmək Təşkilatının birgə əməkdaşlığı çərçivəsində "Azərbaycanda uşaq əməyindən istifadə edilməsinə dair" seçmə statistik müayinə 8 rayonda 44 kənddə keçirilmişdir (Sabirabad, Biləsuvar, İmişli, Beyləqan, Ağcabədi, Bərdə, Ucar və Kürdəmir). Nəticələrə görə pambıqçılıq rayonlarında yaşayan uşaqların 90% dən çoxu pambıq becərilməsinə cəlb olunurlar.

- Əmək fəaliyyətinə başlayan zaman uşaqların minimal yaş həddi -8 yaş;
- Əmək fəaliyyətinə başlayan zaman uşaqların maksimal yaş həddi -16 yaş;
- Əmək fəaliyyətinə başlayanların orta yaş həddi 12, o cümlədən oğlanlar üçün 12-13 yaş, qızlar üçün 11-12 yaş müəyyən edilmişdir;
- Pambıqçılıqda işləyən uşaqların əksəriyyəti (50%) 12 yaşdadır.

Beynəlxalq Əmək Təşkilatının Azərbaycanda keçirdiyi müayinənin nəticələrinə görə Azərbaycanda ümumilikdə erkən iş fəaliyyətinə başlama yoxdur. İş fəaliyyətinə başlayanlar əsasən 15 yaşından başlayaraq artır. Qız uşaqlarının işləməsi daha azdır. Ananın savadlı və təhsilli olması uşağın işləməsini azaldan faktordur (bu halda uşaq işləməyə daha gec başlayır).

Kənd yerlərində ailənin rifahı artdıqca uşaq daha çox işləyir və işləməyə erkən yaşdan başlayır. Şəhər yerlərində isə əksinə ailənin rifahı artdıqca uşağın əməyə cəlb olunması faktı azalır. Qaçqın və köçkün ailələrdən olan uşaqlar işləməyə daha çox meyllidirlər. İşləyən və işləməyən uşaqların

məktəbə getməsində elə bir böyük fərq görünmür. Uşağın yaşı artdıqca uşaq əməyi riski azalır. İşləyən uşaqlar işləməyənlərdən daha çox sağlamlıqlarından şikayət edirlər.

2006-cı ildən başlayaraq Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi tərəfindən mütəmadi olaraq küçə uşaqları üçün "Ümid Yeri" reabilitasiya mərkəzi ilə birgə təlimlər keçirilmiş, bu mərkəzin fəaliyyətinə dəstək verilmiş, 10 ildə 1000-dən artıq uşaq reabilitasiya olunaraq ailəsinə qaytarılmış, narkotik vasitələrdən istifadə edən yeniyetmələr müalicə və reabilitasiya olunaraq təhsilə və təlimə cəlb edilmişlər. 2007-2008-ci illərdə Dövlət Komitəsi bu kateqoriya uşaqlar üçün reproduktiv sağlamlıq və narkomaniya ilə bağlı təlimlər keçirmişdir.